# Xalq qəzeti

Xalqın qəzeti!

№ 255 (30949) 3 dekabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Mənəvi dəyərlər milli varlığın özülüdür



**Milli-mənəvi dəyərlər bizim cəmiyyətimizin əsasıdır. Bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük.**

**Gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi – bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## ATƏT-in zirvə görüşündə Azərbaycan həqiqəti

*Lissabon sammiti 29 il əvvəl ölkəmizin ərazi bütövlüyünü beynəlxalq səviyyədə təsbit etmişdi*



**Ötən əsrin 90-cı illərinin əvvəlləri Azərbaycan üçün həm təhlükələrlə dolu, həm də taleyüklü qərarların verildiyi dövr kimi xarakterizə olunur. Dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz sosial-iqtisadi çətinliklər, ictimai-siyasi təlatümlər və erməni işğalının ağır nəticələri ilə üz-üzə qalmışdı. Belə bir vaxtda Azərbaycanın beynəlxalq müstəvidə mövqeyini gücləndirən, siyasi müstəvidəki sonrakı uğurlarımızın əsasını qoyan mühüm hadisələrdən biri 1996-cı il dekabrın 2–3-də ATƏT-in dövlət və hökumət başçılarının Portuqaliyanın paytaxtı Lissabonda keçirilən sammiti oldu. Həmin sammit həm regionun gələcəyinə təsir göstərən mühüm qərarların qəbul edildiyi platforma, həm də Azərbaycanın diplomatik mübarizəsinin dönüş anı kimi tariximizə əbədi həkk olunub.**

*(ardı 3-cü səhifədə)*

## Avropanın enerji təchizatında Azərbaycanın rolu yüksəlir



Səhifə ⇨ 7

## Mərhəmət mənəvi məlhəmdir



Səhifə ⇨ 8

## Aİ Ermənistan uğrunda mübarizəyə başlayır



Səhifə ⇨ 5

## Qarabağın tarixi abidələri inventarlaşdırılır



Səhifə ⇨ 11

## Diplomatik protokol geosiyasətə qarşı



Səhifə ⇨ 4

## Avropanın dondurulmuş aktivlər dilemması



Səhifə ⇨ 5

## Qiymətlər yüksəldikcə keyfiyyət aşağı düşür



Səhifə ⇨ 8

## Minsk qrupu və ikili standartların Cənubi Qafqazda süqutu

**ATƏT-in Minsk qrupunun və onunla bağlı bütün strukturların ləğvi qərarı, əslində, çoxdan yetişmiş bir siyasi reallığın institusional təsdiqidir. İllər boyu regionun taleyinə nəzarət etməyə çalışan bir formatın formal olaraq fəaliyyətini dayandırması Cənubi Qafqazda yeni güc düzəninin rəsmi elanıdır. Bəs bu proses nə üçün indi baş verdi? Çünki həm Bakı, həm də İrəvan artıq faktiki vəziyyətlə razılaşmışdı: Minsk qrupu münaqişəni idarə etməyi belə bacarmayan, zamanın ritmini itirmiş platformaya çevrilmişdi.**




Azərbaycan 2020-ci ildə öz gücü ilə münaqişəni həll etdikdən sonra ortaya çıxan yeni siyasi nizamda Minsk qrupunun mövcudluğunu qorumaq artıq praktiki və nəzəri baxımdan mümkün deyildi. Çünki institutlar yalnız real prosesləri idarə etdikləri müddətdə mövcudluq haqqı qazanır. Amma maraqlısı odur ki, beynəlxalq sistem belə qurumları dərhal arxivləşdirmir. Haqlı olaraq sual yarana bilər: “Əgər münaqişə bitmişdisə, niyə bu format dərhal ləğv olunmadı?”. Sualın cavabı bizi beynəlxalq münasibətlər tarixində çox tanış fenomenə – institusional tənbəlliyə aparır.

*(ardı 3-cü səhifədə)*

## Erməni qaniçənliyi haqq divanında



Səhifə ⇨ 4

## Pensiya artımları dövlətin sosial siyasətində davamlı istiqamətdir



Səhifə ⇨ 11

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir"

## *Yeniləşmə və tərəqqinin 146-cı kitabı*

**Yaşıl gündəliyimiz çox genişdir. 2030-cu ilə qədər imzalanmış investisiya müqavilələri əsasında biz ən azı 6 giqavatlıq "yaşıl enerji"ni, o cümlədən Günəş, külək və su elektrik enerjisini istehsal edəcəyik. Su elektrik enerjisi Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Biz ümumi 280 meqavat gücündə 30 kiçik su elektrik stansiyasını artıq istismara vermişik.**

Beləliklə, yaşıl gündəliyimiz həqiqətən, çox genişdir. Mənim mesajım, ev sahibi olan Azərbaycanın mesajı ondan ibarət idi ki, həmin məsələyə realist və praqmatik yanaşmalıyıq. Hamımız anlayırıq ki, biz planeti qorumalıyıq. Lakin ətraf mühit böhranına ən çox rəvac verənlər, yəqin ki, bu yükü öz üzərinə götürməlidirlər.

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 146-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2025-ci il iyulun 19-da Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşdə ona ünvanlanan COP29-un irsini necə görməsi, təəssüratlarını bölüşməsi barədə sualı cavablandırarkən söyləyib. Dövlətimizin başçısının həmin Forumun iştirakçıları ilə görüşünə aid materiallar, dünyanın müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin suallarına verdiyi cavablar 146-cı kitabda yer alıb. Ümumiyyətlə, çoxcildliyin bu kitabında toplanmış materiallar 2025-ci ilin iyun-iyul aylarını əhatə edir.

Bu nəşrə Prezident İlham Əliyevin iyun ayında Türkiyəyə işgüzar səfərinə, Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılışında iştirakına dair informasiya, həmin tədbirdə çıxışının mətni də daxil edilib.

Oxucular yeni kitabda Prezidentin iyun ayında Yevlax rayonuna səfəri, Olimpiya İdman Kompleksində, Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanışlığı, "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Yevlax" qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin, "Azərişıq" ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin, Yevlax pilot aqroparkının açılış mərasimlərində iştirakı haqqında materiallarla tanış ola




bilərlər. Prezident iyun ayında Goranboy rayonunda "Konstralab Induastries" QSC-nin tikinti materialları müəssisəsinin açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı Mingəçevirdə isə İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyəti, Çinin "Dongfang Electric International Corporation" şirkətinin İdarə Heyətinin sədri Çen Qianq ilə görüşüb, "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib və "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində çıxış edib. Bütün bunlar haqqında məlumatlar 146-cı kitabda verilib.

Çoxcildliyin bu kitabında iyulun 2-də Prezident İlham Əliyevin Azərbaycana dövlət səfərinə gəlmiş Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü, liderlərin Bakıda "Özbəkistan" parkının təməlini qoymaları, Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın 2-ci iclasında iştirak etmələri, iki dövlət arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi haqqında məlumatlar, prezidentlərin birgə mətbuata bəyanatlarla çıxışlarının mətnləri, dövlət başçılarının Özbəkistanın Azərbaycandakı səfirliyinin yeni binasının açılış mərasimində iştirakı, Xəzər dənizinin sahilində "Sea Breeze" istirahət mərkəzini ziyarət etmələri haqqında informasiyalar yer alıb. Prezident İlham Əliyev iyulun 3-də Qarabağ bölgəsinə səfər edib, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub, Zəfər parkında görülən tikinti işləri ilə tanış olub, Xankəndidə Türkmənistan Nazirlər Kabinetinin Sədr müavini, xarici işlər naziri Rəşid Meredov ilə görüşüb. Dövlətimizin başçısı, həmçinin "Xankəndi" Biznes Mərkəzinin, Xankəndi Konqres Mərkəzinin açılış mərasimlərində iştirak edib, Xankəndi-Şuşa kanat yolunun inşası üçün seçilmiş əraziyə baxıb. İyulun 3-də Azərbaycan və Özbəkistan prezidentləri Xankəndi şəhərində Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Business Tex JV" tikiş fabrikinin fəaliyyəti ilə də tanış olublar. Bütün bunlar haqqında informasiyalar yeni kitabda toplanıb.

İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin birinci mərhələsinin açılış mərasimində iştirak ediblər. İyulun 4-də isə dövlətimizin başçısı Xankəndidə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyəti, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, İran Prezidenti Məsud Pezeşkian, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüş görüşüb, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə çıxış edib. Bütün bunlar haqqında informasiyalar 146-cı kitabda verilib.

Yeni nəşrdə Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənələr" mövzusunda ikinci iclasının, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının Birinci Konqresinin, "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda beynəlxalq konfransın, "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun və digər beynəlxalq tədbirlərin iştirakçılarına müraciətlərinin mətnləri də verilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

***Əlahəzrət!***

***Əziz Qardaşım,***

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin qətiyyətli liderliyiniz altında ölkədə aparılan irimiqyaslı quruculuq işlərini, möhtəşəm və nümunəvi inkişafı görməkdən böyük sevinc duyuruq. Bütün bunlar Sizin çoxşaxəli fəaliyyətinizin, müdrik rəhbərliyinizin, Vətənə və xalqa yorulmadan göstərdiyiniz xidmətin bəhrəsidir.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələr xalqlarımız arasında qardaşlığa, dostluğa, qarşılıqlı etimada, anlaşmaya və dəstəyə əsaslanır. Ötən dövr ərzində bu möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin yüksələn xətt üzrə inkişaf edərək keyfiyyətcə yeni səviyyəyə çatması məmnunluq doğurur. Şübhəsiz ki, ali səviyyəli müntəzəm qarşılıqlı səfərlər, görüşlər, sıx əməkdaşlığımız bu münasibətlərin daha sürətlə inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Sentyabr ayında Sizin Azərbaycana rəsmi səfəriniz ikitərəfli əlaqələrimizin inkişafına yeni təkan vermişdir. Səfər çərçivəsində imzalanmış bir sıra sənədlər, xüsusilə də "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" dövlətlərarası əlaqələrimizi daha yüksək pilləyə qaldırmış, əməkdaşlığımızın ənənəvi sahələri ilə yanaşı yeni istiqamətlər üzrə də birgə fəaliyyətimizi genişləndirmişdir. Eyni zamanda səfər zamanı işğaldan azad olunmuş Qarabağ regionunu ziyarət etməyiniz xüsusi rəmzi məna daşıyır və biz bunu qardaşlığımızın və həmrəyliyimizin bariz nümunəsi olaraq dəyərləndiririk.

Hazırda Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlıq geniş gündəliyə malikdir. İqtisadi-ticari, neft-qaz, bərpaolunan enerji, investisiya, rəqəmsallaşdırma və digər sahələrdə səmərəli birgə fəaliyyətimiz uğurla inkişaf edir.

Əminəm ki, ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcək əməkdaşlığımızın dərinləşdirilməsi və şaxələndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl olaraq və uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim firavanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 noyabr 2025-ci il**

# Laos Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Thonqlun Sisulitə

**Hörmətli cənab Prezident!**

Laos Xalq Demokratik Respublikasının yaranmasının 50-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan Laos ilə əlaqələrin genişlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığın yeni məzmunla zənginləşməsinə xüsusi önəm verir.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətlərini möhkəmləndirmək, qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 noyabr 2025-ci il**

# Hikmət Hacıyev "EU Today"ə və jurnalistlərə müsahibə verib

**"Azərbaycan Avropa İttifaqı (Aİ) ilə enerji təhlükəsizliyi və qarşılıqlı əlaqə sahəsində əməkdaşlığı dərinləşdirməyə hazırdır".**

Bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə "EU Today"ə və jurnalistlərə müsahibəsində bildirib.

"H.Hacıyev bəyan edib ki, Azərbaycan enerji təhlükəsizliyi və qarşılıqlı əlaqə sahəsində Avropa İttifaqı ilə əməkdaşlığın dərinləşdirilməsinə hazırdır. Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin Avropa maliyyə institutlarına qaz infrastrukturu məsələlərində daha çox çeviklik göstərmək çağırışlarını da dəstəkləyir", - "EU Today" bildirib.

Qeyd olunur ki, 2024-cü ildə Avropa İttifaqı Cənub Qaz Dəhlizi vasitəsilə, təxminən, 11,7 milyard kubmetr Azərbaycan qazı idxal edib ki, bu da 2021-ci ildəki 8 milyard kubmetrdən çoxdur, 2022-ci il sazişi isə 2027-ci ilə qədər həcmin ən azı 16 milyard kubmetrə qədər artırılmasını nəzərdə tutur.

Azərbaycan rəsmisi bildirib ki, Trans-Adriatik Boru Kəmərinin və əlaqədar infrastrukturun daha da genişləndirilməsi Avropa tərəfindən "səmimi maraq" və uzunmüddətli müqavilə öhdəliklərinin olması halında mümkün olacaq.

H.Hacıyev perspektivlərdən bəhs edərkən bərpaolunan enerji mənbələrinə də diqqət çəkib. Azərbaycan Energetika Nazirliyi ölkədə bərpaolunan enerji mənbələrinin texniki potensialını quruda təxminən 135 giqavat, dənizdə isə, əsasən



Xəzər dənizində, 157 giqavat olaraq qiymətləndirir. Prezident İlham Əliyev 2030-cu ilə qədər, təxminən, 6 giqavat bərpaolunan enerji gücünə (günəş və külək elektrik enerjisi) nail olmaq hədəfini elan edib. Artıq planlaşdırılan layihələrin təxminən 10 giqavatını əhatə edən müqavilələr və memorandumlar imzalanıb.

"2030-cu ilə qədər Azərbaycan 6 GVt bərpaolunan elektrik enerjisi istehsal etmək imkanına malik olacaq", - deyə o bildirib.

Prezident köməkçisi qeyd edib ki, bu, Avropaya ixrac üçün daha çox qazın azad edilməsinə imkan verəcək. O, bu proqnozlaşdırılan gücü Avropanın rəqəmsal texnologiyalar və süni intellekt sahəsindəki hədəfləri ilə əlaqələndirib: "Avropaya yeni tərəfdaşlar lazımdır, bunu autsorsinq edin". H.Hacıyev Azərbaycanı Mərkəzi Asiyadan Avropaya məlumatları ötürən "rəqəmsal İpək yolu" çərçivəsində gələcək regional hab kimi təqdim edib.

H.Hacıyev bildirib ki, "nisbətən ucuz elektrik enerjisi" və ölkənin şimal bölgələrində əlverişli iqlim şəraiti sayəsində Azərbaycan qlobal rəqəmsallaşma konsepsiyası çərçivəsində yeni məlumat mərkəzinə çevrilmək üçün bütün üstünlüklərə və şərtlərə malikdir.

H.Hacıyev müsahibədə Azərbaycan və Ermənistan münasibətlərinə toxunarkən bildirib ki, Cənubi Qafqaz regionunda sülh qonşular arasında rifah və inkişafa gətirməlidir: "Azərbaycan üçün müharibə və münaqişə başa çatıb. Biz sülhü möhkəmləndirməliyik". Prezident köməkçisinin sözlərinə görə, Şərqlə Qərb, eləcə də Şimal və Cənub arasında əlaqələr genişləndikcə, Ermənistan "dalana dirənmiş ölkə"dən tranzit dövlətə çevrilə bilər.

"EU Today"ə və jurnalistlərə verdiyi müsahibəsində Hikmət Hacıyev onu da vurğulayıb ki, Zəngəzur dəhlizi Avrasiyanın kökündən dəyişməsinə təsir göstərəcək. Azərbaycan bu nəqliyyat mənzərəsinin dəyişdirilməsi prosesində mühüm rol oynayır. Onun sözlərinə görə: Bakı "Avropa İttifaqını bu yeni nəqliyyat sisteminin bir hissəsi kimi görmək istərdi".

Azərbaycan və İran arasındakı münasibətlərdən danışarkən Prezidentin köməkçisi bildirib ki, Azərbaycan İranla iqtisadi-ticarət əlaqələrini daha da inkişaf etdirməyi hədəfləyib.

Diplomatın sözlərinə görə, Azərbaycan və İran hazırda Araz çayı üzərində Ağbənd-Kəlalə avtomobil körpüsünün tikintisi layihəsini həyata keçirir. Körpü 2025-ci ilin sonuna, sərhəd və gömrük infrastrukturu isə 2026-cı ilin əvvəlinə qədər hazır olmalıdır.

H.Hacıyev onu da vurğulayıb ki, bu gün Bakı və Tehran arasındakı münasibətlər "sabitdir", iki ölkənin liderləri arasında yaxşı əlaqələr qurulub, İranın paytaxtındakı Azərbaycan səfirliyinə silahlı hücumun diplomatik nəticələri tam şəkildə həll olunub.

"Azərbaycan bu səhifəni tamamilə çevirib", - deyə Prezidentin köməkçisi qeyd edib və bildirib ki, Tehranda Azərbaycan səfirliyinə hücum edən şəxs İran qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb edilib.

AZAL-ın Qroznı üzərində vurulan təyyarəsi ilə bağlı sualları cavablandırarkən H.Hacıyev qeyd edib ki, hadisədən dərhal sonra "müəyyən anlaşılmazlıq" və "emosiyalar" yaranıb, lakin Bakının narahatlıqları Düşənbədə növbəti görüşdə (Azərbaycan və Rusiya liderləri - red.) müzakirə edilib.

"Azərbaycan Rusiyadan AZAL aviaşirkətinin vurulan təyyarəsinə görə rəsmi olaraq üzr istənilməsini, hərtərəfli araşdırmanın aparılmasını, günahkarların məsuliyyətə cəlb edilməsini və kompensasiya ödənilməsini gözləyirdi. Hazırda biz anlaşılmazlıqlar səhifəsini çevirmişik və iki ölkə arasında normal qonşuluq münasibətlərini davam etdirəcəyik", - deyə H.Hacıyev əlavə edib.

***XQ***

# Milli Məclisin növbəti plenar iclası




**Dekabrın 2-də Azərbaycan Respublikası Milli Məclisinin payız sessiyası çərçivəsində növbəti plenar iclas keçirildi. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən iclasda hökumət üzvləri də iştirak edirdi. Gündəlikdə növbəti il üçün dövlət büdcəsi zərfinə daxil olan layihələrlə yanaşı, digər qanun dəyişiklikləri də müzakirəyə çıxarılmışdı.**

İclasda ilk olaraq "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirəyə çıxarıldı. Çıxış edən maliyyə naziri Sahil Babayev Azərbaycanın iqtisadi siyasətinin üç strateji hədəfi olduğunu bildirdi: "Biz həm sabit makroiqtisadi mühiti, həm sürətli iqtisadi artımı, həm də dayanıqlı strateji ehtiyatlarımızı təmin etməyə çalışırıq. Əlbəttə ki, bu üç hədəf müəyyən qədər bir-birinə ziddir və bunların üçünü də eyni şəkildə maksimum dərəcədə əldə edə bilmərik. Ona görə də biz burada düzgün balans tapılması üzərində öz siyasətimizi qururuq".

Nazir Sahil Babayev həmçinin qeyd etdi ki, növbəti ilin büdcəsində kifayət qədər böyük investisiyayönümlü portfel nəzərdə tutulub. Onun sözlərinə görə, investisiyayönümlü xərclərin dövlət büdcəsində xüsusi çəkisi 34 faizdir: "Bu həm dünya, həm də postsovet ölkələrinin ortalamasından yüksəkdir. Və bu, bizə bir daha o imkanı, o əminliyi verir ki, Azərbaycanın dövlət büdcəsi investisiyayönümlü büdcədir. Digər bir tərəfdən biz rəqəm olaraq baxdıqda görürük ki, 2026-cı ildə bizim icmal büdcə xərclərimiz 2,6 faiz artımla proqnozlaşdırılır. Bunun özü də iqtisadiyyata töhfə verir, investisiya ilə yanaşı, istehlaka yönəlmiş əhalinin gəlirlərini də artırmağı hədəfləyir".

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev parlamentin plenar iclasında "Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin ikinci oxunuşda müzakirəsi zamanı bildirdi ki, Azərbaycanın 2030-cu ilədək DOST şəbəkəsi ilə əhatə edilməsi planlaşdırılır. Onun sözlərinə görə, həm DSMF, həm də İşsizlikdən Sığorta Fondunun büdcəsində DOST mərkəzlərində göstərilən xidmətlərlə bağlı Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinə müvafiq ödənişlər nəzərdə tutulur: "Agentlik 13 istiqamət üzrə əhaliyə 161 xidmət təqdim edir.

***(ardı 3-cü səhifədə)***

# ATƏT-in zirvə görüşündə Azərbaycan həqiqəti

*(əvvəli 1-ci səhifədə)*

Sammitin başlıca özəlliyi ondan ibarət idi ki, ölkəmizin ərazi bütövlüyü prinsipinin beynəlxalq aləmdə ayrıca bənd kimi təsbit olunması ilk dəfə Lissabonda baş verdi. O dövrdə Ermənistan, faktiki olaraq, təcavüz faktını ört-basdır etməyə, işğal etdiyi Qarabağın dağlıq hissəsinə xüsusi status tələb etməyə çalışırdı. Buna rəğmən ATƏT-ə üzv 54 ölkədən 53-ü Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və regionda sülhün yalnız bu çərçivədə mümkünlüyünü dəstəklədi. Yeganə etiraz edən Ermənistan oldu. Bu, diplomatik baxımdan nadir hal idi: beynəlxalq təşkilatın bütün üzvləri bir ölkənin mövqeyi ətrafında konsensus yaratmış, işğalçı dövlət isə tam təcrid vəziyyətinə düşmüşdü. Bu böyük nailiyyətin əldə olunması isə təsadüfi deyildi. Həmin illərdə Azərbaycan diplomatiyasının əsas xəttini formalaşdıran, ölkənin xarici siyasətini tamamilə yenidən qurmaqla məşğul olan ulu öndər Heydər Əliyevin fəaliyyəti sammitin taleyində həlledici rol oynadı. O, Lissabondan bir qədər əvvəl aparılan çoxtərəfli danışıqlarda möhkəm iradə göstərmiş, beynəlxalq güclərlə ikitərəfli görüşlərdə Azərbaycanın prinsipial mövqeyini ardıcıl şəkildə müdafiə etmişdi. Heydər Əliyev üçün əsas məqsəd bir məsələ idi: Qarabağ probleminin beynəlxalq müstəvidə obyektiv çərçivədə tanınması və Azərbaycanın haqlı mövqeyinin rəsmiləşdirilməsi.

***



Yeri gəlmişkən, onu da qeyd edək ki, Lissabon sammitinə qədər – 1994-cü ildə də Ulu öndərin iştirakı ilə hazırda haqqında keçmiş zamanda danışdığımız Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qərar qəbul olunmuşdu. 1994-cü il dekabrın 4-6-da ATƏM-in (1995-ci il yanvarın 1-dən ATƏM Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına çevrilib – S.H.) Budapeştdə keçirilən sammiti bu təşkilatın üzvü olan dövlətlərin başçılarının dördüncü, Heydər Əliyevin isə iştirakı ilə keçirilən ilk tədbiri idi. Zirvə görüşündə keçmiş Qarabağ münaqişəsi ilə əlaqədar bu qurumun fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olunmuşdu. ATƏM-ə üzv dövlətlərin başçıları problemin nizamlanmasının mərhələli xarakterini müəyyən edərək, təşkilatın Minsk konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırmışdı. Bu saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli və Minsk konfransının çağırılması üçün əsas olmalı idi. Budapeşt sammitində Ermənistan–Azərbaycan münaqişəsinə dair mühüm qərarlar qəbul olundu. Belə qərarlardan biri də münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yaradılması və münaqişəli bölgələrdə yerləşdirilməsi barəsində idi. Lissabon sammiti Azərbaycanın ATƏT-lə münasibətlərində də mühüm əhəmiyyət kəsb edir. Avropa dövlətləri, ABŞ, Kanada və bəzi Asiya və Afrika dövlət başçılarının müşahidəçi statusunda iştirakı ilə keçirilən toplantı, qeyd etdiyimiz kimi, xalqımızın yaddaşında tarixi hadisə kimi qaldı. Cənubi Qafqaz regionu, xüsusilə, keçmiş Ermənistan–Azərbaycan münaqişəsinin yüksək səviyyədə ilk dəfə geniş müzakirə olunduğu Lissabon sammiti Azərbaycan üçün Budapeşt zirvə görüşündən daha əhəmiyyətli oldu.

Lissabon sammitinə aparan proseslər, o dövrün çətin geosiyasi mənzərəsi və Azərbaycanın qarşısında duran təhdidlər də ayrıca diqqət tələb edir. 1996-cı ildə Ermənistanın məqsədi Qarabağı Azərbaycandan qoparmaq üçün "xüsusi status" ideyasını beynəlxalq qurumlara qəbul etdirmək idi. Ermənistan diplomatiyası o zaman müxtəlif ölkələrin siyasi dairələrində geniş təbliğat kampaniyaları aparırdı. Buna baxmayaraq, Heydər Əliyevin apardığı prinsipial xətt vəziyyəti tam dəyişdi. Ulu öndər Lissabonda çıxışı zamanı qeyd etmişdi ki, münaqişənin həlli yalnız beynəlxalq hüquqa uyğun ola bilər və Azərbaycanın ərazi bütövlüyünün əleyhinə olan heç bir təklif qəbul edilə bilməz. Bu sözlər həmin gün müzakirələrin istiqamətini müəyyən etmişdi. Sammitdən sonra Ermənistan nümayəndə heyəti nəticəni uğursuzluq kimi dəyərləndirərək Lissabondan məyus və gərgin atmosferdə ayrılmışdı. Azərbaycan isə tamam əks mənzərə ilə üz-üzə idi. İlk dəfə olaraq ölkəmizin milli maraqları beynəlxalq təşkilatın sənədində açıq şəkildə öz əksini tapmışdı. Lissabon sammiti rəsmi Bakının gələcək illərdə atacağı addımlar üçün möhkəm fundament yaratdı. Bu fundament həm diplomatik müstəvidə, həm siyasi dialoqda, həm də regionun yeni təhlükəsizlik arxitekturasının formalaşmasında öz təsirini göstərdi.

***

Sammitdə qəbul olunmuş yekun sənəd, indiki dillə desək, Lissabon prinsipləri üç baza elementindən ibarət idi: Azərbaycanın ərazi bütövlüyü, Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarəetmə statusunun verilməsi və regionda bütün icmaların təhlükəsizliyinin təmin edilməsi. Bu formul münaqişənin həlli üçün həm siyasi, həm hüquqi, həm də real baza yaradırdı. Sonrakı illərdə Minsk qrupu çərçivəsində bütün danışıqlar məhz bu üç prinsip üzərində qurulur, Ermənistan nə qədər cəhdlər göstərsə də, beynəlxalq ictimaiyyət Lissabon prinsipləri çərçivəsindən kənara çıxmırdı. Heydər Əliyevin ən mühüm xidmətlərindən biri də o oldu ki, onun apardığı diplomatiya nəticəsində Qarabağ problemi yalnız regional çərçivədə deyil, qlobal təhlükəsizlik gündəliyinin bir hissəsinə çevrildi. 1996-cı il sammitindən sonra Azərbaycan beynəlxalq arenada sözünü daha sərt, daha inamlı deməyə başladı. Neft müqavilələrinin imzalanması, yeni tərəfdaşlıqların qurulması, iqtisadiyyatın dirçəlməsi, ordu quruculuğunun başlanması kimi strateji proseslər üçün də məhz bu siyasi sənəd baza funksiyası daşıyırdı.

Əlbəttə, Lissabon sammitini xatırlarkən həmin diplomatik uğurumuzun tarixi Zəfərimizə dayanıqlı beynəlxalq zəmin yaratdığını da qeyd etməliyik. Sammitin yekun nəticəsinin 2020-ci ildə baş verən Vətən müharibəsindəki qələbəmizin hüquqi çərçivəsinin əsasını qoyması xüsusilə diqqətəlayiqdir. Ermənistan uzun illər boyu status-kvonu qorumağa, işğal altındakı əraziləri, faktiki olaraq, öz siyasi orbitinə salmağa çalışsa da, beynəlxalq hüququn əsas prinsipləri dəyişmədi. Azərbaycan 2020-ci ildə hərbi əməliyyatlara başlayarkən Lissabon sənədi artıq 24 il idi ki, ölkənin suverenliyini beynəlxalq miqyasda təsdiq edən əsas dayaq rolunu oynayırdı. Bu sənəd açıq şəkildə göstərirdi ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişənin hər hansı çözümü yalnız ərazi bütövlüyü çərçivəsində mümkündür. Elə buna görə də 2020-ci ildə Azərbaycan Ordusunun işğala son qoyması təkcə hərbi uğur deyildi. Bu qələbə həm də uzun illər ərzində aparılmış diplomatik xəttin məntiqi nəticəsi idi. Lissabon sammitində, necə deyərlər, çəkilən siyasi xəritə 2020-ci ildə reallığa çevrildi. Dünyanın böyük dövlətləri müharibə dövründə Azərbaycanın mövqeyini qiymətləndirərkən məhz həmin sənəddə təsbit olunmuş prinsiplərə istinad edirdilər. Nəticə etibarilə, rəsmi Bakı 30 illik mübarizəsinin həm siyasi, həm də hüquqi legitimliyini tam nümayiş etdirdi.

Bu gün Lissabon sammitinin 30 illiyi yaxınlaşarkən həmin hadisənin əhəmiyyəti daha aydın görünür. Azərbaycan artıq öz suverenliyini bərpa etmiş, Cənubi Qafqazda yeni reallıqlar formalaşdırmış dövlətdir. Qarabağ üzərində nəzarətin tam bərpa edilməsi, sərhədlərin müəyyənləşdirilməsi prosesi və regionda sülh təşəbbüsləri məhz Lissabon prinsiplərinin nəticəsi kimi qavranıla bilər. Bu, qərarların kağızda qalmaq üçün deyil, zamanla öz təsirini göstərmək üçün qəbul olunduğunu sübut edir.

Heydər Əliyevin həmin dövrdə göstərdiyi siyasi iradə və uzaqgörənlik bu gün Azərbaycanı güclü və sabit dövlət kimi formalaşdıran amillərdən biri kimi qiymətləndirilir. Ulu öndər Lissabonda təkcə həmin günün nəticələrini yox, gələcək onilliklərin siyasi kursunu müəyyənləşdirmişdi. Bu baxımdan 1996-cı il qərarları Azərbaycanın diplomatik qələbələrinin başlanğıcı, 2020-ci il tarixi qələbəsinin isə əvvəlcədən müəyyən olunmuş beynəlxalq hüquqi dayağı kimi dəyərləndirilə bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Milli Məclisin növbəti plenar iclası

*(əvvəli 2-ci səhifədə)*

Hazırda 7 DOST mərkəzi, 1 filial və 2 məntəqə fəaliyyət göstərir. Bir sıra ölkələr DOST konsepsiyasına olduqca böyük maraq göstərir. Biz 2030-cu ilədək ölkəni bütövlükdə DOST şəbəkəsi ilə əhatə etməyi planlaşdırırıq". ƏƏSM naziri son olaraq bildirdi ki, bu ilin sonuna qədər Azərbaycanda şəhid ailələrinin və qazilərin mənzillə təmin edilməsi üçün 400-ə yaxın ev alınacaq: "Mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan və mənzil növbəsində olan ölkə üzrə bütün şəhid ailələri, müharibə əlilləri mənzillə təmin ediləcək".

İclasın gedişatında millət vəkilləri büdcə layihəsinin müxtəlif istiqamətləri üzrə təklif və tənqidlərini bildirdilər. Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov çıxışında yerli özünüidarəetmə orqanlarına dövlət dotasiyasının artırılmasına ehtiyac olduğunu vurğuladı. Onun sözlərinə görə, bəzi rayonlar (Xocavənd istisna olmaqla) artıq dövlət dotasiyası almadan öz gəlirlərini formalaşdırır. Həmin rayonlarda toplanan vergilərin hazırda 50 faizi yerli büdcədə qalır, lakin bu payın 70 faizə qaldırılması təklif edildi ki, rayon icra orqanlarının və bələdiyyələrin əhalinin müraciətlərinə daha effektli cavab verməsi üçün maliyyə imkanları artsın.

S.Novruzov onu da bildirdi ki, ölkədə dövlət maraqları naminə fəaliyyət göstərən siyasi partiyalar mövcuddur və dövlət onlara dəstək olmalıdır. "AXCP və Müsavat kimi vətənə xəyanət edən partiyalar istisna olmaqla, digər partiyalar dövlətlə birlikdə vahid mövqedə çalışırlar. Bu baxımdan, siyasi partiyalara dövlət büdcəsindən ayrılan vəsaitin artırılması məqsədəuyğundur", – deyə deputat vurğuladı. Bu çıxış parlamentdə siyasi partiyaların maliyyələşməsi məsələsinə xüsusi diqqət çəkdi.

Milli Məclisin digər deputatı Qüdrət Həsənquliyev büdcə müzakirələri zamanı bəzi xərclərin səmərəliliyini tənqid etdi. O qeyd etdi ki, 2026-cı il büdcəsində beynəlxalq tədbirlərin keçirilməsinə 239 milyon manat ayrılması planlaşdırılır ki, bu, elm sahəsinə ayrılan vəsaiti 10 milyon manat üstələyir. Q.Həsənquliyevin fikrincə, müxtəlif dövlət qurumlarının keçirdiyi bahalı beynəlxalq tədbirlər xaricdən turist və ya investisiya cəlbi baxımından arzulanan effekti vermir. "Səmimi desək, bu tədbirlərin effektivliyi çox azdır. Keçən illə müqayisədə ölkəmizə gələn turistlərin sayında azalma var, halbuki qonşu Gürcüstanda 6,6 faiz artım qeydə alınıb", - deyən deputat məsrəflərin optimallaşdırılmasını təklif etdi.

Q.Həsənquliyev çıxışında həmçinin Avropa İttifaqı və ABŞ-la vizasız gediş-gəliş rejiminin tətbiqinin vacibliyini dilə gətirdi və xüsusilə postpandemiya dövründə hələ də bağlı qalan quru sərhədlərinin açılması mövzusuna toxundu. Deputat vurğuladı ki, təhlükəsizlik baxımından ciddi bir maneə qalmadığı üçün Gürcüstan və İranla quru sərhədləri dərhal bərpa edilməlidir, vətəndaşların sərbəst gediş-gəlişi təmin olunmalıdır.

Sonra "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında", "Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikası qanununun layihələri səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul edildi.

Qəbul olunan büdcə layihəsinə əsasən, Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin gəlirləri 38 609 000,0 min manat, xərcləri 41 703 600,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 37 850 712,0 min manat, yerli gəlirləri 758 288,0 min manat, mərkəzləşdirilmiş xərcləri 40 944 465,0 min manat, yerli xərcləri 759 135,0 min manat) məbləğində proqnozlaşdırıldı. Daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 2 000 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 6 000 000,0 min manat, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 3 000 000,0 min manat məbləğində təsdiq edildi. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 094 600,0 min manat məbləğində nəzərdə tutuldu.

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) növbəti il üçün büdcə xərclərinin 8 milyard 483,1 milyon manat (2025-ci illə müqayisədə 10,5 faiz çox) olması proqnozlaşdırıldı. Xərclərin 8 milyard 323,1 milyon manatının DSMF-nin gəlirlərinin (9,3 faiz çox), 160 milyon manatının isə Fondun cari ilin sonuna istifadə olunmamış qalığının (2,7 dəfə çox) hesabına qarşılanması nəzərdə tutuldu.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İşsizlikdən Sığorta Fondunun (İSF) büdcə xərclərinin 266,4 milyon manat (2025-ci illə müqayisədə 2,2 faiz çox) olması proqnozlaşdırıldı. Xərclərin 238,3 milyon manatının İSF-nin gəlirlərinin (15,5 faiz çox), 28,1 milyon manatının isə Fondun cari ilin sonuna istifadə olunmamış qalığının (48,25 faiz az) hesabına qarşılanması nəzərdə tutuldu.

"Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikası qanununun layihələrinin yekununda növbəti il üçün yaşayış minimumu və ehtiyac meyarının 300 manat olması nəzərdə tutuldu. Bu, 2025-ci illə müqayisədə 15 manat və yaxud 5,3 faiz çoxdur. Sənədə əsasən, yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün 260 manat müəyyən edildi.

Vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Vergi Məcəlləsinə və 16 qanuna dəyişikliklər ikinci oxunuşda qəbul edildi. Aparılan müzakirələrdə qeyd edildi ki, Vergi Məcəlləsinin 2.8-ci maddəsindən irəli gələrək növbəti ilin dövlət büdcəsi layihəsi çərçivəsində hazırlanmış Vergi Məcəlləsinə dəyişiklik layihəsi 3 blokdan ibarət olmaqla, ümumilikdə, 45 əsas maddə üzrə 145 dəyişiklikdən ibarətdir. Məcəllənin həmin maddəsində qeyd edildi ki, 2026-cı il üçün dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Vergi Məcəlləsinə dəyişikliklər edilməsi zərurəti yarandıqda həmin qanun layihələri və layihələrdə nəzərdə tutulan vergi azadolmalarının və güzəştlərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada aparılan qiymətləndirilməsinin nəticələrinə dair arayış müvafiq icra hakimiyyəti orqanına cari il may ayının 1-dək, müvafiq icra hakimiyyəti orqanı tərəfindən isə Milli Məclisə cari il may ayının 15-dən gec olmayaraq təqdim edilir.

Bununla da, MM-in dekabrın 2-də nəzərdə tutulmuş növbəti plenar iclası yekunlaşdı. Bu gün isə növbəti iclasın keçirilməsi nəzərdə tutulub.

***Tacir SADIQOV***
***XQ***

# Minsk qrupu və ikili standartların Cənubi Qafqazda süqutu

*(əvvəli 1-ci səhifədə)*

Tarix bunu dəfələrlə göstərib: beynəlxalq qurumlar, adətən, özlərinin real siyasi funksiyalarından daha uzun yaşayırlar. Çünki dövlətlər bəzən köhnəlmiş institutların rəsmi şəkildə bağlanmasını təxirə salır; belə bir addım həm müəyyən güc balanslarını qorumaq, həm də keçid dövrünün kəskinliyini yumşaltmaq üçün edilir. Məsələn, Millətlər Liqası İkinci Dünya müharibəsindən öncə faktiki olaraq, dağılsa da, onun rəsmi olaraq ləğvi 1946-cı ilə qədər uzandı. O zaman da sual yaranırdı: "Faktiki ölü qurum niyə saxlanılırdı?".Səbəb sadə idi – beynəlxalq sistem köhnə mexanizmi müəyyən müddət saxlayaraq yeni strukturun (BMT-nin) gəlişini yumşaq keçidə çevirdi.

Oxşar nümunə Şimali Atlantika Əməkdaşlıq Şurasının taleyində də müşahidə olunmuşdu. "Soyuq müharibə" başa çatdıqdan sonra bu qurumun əsas funksiyası itmişdi, amma NATO onu dərhal ləğv etmədi. Səbəb yenə eyni idi – postsovet məkanında yeni təhlükəsizlik memarlığının formalaşdırılması zaman alsın, keçmiş mexanizmlər isə bu boşluğu qismən doldursun.

Eyni fenomeni ATƏT-in Balkan böhranı sonrası strukturlarında da görmək mümkündür. Müharibələr bitmiş, reallıq dəyişmiş, amma qurumların bir çoxu illərlə "kağız üzərində mövcudluq" dövrü yaşamışdı. Təkcə ona görə ki, beynəlxalq sistem üçün institusional boşluq təhlükəli görünürdü.




Minsk qrupu da bu klassik sxemin qurbanı idi. 2020-ci ildən sonra regionda reallıq tam dəyişmişdi; Azərbaycan suverenliyini bərpa etmiş, status-kvo transformasiya olunmuş, tərəflər arasında güc balansı yekun şəkildə formalaşmışdı. Amma buna baxmayaraq, qurum formal olaraq hələ bir müddət yaşayırdı. Çünki Vaşinqton, Moskva və Paris üçün onun dərhal ləğv edilməsi müəyyən siyasi simvolizmi artırırdı: bütün bunlar uzun illər davam etdirilən vasitəçilik arxitekturasının tamamilə iflasını etiraf etmək demək idi. Onlar bu psixoloji yükü bir anda öz üzərlərinə götürmək istəmirdilər.

Burada daha dərin analitik sual ortaya çıxır: Bəs niyə Azərbaycan bu prosesin uzanmasına ehtiyac duymurdu? Çünki Bakı üçün artıq iki paralel reallıq yaratmağa ehtiyac yox idi – biri faktiki hərbi-siyasi qələbə ilə formalaşmış reallıq, digəri isə kağız üzərində hələ də "vasitəçi qrup" kimi qalan institut. Azərbaycan yeni yaranmış statusun beynəlxalq legitimləşməsini gecikdirmək istəmirdi. Məhz bu mənada Bakının mövqeyi daha rasional idi: institut yalnız funksionallıqla yaşayar; əgər funksionallıq yoxdursa, qurumun qalması siyasi əyrilik yaradır.

Tarixdə bunun tam əksi də olub. Məsələn, Qərbi Berlin məsələsi 1970-ci illərə qədər formal olaraq masa üzərində saxlanılırdı, baxmayaraq ki, reallıq çoxdan dəyişmişdi. Sadəcə, böyük güclər o mexanizmi saxlayaraq öz təsir zonaları arasında həssas tarazlığı qorumağa çalışırdılar. Minsk qrupunda isə əksinə, Azərbaycan üçün bu tarazlığa ehtiyac yox idi – çünki yeni reallığı yaradan məhz Bakı idi və onu heç kim geri çevirə bilməzdi.

***

İrəvanın ləğv qərarını, faktiki olaraq, qəbul etməsi isə yeni siyasi reallığın etirafıdır. Ermənistanda uzun illər "Minsk qrupu hələ qayıda bilər" kimi mifoloji yanaşma saxlanılırdı. O mif indi rəsmi şəkildə dağıldı. Bəs Ermənistan niyə bu dəfə müqavimət göstərmədi? Çünki 2020-dən sonra İrəvanın xarici siyasət trayektoriyası ardıcıl şəkildə dəyişib; Qərbin yeni prioritetləri, Rusiyanın zəifləyən regional təsiri və Azərbaycanın möhkəmlənən mövqeyi Ermənistanı faktla barışmağa məcbur etdi. Artıq heç bir beynəlxalq güc Minsk qrupunu siyasi səhnəyə qaytarmaq üçün enerji sərf etmir. Belə olduqda İrəvanın əlinə yalnız bir seçim qalırdı – obyektiv vəziyyəti qəbul etmək.

Rusiya isə bu prosesdə ən maraqlı aktor idi. Moskva uzun müddət Minsk qrupunun ləğvi məsələsini formal olaraq açıq qoyurdu, çünki bu mexanizmin kağız üzərində saxlanılması onun regionda, qismən də olsa, "köhnə sülh arxitekturası"na istinad etməsinə imkan verirdi. Amma real geosiyasi şərait dəyişdikcə Moskva özü də tədricən anlayırdı ki, Minsk qrupu artıq siyasi legitimlik daşımır. Nəticədə Rusiya da məcbur qaldı etiraf etsin ki, bu qurum keçmişdə qalıb. "Bəs Rusiya üçün Minsk qrupunun ləğvi nə deməkdir?" Əslində bu, Moskvanın regionda postmüharibə dövrünün siyasi reallıqlarına uyğunlaşmasının tərkib hissəsidir. Rusiya artıq anlayır ki, Cənubi Qafqazda yeni balansı diktə edən aktor Azərbaycan və onun qurduğu regional nizamdır.

***

"ATƏT niyə postsovet məkanında ardıcıl şəkildə təsir gücünü itirir?" Səbəb strukturidir. ATƏT-in əsas aləti – konsensus mexanizmi – "Soyuq müharibə" dövrünün siyasi balansını qorumaq üçün yaradılmışdı. ATƏT mexanizmi 1975 Helsinki prosesinin reallıqlarında işləyirdi, çünki o zaman böyük güclər arasında müəyyən sabitlik və qarşılıqlı asılılıq vardı. Lakin XXI əsrdə bu model artıq bloklanma effektinə səbəb oldu. Hər bir dövlət veto hüququndan istifadə etdikcə təşkilat siyasi iflic vəziyyətinə düşdü. Minsk qrupunun fəaliyyətsiz qalması da məhz bu struktur iflicinin təzahürü idi: üç həmsədr ölkə – ABŞ, Rusiya və Fransa arasında strateji ziddiyyətlər dərinləşdikcə, qrup real iş görə bilmədi.

Vəziyyət təkcə Cənubi Qafqazda deyil, Dnestryanı, Donbas, Abxaziya kimi digər münaqişə zonalarında da müşahidə olunur. ATƏT-in monitorinq mexanizmləri formal xarakter daşıyır, münaqişə idarəçiliyi real təsir gücünü itirir. Məsələn, ATƏT-in Ukraynadakı xüsusi monitorinq missiyası illər boyu yalnız müşahidə aparmaqla kifayətləndi və heç bir siyasi dönüş yaratmadı. Nəticədə bu institut da funksiyasını itirdi və 2022-ci ildən sonra o da arxivə çevrildi. Fakt təşkilatın struktur böhranının daha bir nümunəsidir. Deməli, Minsk qrupunun ləğvi ATƏT-in ümumi transformasiya bacarıqsızlığının növbəti mərhələsi kimi oxunmalıdır. Elə bu baxımdan Azərbaycanın mövqeyi daha aydın görünür: Bakı, faktiki olaraq, yalnız Qarabağla bağlı deyil, ümumilikdə, köhnə postsovet diplomatik arxitekturasına etiraz etdi və onu XXI əsrin reallıqlarına uyğunlaşdırmağa çalışdı.

Buradan növbəti sual yaranır: "Bu ləğv regionda yeni güc arxitekturasına necə təsir edir?" Əslində, Cənubi Qafqazda yeni geosiyasi konturlar artıq 2020-ci ildən sonra formalaşmağa başlamışdı, amma institutların ləğvi bu prosesi hüquqi-siyasi baxımdan tamamladı. Bu gün regionda dörd yeni xətt aydın görünür.



Birincisi, Azərbaycanın qərarverici aktora çevrilməsi. Artıq münaqişənin idarəsi, sülh prosesinin istiqaməti və regional nəqliyyat xəritəsi Bakının razılığı və təşəbbüsü ilə müəyyən olunur. Minsk qrupunun ləğvi bu yeni statusu beynəlxalq sistemə mesaj kimi təqdim edir.

İkincisi, Ermənistanın köhnə vasitəçilərə bağlanan xarici siyasət fəlsəfəsinin iflası. İrəvan uzun müddət ümid edirdi ki, ATƏT modeli ona siyasi "təhlükəsizlik yastığı" rolunu oynayacaq. Amma yeni reallıq göstərdi ki, artıq heç bir böyük güc bu mexanizmi diriltmək niyyətində deyil.

Üçüncüsü, Rusiya üçün yeni adaptasiya mərhələsi. Moskva uzun illər Cənubi Qafqazda təsirini məhz köhnə institutlar üzərindən qurmuşdu. Minsk qrupunun ləğvi onun təsir alətlərindən birini aradan qaldırdı.

Dördüncüsü, Qərbin kənar müşahidəçiyə çevrilməsi. ABŞ və Fransa real siyasi təsir imkanlarını itirdiklərindən Cənubi Qafqaza yalnız siyasi bəyanatlar səviyyəsində müdaxilə edə bilirlər. Minsk qrupunun ləğvi "hansı tərəf daha çox itirdi" sualına cavab kimi Qərbin bölgədəki rolu nəzərəçarpacaq dərəcədə azalıb. Maraqlısı odur ki, Minsk qrupunun ləğvi heç bir geosiyasi mübahisə yaratmadı – nə Vaşinqton, nə Paris, nə də Moskva buna açıq etiraz göstərdi. Səbəb nədir? Çünki artıq böyük güclərin atdığı bütün addımlar tamamilə başqa cəbhələrdə cəmləşib: ABŞ üçün Çin və Ukrayna, Rusiya üçün Ukrayna və daxili stabillik, Fransa üçün Afrika müstəvisi. Cənubi Qafqaz isə onların prioritet siyahısında əvvəlki kimi deyil. Belə bir şəraitdə Azərbaycan reallığı diktə edən əsas aktor kimi çıxış edir və Minsk qrupunun ləğvi də bu yeni mövqenin təsdiqidir.

Sonda oxucuya bir daha sual ünvanlanır: "Bu qərar regionun gələcəyi üçün nə vəd edir?" Ən azı bir şeyi dəqiq deyə bilərik: bu qərar postmünaqişə dövrünün institusional nəticəsidir və Cənubi Qafqazda yeni siyasi xəritənin tamamlanmış konturlarını göstərir. Artıq regionda hər kəs – Bakı, İrəvan, Moskva və Qərb anlayır ki, oyunun qaydaları dəyişib və köhnə formatların bərpası mümkün deyil.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Diplomatik protokol geosiyasətə qarşı

## *Yaxud Paşinyanın Qazaxıstan səfəri turizm arxivində yer alacaq*

**Qlobal güc mərkəzlərinin Şərqə doğru yerdəyişməsinin sürətləndiyi və Avrasiya materikinin geostrateji arxitekturasının yenidən müəyyənləşdirildiyi tarixi dövrdə diplomatik protokolların zahiri parıltısı çox vaxt sərt reallıqları pərdələmək üçün istifadə olunur ki, bu da beynəlxalq münasibətlərin səthi təhlili zamanı aldadıcı nəticələr doğura bilər. Ermənistanın baş naziri Nikol Paşinyanın Qazaxıstana rəsmi səfəri Astanada yüksək səviyyədə qarşılanması və ona Qazaxıstanın ali dövlət mükafatının təqdim edilməsi də ilk baxışda İrəvanın xarici siyasətində yeni səhifənin açılması, postsovet məkanında yeni tərəfdaşlıq formatlarının axtarışı və ənənəvi təcrid vəziyyətindən xilasolma cəhdi təəssüratı yaradır.**

Lakin beynəlxalq münasibətlərin dərin axınlarını, regionun iqtisadi və logistik xəritəsini, ən əsası isə Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı sarsılmaz geosiyasi status-kvonu fundamental şəkildə analiz etdikdə, Astanadakı təntənəli mərasimlərin arxasında Ermənistan diplomatiyasının növbəti strateji çarəsizliyi dayanır. Axı diplomatik etiketlər, ordenlər və memorandumlar coğrafiyanın diktə etdiyi amansız qanunları dəyişdirmək iqtidarında deyil və mövcud reallıq birmənalı şəkildə nümayiş etdirir ki, Ermənistanın Mərkəzi Asiya məkanına, o cümlədən Türk dünyasının dinamik inkişaf edən iqtisadi orqanizminə inteqrasiyası rəsmi Bakı ilə münasibətlərin tam normallaşması, Azərbaycanın ərazi bütövlüyünün sözdə yox, əməldə tanınması və kommunikasiya xətlərinin, xüsusən də Zəngəzur dəhlizinin açılması olmadan, sadəcə, icrası mümkünsüz olan siyasi xəyal kimi qalmağa məhkumdur.

Ermənistan rəhbərliyinin son dövrlərdə Mərkəzi Asiya istiqamətində nümayiş etdirdiyi qeyri-adi diplomatik fəallıq İrəvanın düşdüyü geosiyasi təcrid vəziyyətindən çıxış yolu axtarışlarının simptomatik təzahürü kimi qiymətləndirilməlidir. Ənənəvi müdafiə təminatı hesab edilən Rusiya ilə münasibətlərin strateji böhran və qarşılıqlı ittihamlar mərhələsinə daxil olması, Qərb platformalarından gözlənilən təhlükəsizlik qarantiyalarının yetərsizliyi və regionda Azərbaycanın dominant mövqeyi Paşinyan hökumətini təlaş içində yeni nəfəsliklər axtarmağa sövq edir. Qazaxıstan regionun iqtisadi lokomotivi, Mərkəzi Asiyanın siyasi lideri və Türk dünyasının mühüm ölkəsi olaraq İrəvan üçün ideal xilaskar və ya ən azından alternativ tərəfdaş obrazında görünür. N.Paşinyanın Astanaya səfəri zamanı ona göstərilən iltifatlar və təqdim edilən mükafat Ermənistan daxili auditoriyasına ölkənin təcrid olunmadığı və postsovet məkanında hələ də dostlarının olduğu barədə mesaj vermək üçün istifadə edilir. Lakin diplomatik reveranşların dərinliyinə varanda mənzərənin tamamilə fərqli olduğu və Qazaxıstanın bu addımının arxasında incə hesablanmış siyasi manevrlərin dayandığı ortaya çıxır.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin xarici siyasət kursu ölkəsinin tranzit potensialını artırmaq, çoxvektorlu diplomatiyanı qorumaq və bütün tərəflərlə, o cümlədən Ermənistanla işlək münasibətlər saxlamaq praqmatizminə əsaslanır. Astanadakı qəbul Qazaxıstanın Azərbaycanla mövcud olan, illərin sınağından çıxmış strateji müttəfiqlik münasibətlərinin və Türk Dövlətləri Təşkilatı çərçivəsindəki mühüm öhdəliklərinin üzərindən xətt çəkmək anlamına gəlmir. Əksinə, Astana İrəvanı regional dialoqa cəlb etməklə onu Rusiyanın total nəzarətindən və ya Qərbin regionu qarışdırmağa yönəlmiş planlarından uzaqlaşdırmağa, dolayısı ilə Ermənistanı Azərbaycanın da maraqlarına uyğun olan konstruktiv sülh prosesinə təşviq etmək strategiyası yürüdür. Yəni Paşinyanın təltif olunduğu orden əslində, bir avans xarakteri daşıyır və sülhə gəlmək, kommunikasiyaları açmaq və regiona inteqrasiya olunmaq üçün verilən siyasi kreditdir. Əgər İrəvan prosesə real addımlarla, sülh sazişini imzalamaqla qarşılıq göstərməsə, Astananın gülər üzü tezliklə yerini soyuq və məsafəli münasibətə verəcək.

Qazaxıstan diplomatiyası yaxşı anlayır ki, Cənubi Qafqazda dayanıqlı sülh olmadan Mərkəzi Asiyanın dünya bazarlarına çıxış marşrutları daim risk altında qalacaq və buna görə də İrəvanı qucaqlayaraq ram etmək, onu destruktiv mövqedən çəkindirmək cəhdi Astananın Bakı ilə koordinasiyalı şəkildə həyata keçirdiyi yumşaq güc siyasətinin tərkib hissəsi kimi dəyərləndirilə bilər. Siyasi bəyanatlar nə qədər iddialı olsa da, iqtisadiyyatın və logistikanın dəyişməz qanunları mövcuddur və məsələnin kökündə dayanan əsas problem Ermənistanın coğrafi və logistik dalanda olmasıdır. İrəvanın Mərkəzi Asiya bazarlarına və ya əksinə, Mərkəzi Asiya ölkələrinin Ermənistan üzərindən Qərb bazarlarına çıxışı labüd şəkildə Azərbaycan ərazisindən keçən kommunikasiyalardan asılıdır.

Unutmaq olmaz ki, hazırda qlobal gündəmin əsas mövzularından biri olan, Çindən başlayaraq Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan və Türkiyə üzərindən Avropaya uzanan nəhəng arteriya olan Orta dəhliz layihəsinin mərkəzi halqası, əsas moderatoru və təhlükəsizlik qarantı məhz Azərbaycandır. Ermənistanın özünü sülh qovşağı kimi təqdim edərək həmin qlobal layihəyə qoşulmaq istəyi, yalnız kağız üzərində qalan bir xəritə qaralamasından ibarətdir. Reallıq ondan ibarətdir ki, Ermənistanın Azərbaycanla münasibətləri tənzimləmədən, ərazi iddialarından konstitusion səviyyədə imtina etmədən və Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirən Zəngəzur dəhlizini açmadan bu qlobal şəbəkəyə qoşulması fiziki və hüquqi cəhətdən mümkünsüzdür.

Hazırda Ermənistan mallarının Qazaxıstana və ya digər Mərkəzi Asiya ölkələrinə çatdırılması üçün Gürcüstanın Qara dəniz limanları və ya Rusiyanın Yuxarı Lars keçid məntəqəsi istifadə edilir ki, hər iki marşrut mürəkkəbdir, bahalıdır və ən əsası, qeyri-sabitdir. Yuxarı Lars hava şəraitindən və siyasi konyunkturdan asılı olaraq tez-tez bağlanır, Qara dəniz limanları isə əlavə yükləmə-boşaltma əməliyyatları tələb etdiyi üçün daşımaların maya dəyərini artırır və rəqabət qabiliyyətini aşağı salır. Yeganə rasional, qısa və iqtisadi cəhətdən səmərəli yol Azərbaycanın dəmir yolu şəbəkəsindən istifadə etməklə Xəzər dənizinə, oradan isə Qazaxıstanın Aktau və Kurık limanlarına çıxışdır. Paşinyan Astanada nəqliyyat əməkdaşlığından danışarkən sanki Azərbaycan faktoru yoxmuş kimi davranmağa çalışır, lakin Qazaxıstan tərəfi reallığı çox yaxşı bilir.

Məsələ ondadır ki, Qazaxıstan neftinin, uranının və taxılının dünya bazarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu həyati əhəmiyyət kəsb edir və Astana öz strateji ixracatını Ermənistanın qeyri-müəyyən vədlərinə görə riskə atmaz. Buna görə də Ermənistanın Mərkəzi Asiya ilə logistik inteqrasiyası Bakının icazəsindən və siyasi iradəsindən asılıdır. Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Ermənistanın təcrid vəziyyətindən çıxmasının yeganə yolu regional əməkdaşlıq formatlarına qoşulmaq üçün Azərbaycanın irəli sürdüyü ədalətli şərtləri qəbul etməkdir.

Ermənistanın Mərkəzi Asiyaya inteqrasiya cəhdlərinin qarşısında dayanan ən böyük maneələrdən biri də regionun etnosiyasi kimliyidir. Mərkəzi Asiya dövlətləri ilə Azərbaycanı birləşdirən bağlar təkcə iqtisadi maraqlarla deyil, həm də qan yaddaşı, ortaq dil, din, mədəniyyət və tarixi köklərlə sıx bağlıdır. Türk Dövlətləri Təşkilatı artıq ciddi geosiyasi güc mərkəzinə çevrilməkdədir və Azərbaycan bu təşkilatın ideoloji mərkəzlərindən biri və əsas hərəkətverici qüvvəsidir. Türkiyə və Azərbaycanın razılığı olmadan Ermənistanın bu birliyə yad element kimi daxil olması, ondan faydalanması tam mümkünsüzdür.



Deməli, Astanadakı görüşlərdə nə qədər isti mesajlar verilsə də, Qazaxıstan cəmiyyəti, ziyalıları və siyasi elitası Vətən müharibəsi dövründə və ondan sonrakı antiterror tədbirlərində birmənalı şəkildə Azərbaycanın haqq işini dəstəkləmişdir. Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı 30 il ərzində İslam Əməkdaşlıq Təşkilatı və digər platformalarda İrəvanın təcavüzkar siyasətini pisləyən qətnamələrə Qazaxıstanın səs verməsi Astananın strateji seçimini və dəyərlər sistemini aydın göstərir.

Ermənistanın Türk dünyasına qarşı onilliklər boyu apardığı nifrət siyasəti, soyqırımı iddiaları üzərindən Türkiyəyə qarşı formalaşdırdığı düşmənçilik və Azərbaycan xalqına qarşı törətdiyi cinayətlər Mərkəzi Asiya xalqlarının yaddaşından silinməyib. İrəvanın indi dostluq ritorikası ilə çıxış etməsi keçmişdə törədilən əməllərin yaratdığı dərin etimadsızlıq mühitini aradan qaldırmaq üçün yetərli deyil. Məsələyə sırf iqtisadi praqmatizm prizmasından yanaşdıqda belə Ermənistanın Mərkəzi Asiya üçün cəlbediciliyi Azərbaycanla müqayisədə olduqca sönükdür.

Digər tərəfdən, real rəqəmlər və göstəricilər İrəvanın ambisiyalarının nə qədər əsassız olduğunu sübuta yetirir. Azərbaycanın Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanla ticarət dövriyyəsi milyard dollarlarla ölçülür və hər il artan həndəsi silsilə ilə inkişaf edir. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün mühüm investor və strateji tərəfdaşdır. Azərbaycan Dövlət Neft Şirkəti Mərkəzi Asiya yataqlarında pay sahibi olmaq üçün danışıqlar aparır, Qazaxıstan neftini nəql edir, Özbəkistanda neft-kimya komplekslərinin inkişafında iştirak edir. Bakı-Tbilisi-Qars dəmir yolu, genişlənən Ələt Limanı və Bakı Gəmiqayırma Zavodu Mərkəzi Asiya donanmaları üçün gəmilər inşa etmək potensialına malikdir. Ermənistanın isə belə bir iqtisadi potensialı və ya təklif edə biləcəyi strateji layihəsi mövcud deyil.

Ermənistanın IT sektorundakı kiçik uğurlarını qabardaraq da Mərkəzi Asiya bazarına girmək cəhdləri ciddi perspektiv vəd etmir. Çünki Qazaxıstanın Astana Hub və Özbəkistanın IT parkları artıq bu sahədə regional mərkəzə çevrilmək üzrə Ermənistanı qabaqlayıblar. Bundan əlavə, Azərbaycanın yaratdığı investisiya fondları, məsələn, Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu real layihələri maliyyələşdirir. Ermənistanın isə nəinki xarici ölkələrə investisiya qoymaq imkanı yoxdur, əksinə, özü xarici yardımlardan və kreditlərdən asılı vəziyyətdədir. Belə bir iqtisadi asimmetriya fonunda Mərkəzi Asiya dövlətlərinin Ermənistan naminə Azərbaycanla münasibətləri riskə atması və ya Bakının maraqlarını görməzdən gəlməsi iqtisadi baxımdan izahı olmayan bir addım olardı.

Ermənistanın Mərkəzi Asiyaya yönəlməsinin arxasında dayanan daha bir mühüm faktor qlobal geosiyasi qarşıdurmadır. Qərbin, xüsusən də ABŞ və Avropa İttifaqının Mərkəzi Asiyaya artan marağı fonunda Ermənistan özünü Qərbin regiondakı demokratik tərəfdaşı və ya bələdçisi kimi təqdim etməyə çalışır. Paşinyan hökuməti Qazaxıstan səfəri ilə həm də Qərbə Rusiyanın orbitindən çıxıb Mərkəzi Asiya ilə müstəqil əlaqələr qurduğu mesajını vermək istəyir. Lakin bu yanaşma Mərkəzi Asiya liderlərinin siyasi fəlsəfəsinə və regionun reallıqlarına ziddir. Mərkəzi Asiya dövlətləri, xüsusən də Qazaxıstan və Özbəkistan balanslaşdırılmış, çoxvektorlu siyasət yürüdürlər və regionun Rusiya ilə Qərb arasında qarşıdurma poliqonuna çevrilməsini qətiyyən arzulamırlar. Onlar üçün prioritet sabitlik, təhlükəsizlik və iqtisadi inkişafdır.

Bəli, Azərbaycanın Cənubi Qafqazda təmin etdiyi sabitlik, müstəqil xarici siyasət kursu və Qoşulmama Hərəkatı çərçivəsində nümayiş etdirdiyi qlobal liderlik Mərkəzi Asiya ölkələri üçün daha cəlbedici və etibarlı modeldir. Ölkəmiz Qərblə də, Rusiya ilə də, Çinlə də bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan münasibətlər qurur. Ermənistan isə xarici siyasətindəki yırğalanmaları, bir qütbdən digərinə kəskin keçidləri ilə etibarsız və proqnozlaşdırıla bilinməyən tərəfdaş kimi xarakterizə edilir.

Həmçinin COP29-a ev sahibliyi edən Azərbaycan qlobal iqlim dəyişmələri, "yaşıl enerji" keçidi və dayanıqlı inkişaf məsələlərində Mərkəzi Asiya ilə eyni dalğada hərəkət edir. Xəzər-Qara Dəniz-Avropa "yaşıl enerji" dəhlizi layihəsi Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının Azərbaycan vasitəsilə Avropaya nəqlini nəzərdə tutur və bu qlobal layihədə Ermənistanın yeri yoxdur. Metsamor Atom Elektrik Stansiyasının yaratdığı ekoloji təhdidlər və Ermənistanın dağ-mədən sənayesinin Araz çayını və regionun ekologiyasını zəhərləməsi İrəvanı yaşıl gündəlikdə tərəfdaş deyil, problem mənbəyi kimi göstərir.

Bütün təhlillər son nəticədə bir nöqtədə kəsişir və bu, Zəngəzur dəhlizidir. Ermənistanın Mərkəzi Asiya ilə, dolayısı ilə Şərqlə Qərbi birləşdirən böyük İpək Yolu ilə real inteqrasiyası yalnız bu dəhlizin açılmasından keçir. Azərbaycan Naxçıvanla quru əlaqəsini təmin edən bu dəhlizin açılmasını 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatının əsas şərtlərindən biri kimi tələb edir. İrəvanın suverenlik bəhanəsi ilə bu öhdəlikdən yayınması isə, əslində, onun özünü blokadada saxlaması deməkdir. Mərkəzi Asiya ölkələri də Zəngəzur dəhlizinin açılmasında maraqlıdırlar, çünki bu, Orta dəhlizin ən qısa və səmərəli qolu olacaq.

Paşinyan Qazaxıstanda nəqliyyatdan danışarkən Zəngəzur dəhlizi ifadəsini işlətməkdən çəkinsə də, həm Tokayev, həm də digər regional liderlər yaxşı bilirlər ki, səmərəli nəqliyyat əlaqəsi məhz bu marşrutdan keçir. Əgər Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olmağa davam edərsə, Azərbaycan İran üzərindən alternativ marşrutu reallaşdıracaq və ya Gürcüstan marşrutunu daha da genişləndirəcək ki, bu halda Ermənistan yenə də oyundankənar vəziyyətdə qalacaq. Yəni Mərkəzi Asiya yükləri isə ondan yan keçərək dünyaya çıxacaq. Zaman Ermənistanın əleyhinə işləyir və Astanada alınan mükafat dəmir yolunun olmamasını kompensasiya etmək iqtidarında deyil.

Ümumiləşdirərək qeyd etmək lazımdır ki, Paşinyanın Qazaxıstan səfəri və aldığı ali mükafat geosiyasi teatrın maraqlı, lakin həlledici olmayan epizodudur. Bu hadisə Ermənistanın regional təcrid vəziyyətindən çıxmaq üçün göstərdiyi ümidsiz və sistemsiz cəhdlərin bir hissəsidir. Qazaxıstanın jesti isə həm diplomatik nəzakət, həm də İrəvanı konstruktiv məcraya yönəltmək üçün atılmış strateji addımdır. Lakin Mərkəzi Asiyanın qapıları Azərbaycansız açılmayacaq və tarixi, mədəni, iqtisadi və hərbi-siyasi reallıqlar sübut edir ki, ölkəmiz regionun əsas qapısı və açar dövlətidir.

Ermənistanın Böyük Avrasiya ailəsinin, o cümlədən Mərkəzi Asiya inteqrasiyasının bərabərhüquqlu üzvü olmaq arzusu yalnız bir halda reallaşa bilər ki, rəsmi İrəvan öz destruktiv, revanşist və işğalçı keçmişindən tamamilə imtina etsin, Azərbaycanla sülh müqaviləsini imzalasın, ərazi iddialarını konstitusiyasından çıxarsın və Zəngəzur dəhlizini maneəsiz istifadəyə versin.

Bir daha deyək ki, Azərbaycanın icazəsi və razılığı olmadan Cənubi Qafqaz üzərindən Mərkəzi Asiyaya gedən heç bir yol Ermənistan üçün açıq olmayacaq ki, bu da sadəcə, Bakının siyasi iradəsi deyil, regionun təhlükəsizlik arxitekturasının və iqtisadi məntiqinin təməl prinsipidir. Mərkəzi Asiya ilə Azərbaycan arasındakı qardaşlıq və strateji tərəfdaşlıq sınaqlardan çıxmış sarsılmaz bir qaladır və Ermənistanın bu qalaya daxil olması üçün səmimi qonşu olmağı öyrənməsi şərtdir. Əks təqdirdə, Paşinyanın səfəri tarixin arxivində növbəti uğursuz diplomatik turist səfəri kimi qalacaq, Azərbaycan isə hər bir halda Avrasiyanın mərkəzində yeni güc və inkişaf dastanını yazmağa davam edəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Erməni qaniçənliyi haqq divanında



**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 2-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və b. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş Elşən Babayev dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıraraq bildirib ki, Ağdərə rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan tankəleyhinə mərminin yaxınlıqlarında partlaması nəticəsində Tural Əmirov və Elçin Salmanov həlak olub, o və Yusif Həsənov isə yaralanıblar.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Elvin Məmmədov qeyd edib ki, Xocalı rayonunun Sərdarkənd kəndi ərazisində düşmən tərəfindən atılan minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o və Kamran Həsənov yaralanıb. Əlavə edib ki, həmin vaxt düşmən minaatan, snayper və digər silahlarla atəş açırdı.

Zərərçəkmiş Xalid Şükürlü ifadəsində bildirib ki, Xocalı rayonunun Malıbəyli kəndi ərazisində düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində xəsarət alıb. Həmin hadisə zamanı Sadiq Məmmədov və Nicat Əhmədzadə də yaralanıblar.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Taleh Hümbətzadə qeyd edib ki, Xocavənd rayonunun Yenikənd kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atdığı artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində yaralanıb. Hadisə zamanı Cavid Şavqatlı da xəsarət alıb.

Zərərçəkmiş Fazil Əmirli Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıraraq bildirib ki, Xocalı rayonunun Malıbəyli kəndi ərazisində düşmənin açdığı atəşlər nəticəsində o, Seyfəddin Cabbarov və Kamran Nəcəfov yaralanıblar.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran İlqar Qasımov deyib ki, Xocalı rayonu istiqamətində düşmən tərəfindən basdırılmış minanın partlaması nəticəsində o və Hüseyn Hüseynov xəsarət alıblar.

Məhkəmə prosesi sənədlərin və cinayət işi materiallarında olan digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası dekabrın 5-nə təyin olunub.

***XQ***



# Aİ Ermənistan uğrunda mübarizəyə başlayır

## *Ancaq "əmma"sı var*



**Avropa İttifaqı və Ermənistan ikitərəfli əməkdaşlıqla bağlı strateji gündəlik qəbul edib. Bunu Aİ-nin xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Kaya Kallas Brüsseldə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla mətbuat konfransında deyib: "Ermənistan iqtisadiyyatının gücləndirilməsi və diversifikasiyası, qanunun aliliyinin təmin olunması, viza liberallaşdırılması və təhlükəsizliklə bağlı əməkdaşlığımızı gücləndirmək istəyirik", - deyən xanım Kallas eyni zamanda bildirib ki, 2025-ci il Aİ-Ermənistan münasibətləri üçün çox mühüm rol oynayıb.**

Qeyd edək ki, belə bir sənədin imzalanacağına dair məlumatı əvvəlcə Aİ-nin Genişlənmə Siyasəti üzrə Ali Komissarı Marta Kos vermişdi. O bildirmişdi ki, sənəd təmsil olunduğu qurumun Ermənistanla bağlı nə edə biləcəyini müəyyənləşdirən fəaliyyət planı, yol xəritəsi olacaq. Aİ rəsmisi habelə dəqiqləşdirmişdi ki, gündəlik Ermənistanın iqtisadi inkişafını və institutların möhkəmləndirilməsini dəstəkləyən yardım mexanizmlərini əhatə edir. Üstəlik, yeni tərəfdaşlıq gündəliyinə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq da daxil olacaq.

Əlbəttə, regionda gedən mürəkkəb geosiyasi proseslərin fonunda Ermənistanın xarici siyasi xəttində yeni istiqamət axtarışları açıq şəkildə müşahidə olunur. Şübhəsiz, Strateji Tərəfdaşlıq Gündəliyi bunun nəticəsidir. Amma bu, heç də yenilik deyil. Eləcə də Aİ-nin Ermənistan üzərində siyasi və institusional təsir mexanizmlərinin daha sistemli şəkildə qurulmasına cəhd göstərməsi indinin söhbəti olmaqdan uzaqdır. Ancaq hazırda konkret hədəf var ki, həm ona, həm də onunla əlaqəli vacib məqama yazımızın sonunda toxunacağıq.

Beləliklə, xanım Kos Aİ-nin Ermənistanın enerji təhlükəsizliyini və diversifikasiyasını gücləndirmək üçün 500 milyon avro sərmayə qoyacağını açıqlayıb. Xatırladaq ki, bir neçə gün əvvəl Özbəkistanın paytaxtı Daşkənddə "Qafqaz Elektrik Ötürmə Şəbəkəsi" layihəsi çərçivəsində Ermənistanın enerji infrastrukturunun gücləndirilməsinə dair sənəd imzalanıb. Sənədin mahiyyəti ölkənin enerji təhlükəsizliyini artırmaq, xarici enerji oyunçularından asılılığı azaltmaq və şəbəkəni regional standartlara uyğunlaşdırmaqdan ibarətdir.

Marta Kos isə aydınlaşdırıb ki, sözügedən sərmayə paketinin məqsədi həmçinin Ermənistanı Gürcüstan üzərindən Avropa enerji sisteminə yaxınlaşdırmaqla, ölkənin əsasən Rusiya mənşəli enerji mənbələrindən asılılığını minimuma endirməkdir: "Bu, sizin enerji şəbəkənizi Gürcüstanla birləşdirmək üçün ayrılmış 500 milyon avrodur və biz artıq Ermənistan–Türkiyə enerji xəttinin texniki imkanları üzərində də işləyirik. Məqsəd aydındır: Ermənistanın Rusiya enerjisindən asılılığı tədricən azaldılmalıdır".

Komissar, habelə, Aİ-nin Moldova və Ukrayna təcrübələrini misal çəkərək bildirib ki, İttifaq bu ölkələrin enerji təhlükəsizliyinin artırılması sahəsində genişhəcmli proqramlar həyata keçirib və hazırda oxşar istiqamətdə Ermənistana dəstək göstərməyi planlaşdırır. O qeyd edib ki, 2022-ci ildə müharibə başlayarkən, Aİ-nin qaz idxalının 60, kömür idxalının 50, neft idxalının isə 40 faizinin Rusiyanın payına düşməsi Avropanı yeni enerji siyasəti formalaşdırmağa məcbur edib.

M.Kos açıqlamasında onu da bildirib ki, Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri David Xudatyan artıq ölkənin regional enerji əlaqələrinin təmin edilməsi sahəsində prioritet proqramların siyahısını Aİ-yə təqdim etmədidir. Bu siyahı bölgədə enerji marşrutlarının yenidən qurulması baxımından xüsusi əhəmiyyət daşıyacaq.

Aİ rəsmisi təmsil olunduğu qurumun Ermənistanın nəqliyyat və rabitə infrastrukturunun modernləşdirilməsi istiqamətində də əməkdaşlığı genişləndirməyə hazır olduğunu açıqlayıb. Onun sözlərinə görə, Aİ-nin dəstəyi yalnız maliyyə yardımı ilə məhdudlaşmır, həm də özündə idarəçilik, planlaşdırma və institusional imkanların artırılmasını ehtiva edir.

Xatırladaq ki, Aİ-Ermənistan əməkdaşlığı baxımından bəlli təcrübə var. Belə ki, 2024-cü il aprelin 5-də Brüsseldə yüksəksəviyyəli ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli görüşü keçirilmişdi. Görüşün məqsədi Ermənistanın suverenliyi, demokratiyası, ərazi bütövlüyü və sosial iqtisadi dayanıqlılığını dəstəkləmək idi. Detallara gəlincə, bu təmasda Aİ və ABŞ tərəfindən Ermənistanın iqtisadiyyatının diversifikasiyası, siyasi islahatlar, humanitar dəstək, qaçqın və məcburi köçkünlərin sosial–iqtisadi reinteqrasiyası kimi sahələrdə əməkdaşlığın genişləndirilməsi planları qurulmuşdu.

Bəli, görüşün nəticəsi olaraq, 2024–2027–ci illərdə Aİ tərəfindən Ermənistan üçün təxminən 270 milyon avro qrant ayrılması nəzərdə tutulurdu. ABŞ isə ölkəyə əlavə humanitar və inkişaf yardımı göstərməli idi. Bildirilmişdi ki, Aİ və ABŞ İrəvana dəstəyi təkcə qısamüddətli humanitar yardım kimi deyil, həm də uzunmüddətli sosial iqtisadi inteqrasiyalar, əmək bazarı, energetika, kənd təsərrüfatı, ticarət və s. sektorları əhatə edəcək daha geniş əməkdaşlıq planı kimi təqdim edir.

Belə nəticəyə gəlmək olar ki, dünən imzalanmış strateji gündəlik başlanılmış işin davamıdır. Yəni Ermənistanın Aİ ilə yaxınlaşması təkcə texniki və institusional xarakter daşımır, həm də bölgədə formalaşan yeni qüvvələr balansında mühüm siyasi məna daşıyır. Ancaq hazırda Ermənistana dəstək xüsusunda ABŞ-Avropa İttifaqı tandemindən söhbət getmir. Çünki Birləşmiş Ştatların Prezident Donald Tramp administrasiyası, loru dildə desək, heç bir dövlətə görə əlini cibinə salmağı düşünmür. Nəzərə alsaq ki, Zəngəzur dəhlizi adlandırdığımız Tramp marşrutu ideyası var, deməli, rəsmi Vaşinqton Cənubi Qafqaza kompleks yanaşır. Yəni əgər haqqında söz açdığımız üçlü formatın mahiyyətində birbaşa anti-Azərbaycan təmayül var idisə, hazırda belə bir niyyət yox kimi görünür. Bəs konkret siyasi məqsəd nədir? Vəd etdiyimiz kimi, sonda bu məqamın üzərində dayanaq.

Əlbəttə, regional reallıqlar fonunda Avropa İttifaqı-Ermənistan strateji gündəliyinin hansı nəticələrə gətirib çıxaracağı zamanın sınağından keçəcək. Ortada olan isə qurumun Ermənistanda gələn il keçiriləcək parlament seçkiləri ilə fəallaşma ritorikasıdır. Təsadüfi deyil ki, xanım Kos da vurğulayıb ki, Aİ seçki ərəfəsində mümkün hibrid təhdidlərə qarşı mübarizədə, dezinformasiyanın yayılmasının qarşısının alınmasında və kiberhücumlardan müdafiə məsələlərində Ermənistana dəstək göstərəcək. Konkret 15 milyon avro ayrılacağını, bu vəsaitin Ermənistanın müqavimətinin gücləndirilməsinə yönəldiləcəyini deyən Kallas fikirlərinə pafoslu ton da verib: "Əlbəttə, Ermənistanın digər problemləri də var. Rusiya və onun nümayəndələri seçkilər öncəsi Ermənistanda informasiya kampaniyaları aparır. Biz görürük ki, Moldovada istifadə olunan eyni şəbəkələrdən istifadə edilir. Ssenari eynidir. Aİ-nin maliyyələşdirməsi xarici müdaxiləyə cavab verməyə kömək edəcək. Xarici müdaxiləyə qarşı müqavimət cəmiyyətin bütün üzvlərinin iştirakı ilə mümkündür. Biz əmnunuq ki, Ermənistanda məhz belə bir vəziyyət formalaşıb. Aktiv vətəndaş cəmiyyəti və müstəqil media son dərəcə önəmlidir. Siz bu çağırışlar qarşısında tək deyilsiniz. Biz sizə fəal dəstək göstərməyə hazırıq".

Deməli, Aİ-nin timsalında Qərb Ermənistan uğrunda mübarizəyə indidən start verir. Çox yaxşı. Elə isə pis nədir, onun üzərində dayanaq və deyək ki, mübarizə tək, özü də fundamental prinsiplər nəzərə alınmadan aparıla bilməz. Sadə dildə desək, İrəvana hazır balıq yox, balıq tutmağı öyrətmək lazımdır. Balıq isə o zaman "tutulacaq" ki, Tramp marşrutu işə düşəcək, Ermənistan real və sabit gəlir götürəcək. Aİ-də mövcud reallığı dərk edilir. Amma bir qədər fərqli. Niyəsini izah edək.

Məsələ ondadır ki, M.Kos Aİ-nin ABŞ, Azərbaycan və Türkiyə ilə TRIPP layihəsində mümkün iştirakla bağlı danışıqlar apardığını vurğulayıb. "Aİ-nin öz təklifləri var və blok Türkiyə və Azərbaycanla məsləhətləşmələrini davam etdirir. ABŞ-ın iştirakı xüsusilə önəmlidir, çünki layihə yalnız bir dəmir yolu seqmentini əhatə edir", - deyən Kosun, əslində, nə demək istədiyi mücərrəd qalır.

Sual yaranır: necə yəni, yalnız dəmir yolu? Axı avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin Birləşmiş Ştatlar Prezidenti Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannamədə Naxçıvan marşrutu ilə bağlı yalnız dəmir yolu seqmenti adlı bir məqamdan yox, bütövlükdə maneəsiz quru yolu məsələsindən söz açılır. Yoxsa Aİ bununla bağlı yeni qayda qoymaq qərarına gəlib? Əgər elədirsə, Avropa İttifaqı-Ermənistan strateji gündəliyi ikinciyə "balıq tutmağı" öyrədə bilməyəcək. Əksinə, İrəvan regional reallıqlara qarşı deмarş edən ampluasına qayıdacaq. Bunun isə böyük zərərləri qaçılmazdır. Ən böyük zərər sülh prosesinə dəyəcək. Sülhsüzlüyün isə Qərbin Ermənistanı Rusiyaya uduzması perspektivini doğuracağı şübhəsizdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avropanın dondurulmuş aktivlər dilemması

## *Ukraynaya dəstək sülh diplomatiyasına əngəl ola bilərmi?*



**Davam edən Rusiya-Ukrayna müharibəsi fonunda Avropanın siyasi gündəmi yenidən qızışır. Münaqişənin gələcək trayektoriyası, Qərbin Kiyevə dəstəyinin davamlılığı və Rusiyanın təcrid siyasətinin sərtliyi Avroittifaq daxilində strateji fikir ayrılıqlarının daha açıq şəkildə özünü büruzə verməsinə səbəb olur. Bu dəfə mübahisənin mərkəzində dondurulmuş Rusiya aktivlərindən istifadə məsələsi dayanır.**

Brüsselin Moskvanın bloklanmış vəsaitləri hesabına Ukraynanı maliyyələşdirmə planı, xüsusilə də onun sürətlə reallaşdırılması Aİ daxilində geosiyasi hesablama və hüquqi risklərlə bağlı ciddi suallar yaradır. Bir sıra üzv dövlətlərin, o cümlədən Belçikanın sərt mövqeyi isə məsələnin mümkün sülh danışıqlarına təsir baxımından nə qədər həssas olduğunu bir daha göstərir. Bu günlərdə Belçikanın baş naziri Bart De Veber xəbərdarlıq edib ki, dondurulmuş Rusiya aktivlərindən Ukraynanın maliyyələşdirilməsi üçün istifadə ideyasının tələsik şəkildə həyata keçirilməsi müharibəyə son qoya biləcək potensial sülh sazişi imkanlarını zəiflədə bilər. O, bu barədə Avropa Komissiyasına göndərdiyi məktubda qeyd edib. Maraqlıdır ki, Veberin irəli sürdüyü narahatlıqlar Aİ liderlərinin Kiyevin maliyyələşdirilməsi strategiyasını müəyyən edəcəkləri kritik sammitdən cəmi üç həftə əvvəl gündəmə gəlib.

Əslində, Veberin mövqeyini dərindən təhlil etsək, görərik ki, onun fikirləri ABŞ prezidenti Donald Trampın Rusiya-Ukrayna müharibəsini bitirmək məqsədi daşıyan yeni diplomatik təşəbbüsü ilə üst-üstə düşür. Məktubda açıq şəkildə qeyd olunur ki, Vaşinqtonun təşəbbüsü Aİ ölkələrinin, faktiki olaraq, prosesdən kənarda qalması ilə müşayiət edilib.

Yeri gəlmişkən, Avropa Komissiyası Rusiyanın Ukrayna ərzilərinin işğalından sonra dondurulan dövlət aktivlərindən istifadə etməklə, Kiyevin növbəti iki il ərzində maliyyə sabitliyini qoruyacaq 140 milyard avroluq "reparasiya krediti" təklif etmişdi. Aİ üzvlərinin böyük qismi bu mexanizmi dəstəkləsə də, dondurulmuş aktivlərin əsas hissəsinin saxlandığı Brüsseldəki "Euroclear" depozitarı olan Belçika təklifə qəti etiraz edir.

Belçika hökuməti düşünür ki, Moskva bu addıma qarşılıq olaraq ölkəyə sərt təzyiq və ya cavab tədbirləri tətbiq edə bilər. Üstəlik, aktivlərin hüquqi saxlayıcısı qismində "Euroclear" hər hansı fors-major halında iddialarla üzləşə bilər. De Veberin Ursula fon der Lyayenə ünvanladığı məktubda da bildirilir ki, "reparasiya krediti" məsələsi Aİ-ni, faktiki olaraq, sülh razılaşması imkanlarını bloklayan tərəfə çevirəcək.

Hazırda ümumilikdə təxminən 210 milyard avro dəyərində Rusiya aktivləri dondurulub və bunun 185 milyard avrosu məhz "Euroclear" sistemində saxlanılır. Belçikanın məsələyə dəstəyi üçün De Veber tələb edir ki, Aİ üzvləri "Euroclear"ın saxladığı 185 milyard avro üzrə tam hüquqi təminat versinlər və kreditin uğursuzluğa düçar olması, yaxud Rusiyaya qarşı sanksiyaların ləğvi halında depozitarı bütün risklərdən qoruyan zəmanətlər təqdim etsinlər. Bu zəmanətlərin Aİ liderlərinin dekabr sammitinə qədər imzalanması tələb olunur.

Belçika, həmçinin kreditlə bağlı mümkün məhkəmə çəkişmələrinin maliyyə yükünün bütün Aİ ölkələri arasında bölüşdürülməsinin tərəfdarıdır. Üstəlik, dondurulmuş Rusiya aktivlərindən digər Aİ üzvlərində olan hissəsinin də kredit mexanizminə cəlb edilməsi istənilir. Alternativ olaraq Aİ-nin ortaq büdcəsi çərçivəsində hələ istifadə olunmamış borclanma imkanlarından yararlanaraq Ukraynaya 45 milyard avro ayrılması məsələsi də gündəmdədir. Komissiyaya görə bu vəsait Ukraynanın 2026-cı il üçün maliyyə ehtiyaclarını ödəməyə kifayət edəcək.

Dondurulmuş Rusiya aktivlərindən Ukraynanın maliyyələşdirilməsi məsələsi açıq şəkildə qarşı çıxan yeganə ölkə rəsmi Brüssel olsa da, bir sıra üzv dövlətlər də planın hüquqi və siyasi nəticələri ilə bağlı ciddi narahatlıq ifadə edirlər. Sözügedən narahatlıqlar rəsmi veto formasında almasa da, ümumi mənzərə Aİ daxilində konsensusun hələ formalaşmadığını göstərir. Ən böyük skeptisizm Macarıstandan gəlir. Viktor Orban hökuməti uzun müddətdir Kiyevin maliyyələşdirilməsinə qarşı sərt mövqedə dayanır və Rusiya aktivlərindən istifadə ideyasını riskli presedent hesab edir. Ona görə də Budapeştin bu məsələni səsvermədə bloklama ehtimalı yüksəkdir və bu, Aİ daxilində qəbul prosesini çətinləşdirən əsas siyasi faktor kimi görünür.

Slovakiyanın yeni hökuməti də Ukraynaya yardım paketlərinə qarşı ehtiyatlı mövqeyi ilə seçilir. Bratislava planı açıq şəkildə rədd etməsə də, Rusiya aktivlərinin istifadəsini "hüquqi və siyasi baxımdan ziddiyyətli" addım kimi qiymətləndirən siyasətçilər ölkənin tam dəstək verməyə hazır olmadığını göstərir. Avstriya bu məsələdə daha çox hüquqi çərçivəyə diqqət yetirir. Rəsmi Vyana aktivlərin müsadirə edilməsinin beynəlxalq hüquqda ciddi suallar doğurduğunu düşünür və bank sektorunun məruz qaldığı risklər səbəbilə ehtiyatlı davranır. Kipr də oxşar maliyyə narahatlıqlarını paylaşır və dondurulmuş aktivlərin istifadəsinin həm öz bank sisteminə, həm də Avropa maliyyə sabitliyinə təsirlərini qabardır. Almaniya rəsmi olaraq planı dəstəkləsə də, ölkə daxilində, xüsusilə "Bundesbank" səviyyəsində bu mexanizmin suveren aktivlərin toxunulmazlığı prinsipini poza biləcəyi barədə tənqidi mövqelər də müşahidə olunur. Beləliklə, daxili disbalans rəsmi Berlinin yekdil siyasi dəstək nümayiş etdirməsini çətinləşdirir.

Sonda qeyd edək ki, Aİ-nin dondurulmuş Rusiya aktivlərindən istifadə planı ətrafında yaranan fikir ayrılıqları məsələnin geniş geosiyasi və hüquqi ölçüləri olduğunu bir daha göstərir. İttifaq planı irəli aparmaq üçün çalışsa da, daxildəki ehtiyatlı mövqelərin qərarın yekdilliklə qəbulu məsələsini uzadacaqları ehtimal olunur.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Konstitusiya və Suverenlik İli – 2025*

# Azərbaycanı zəfərlərə qovuşduran Konstitusiya

**Prezident İlham Əliyevin müstəsna önəm daşıyan tarixi hadisələrin, dövlət siyasətinin üstün istiqamətlərinin mahiyyəti və hədəflərinin cəmiyyətdə daha dolğun, təfsilatlı ilə dəyərləndirilməsi və layiqincə qeyd edilməsi məqsədilə üzümüzə gələn hər ilə müvafiq adlar verilməsini rəsmiləşdirən sərəncamlar imzalaması xoş bir ənənəyə çevrilmişdir. Bu baxımdan dövlət başçısının 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi ölkəmizdə dövlətçilik ənənələrinin daha dərindən öyrənilməsi və zənginləşdirilməsi üçün tarixi önəm daşımaqla yanaşı, geniş meydan da açdı.**



Azərbaycan Respublikası Konstitusiyasından danışarkən qeyd edilməlidir ki, müstəqil dövlətin Əsas qanununun layihəsinin hazırlanması və qəbul edilməsi dünya nizamının və Azərbaycan cəmiyyətinin olduqca mürəkkəb və keşməkeşli bir dövrünə təsadüf edirdi. Azərbaycan müstəqilliyini 1991-ci ildə elan etsə də, ilk illərdə xarici təsirlərdən qurtara bilmir, dövlət idarəetmə sisteminin formalaşdırılması mümkün olmurdu. Qarabağ münaqişəsinin mürəkkəbləşməsi, bir-birini əvəz edən hakimiyyət çevrilişləri, iqtisadiyyatın dağılması siyasi-hərbi böhran yaratmışdı.

O zaman Azərbaycan xalqının üz tutduğu, yeganə ümid bəslədiyi böyük şəxsiyyət ulu öndər Heydər Əliyev oldu. Xalqın çağırışlarına həmişə həssaslıqla və sayğı ilə yanaşan Ümummilli lider bu haraya xilaskarlıq missiyası ilə cavab verdi. Böyük siyasi təcrübəsi olan dünya səviyyəli dövlət xadimi Heydər Əliyev yaxşı bilirdi ki, dövlətçiliyi möhkəmləndirmədən ölkəni idarə etmək, nizamlı ordu olmadan müharibədə qalib gəlmək, düzgün xarici siyasət olmadan beynəlxalq münasibətləri nizama salmaq olduqca çətindir.

Ulu öndər qısa müddətdə bütün siyasi və diplomatik vasitələri işə salmaqla 1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan müharibəsində atəşkəsə nail oldu. Ölkədə hakimiyyət boşluğu aradan qaldırıldı, siyasi sabitlik yarandı. Azərbaycanın dövlət müstəqilliyini istəməyən daxili və xarici qüvvələrin dəstəyi ilə 1994-cü il oktyabr, 1995-ci ilin martında dövlət çevrilişlərinin, digər təxribat və prezidentə qarşı terror cəhdlərinin qarşısı qətiyyətlə alındı. Beləliklə, hüquqi dövlət quruculuğu istiqamətində zəruri tədbirlərin görülməsi üçün münbit şərait yaradıldı.

"Müstəqillik Bəyannaməsi"ndən irəli gələn və müasir dövlət formasını özündə ehtiva edən hüquqi dövlət ideallarını yaratmaq və inkişaf etdirmək də Ümummilli liderin qarşıya qoyduğu önəmli məsələlərdən idi. Burada isə əsas məqsəd qanunvericilik bazasının formalaşdırılması idi. Çünki dağılmış sosialist sisteminin hüquqi bazası ilə dövlət idarəedilməsini həyata keçirmək mövcud ziddiyyətlərin daha da dərinləşməsinə gətirib çıxara bilərdi. Yeganə çıxış yolu isə qanunvericiliyin əsasını təşkil edən yeni konstitusiyanın qəbul edilməsi idi.

Sonrakı 30 ildə zəfərlərə gedən yol da ulu öndər Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan başlayır. Azərbaycanın düçar olduğu belə vəziyyətdə müstəqil dövlətin ilk konstitusiyasının hazırlanması da taleyüklü məsələ idi və məhz onun ağırlığı yeni çağırışlarla təzahür olunan ümumbəşəri dəyərlərin milli xalq ruhu ilə yoğrulmuş təsvirinin yaradılmasında idi. Ümummilli liderin dediyi kimi: "Keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq dövlətçiliyimizdə milli dəyərləri Azərbaycan xalqının tarixi adət-ənənələrini saxlamaqla xarici ölkələrin tipoloji və ümumi sivil milli-mədəni sistemlərdən götürülmüş əlamət və elementlər vardır. Həm daxildən və həm də xaricdən qəbul edilmiş bütün bu müxtəlif əlamət və elementlər sintezi müasir demokratik, dünyəvi dövlətçiliyin yaranmasının şərtlənməsinə səbəb olmuşdur".

Azərbaycan Respublikası Konstitusiyasının preambulasından da göründüyü kimi, Əsas qanun özündə Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrini ehtiva edir, müstəqillik qazandığı zaman "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında elan etdiyi prinsiplərə əsaslanır, ümumi insan idealına istinad edərək bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsi fövqündə ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyir.

Bununla yanaşı, Konstitusiya keçmiş, indiki və gələcək nəsillər qarşısında məsuliyyət hissini ifadə edir və suveren hüququna istinad edərək Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağı, demokratik quruluşa təminat verməyi, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmağı, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmağı, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etməyi, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi ülvi niyyətlərlə elan edir. Bu müddəalar Konstitusiyanın digər normaları ilə həmahəngliк təşkil etməklə daha da genişləndirilmiş və konkretləşdirilmişdir.

Əsas qanun konstitusiyalı quruluşun əsaslarını möhkəmləndirərək Azərbaycanı respublika idarəetmə formasına malik unitar, demokratik, hüquqi, dünyəvi dövlət kimi müəyyən edir. Konstitusiya özündə bir sıra ümumbəşəri dəyərləri ehtiva edən əsas prinsipləri birləşdirir. Bunlardan biri hüquqi dövlətin əsas şərti kimi qanunun aliliyi prinsipidir. Bu prinsipə görə dövlət hüquqla özünün fəaliyyətini məhdudlaşdırır, insan və vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasını özünün başlıca məqsədi hesab edir.

Ulu öndərin sədrliyi ilə hazırlanan Konstitusiya layihəsində zamanın tələbləri çağırışında beynəlxalq hüququn artan rolu da nəzərə alınmışdır. Bu istiqamətdə Konstitusiyanın 10, 12, 148 və 151-ci maddələri xüsusi əhəmiyyət kəsb edir. Belə ki, "Beynəlxalq münasibətlərin prinsipləri" adlı 10-cu maddə ilə Azərbaycan Respublikasının başqa dövlətlərlə münasibətlərinin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmasının elan olunması dövlətin beynəlxalq hüquqa xüsusi ehtiramı kimi izah oluna bilər.

Azərbaycan Respublikası Konstitusiyasında beynəlxalq hüquq normalarının primatlığını qəbul edən kifayət qədər müddəalar olmaqla bərabər, beynəlxalq öhdəliklərin milli-hüquqi implementasiyası üçün adekvat konstitusion əsaslar da mövcuddur. Konstitusiya müddəalarının realizəsində dövlət fəaliyyəti bütün istiqamətdə həyata keçirilmiş, ölkəmizin demək olar ki, əksər beynəlxalq sənədlərə qoşulmuşdur. Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır və bu da bütün dövlət hakimiyyət orqanlarının beynəlxalq hüquqla müəyyən olunmuş öhdəliklərin şərtsiz icrasını təmin edir.

Hüquqi və demokratik dövlətlərdə hüquq sisteminin əsasında və mərkəzində insan şəxsiyyəti dayandığından onun hüquq və əsas azadlıqları Konstitusiyanın xüsusi fəslini əhatə edir. Bu məqsədlə, Konstitusiyanın 12 və 71-ci maddələrinin normaları xüsusi əhəmiyyətə malikdir. Konstitusiyanın 12-ci maddəsinin I hissəsi ilə beynəlxalq hüququn inhisarına alınmış və dünya birliyinin vahid idealı kimi tanınan insan hüquq və əsas azadlıqlarının təmin olunması "Dövlətin ali məqsədi" kimi elan etməklə bərabər, həmin maddənin II hissəsi ilə Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiqi təsbit edilmiş, bu hüquqların normativ məzmunu 48 maddə ilə Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı III fəsilində geniş yer almışdır.

Qeyd edilənlər isə insan hüquqları amilinə dövlət hakimiyyət orqanlarının öz fəaliyyətlərində vahid yanaşmaya sövq edir. Bundan irəli gələrək Konstitusiyanın 71-ci maddəsi, Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvəsini elan etməklə, onların qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərində vəzifə öhdəliyi kimi müəyyən edir. Beləliklə, dövlət hakimiyyət qollarının müstəqil fəaliyyətlərində bir araya gətirən insan hüquqları Azərbaycan dövlətinin əsaslarını təşkil edir.

Hakimiyyətin bölünməsi prinsipi də dövlət hakimiyyətinin qurulmasının əsası kimi Azərbaycan Konstitusiyasında yer alır. Konstitusiyaya görə hakimiyyət qolları öz fəaliyyətlərində müstəqil olsalar da, onların qarşılıqlı fəaliyyət göstərmələri barədə konstitusiya təminatı dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, respublikanın bütün ərazisində suveren xalq hakimiyyətinin bərqərar olunmasında vahid yanaşmadan çıxış etməyə imkan verir. Hüquqi və dünyəvi dövlət idealları hakimiyyətin bölünməsi prinsipinə sirayət edilməklə icra, qanunverici və məhkəmə hakimiyyətləri fərqləndirilmişdir.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir və onlar qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Hər hansı qərar və ya təşəbbüslərdə hakimiyyət qollarının qarşılıqlı fəaliyyəti demokratik prinsip və milli mənafe nöqteyi-nəzərindən onların əməkdaşlığını bir araya gətirdiyi kimi, müstəqillik prinsipi də inzibati-amirlik asılılığını aradan qaldırır.

Dövlət hakimiyyət qollarından qanunvericilik hakimiyyətinin rolu normativ hüquqi aktların qəbul edilməsi, o cümlədən beynəlxalq müqavilələrin ratifikasiyasından və mühüm beynəlxalq hüquqi normaların implementasiyası üçün dövlətdaxili qanunvericilik tədbirlərinin qəbul edilməsindən ibarətdirsə, icra hakimiyyəti qolunun rolu onun dövlətin həyatında birbaşa inzibati idarəçilik funksiyası ilə bağlıdır. Məhkəmə hakimiyyəti sistemi öz qərarları ilə dövlət hakimiyyət orqanları aktlarının, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi və ya qüvvədən salınması ilə dövlət orqanları arasında səmərəli qarşılıqlı əlaqələrin yaradılması, onlar tərəfindən insan hüquq və əsas azadlıqların eyni cür dərk edilməsində və vahdət halda riayət edilməsinin həyata keçirilməsində xüsusi rola malikdir.

Konstitusiyaya görə, dövlət orqanları yalnız qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər və həmin norma məhkəmənin fəaliyyətini hüquq tətbiqetmə istiqamətində digər hakimiyyət qollarından fəqləndirir. Normanın mənası baxımından dövlət orqanlarının qanunvericiliyin tətbiqində səlahiyyət hədləri aydındır və onlar qanunun boşluqlarından, həmçinin qanunun və hüququn analogiyasından istifadə edə bilməzlər.

Konstitusiya və digər qanunvericiliklə insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri həll etmək, "ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə etmək" kimi vəzifələr məhkəmələrin üzərinə qoyulmuşdur.

Göründüyü kimi, hakimiyyət qollarının hər birinin müstəqilliyi ilə yanaşı, onların konstitusiya vəzifələrinin və səmərəli qarşılıqlı fəaliyyət istiqamətlərinin müəyyən olunması nəticə etibarilə hakimiyyətin vahidliyinin ehtiva etməklə dövlətçiliyin möhkəmlənməsinə xidmət etmiş olur.

Digər mühüm amil Konstitusiya ilə dövlət idarəçilik institutlarının təkmilləşdirilməsi və xalq hakimiyyətinin təməl prinsiplərinin formalaşmasını şərtləndirən normativ təminat sisteminin yaradılmasıdır. Bu təminat Konstitusiyanın müvafiq müddəalarında yer almaqla bərabər sonradan konstitusiyaya edilmiş əlavə və dəyişikliklərlə möhkəmləndirilmişdir. Dövlət qulluqçularının məsuliyyətinin artırılması barədə geniş tədbirlərin görülməsi də sosial-hüquqi münasibətlərin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.

Konstitusiyanın qəbulu ilə başlayan dövlət quruculuğu prosesi sistemli qanunların qəbulu ilə yeni vüsət aldı. Azərbaycanın böyük və uğurlu inkişaf yolu hüquqi dövlət idealları ilə qovuşdu, ölkədə tam siyasi sabitlik bərqərar oldu. Beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıdı. Azərbaycan mühüm universal və regional beynəlxalq təşkilatların üzvü oldu. Əksər dövlətlərlə qarşılıqlı əməkdaşlıq şəraitində müxtəlif istiqamətlər üzrə ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələr bağlandı. Beləliklə, Ümummilli liderin həyata keçirdiyi geniş və çoxşaxəli fəaliyyəti sayəsində Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi üçün möhkəm təməl qoyuldu. Bu isə Ermənistanın məğlubiyyətini şərtləndirən yeni zəfər yolunun başlanğıcı idi.

Ulu öndər Heydər Əliyevin banisi olduğu dövlətçilik ideyalarının əsas qayəsini təşkil edən xalq–hakimiyyət birliyi sonradan Prezident İlham Əliyev tərəfindən daha da möhkəmləndi. 2003-cü il oktyabr ayının 15-də keçirilən prezident seçkiləri Heydər Əliyev siyasi kursunun növbəti təntənəsi ilə davam etdi, Azərbaycan xalqı böyük həmrəyliklə Ümummilli liderin siyasi varisi cənab İlham Əliyevi özünə rəhbər seçməklə mühüm uğur və nailiyyətlərin dönməzliyinə təminat əldə etdi.

Burada ən vacib amil Ulu öndər tərəfindən vəsiyyət olaraq torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanın yenicə seçilmiş Prezident qarşısında dayanması taleyüklü məsələ idi və bunun mənəvi məsuliyyəti hər hansı bir dəyərlə ölçüyə gələ bilməzdi. Bu taleyüklü məsələnin həlli də eyni prinsipə söykənir: xalq-hakimiyyət birliyi. Heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu prinsipə istinad edərək hər bir Azərbaycan vətəndaşı üçün Prezident olacağını bəyan etmiş və bu vədə sadiqliyini əməli fəaliyyəti ilə təsdiq etmişdir.

Dövlət başçısı İlham Əliyevin Ümummilli liderin siyasətinə sadiqlik ruhunda düzgün və hərtərəfli işlənib hazırlanmış strategiyası sayəsində, nəhayət ki, Azərbaycan xalqı Ermənistanın 30 illik işğalçılıq siyasətinə 44 gündə son qoyaraq öz ərazi bütövlüyünə qovuşmaqla dövlət suverenliyini tam bərpa etdi. Tarix bir daha təsdiq etdi ki, ancaq xalqa söykənən Lider tarixdə dönüşlər yarada və bütün çətinliklərin öhdəsindən layiqincə gələ bilər.

Elə bunun nəticəsidir ki, xalq–hakimiyyət birliyi, sözün əsl mənasında, dəmir yumruq təcəssümündə Ali Baş Komandan İlham Əliyev şəxsiyyətində, müzəffər ordumuzun qüdrəti ilə xalqımızın şanlı qəhrəmanlıq salnaməsini yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dediyi kimi: "Biz erməni ordusunu "yenilməz ordu" kimi təqdim edən mifologiyaya son qoyduq".

Ümumilikdə, dövlət suverenliyimizin tam bərpası bir sıra amillərlə izah oluna bilər. Bu, ilk növbədə, ölkədə mövcud olan dövlətçilik ənənələrinin formalaşdırılması, ümumbəşəri dəyərlərin qorunub-saxlanması ilə müşayiət olunan və hüquq qaydasına əsaslanan səriştəli və çevik dövlət idarətmə hakimiyyətinin olmasıdır. Müstəqilliyin ilk illərindən başlanan dövlət quruculuğu Ulu öndərin ideyalarından qaynaqlanırdı və Konstitusiyanın qəbulu ilə bu proses daha da geniş vüsət aldı, sonradan bu kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi.

Suverenliyin xarakterik cəhəti kimi dövlət funksiyalarının bütün respublika ərazisində həyata keçirilməsi, ancaq dövlətçilik ənənələri ilə formalaşan güclü xalq hakimiyyətilə təzahür oluna bilər. Bunun nümunəsidir ki, suverenliyimiz, əvvəlcədən təfsilatlı və dəqiqliklə hazırlanmış plan üzrə keçirilən müharibə nəticəsində bərpa oldu.

Ümummilli lider Heydər Əliyev məktəbindən dərs alan ölkə rəhbəri İlham Əliyevin hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə ustalıq məharəti, öz xalqı ilə vəhdətdə olan liderlik şəxsiyyəti ilə bağlıdır. Belə fəaliyyətin tərkib hissəsi kimi informasiya müharibəsində əldə edilmiş nailiyyətlər də qeyd edilməlidir. Cənab Ali Baş Komandan 44 günlük müharibə dövründə dünyanın aparıcı media vasitələrinə çoxsaylı müsahibələr verməklə Azərbaycanın haqq səsini beynəlxalq ictimaiyyətə çatdırmış, informasiya müharibəsində də qələbə əldə etmişdir.

İqtisadi güc də önəmli amil olmuşdur. Prezident İlham Əliyevin dediyi kimi: "Əgər iqtisadi gücümüz olmasaydı, bu qələbəni əldə etmək mümkün olmazdı". Daxili vəhdət, milli birlik, vahid amal uğrunda həmrəylik; güclü siyasi iradə, xalq-iqtidar birliyi də qələbənin təminatına çevrilmişdir. Elə bunun nəticəsidir ki, orduda ruhyüksəkliyi hökm sürmüş, döyüşən ordu qüvvələrində könüllü iştirakla bağlı müraciətlər geniş vüsət almış, ölkədə ictimai-siyasi sabitlik qorunub-saxlanmışdır.

Prezident İlham Əliyev bildirmişdir ki, 17 il ərzində işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Azərbaycan əsgəri müharibə günlərində əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsinə çevrildi. Düşmənin 30 il ərzində qurduğu nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, ordumuzun tətbiq etdiyi müharibə strategiyası müasir dövr hərb tarixinə qabaqcıl nümunə kimi həkk olundu.

Azərbaycanın dövlət suverenliyi, möhkəm təməl üzərində qurulmuş xalq-hakimiyyət birliyinin yenilməz simvoludur. Bu birliklə xalqımız şanlı zəfərlə, dövlətçilik tariximizdə qəhrəmanlıq nümunəsi yaratdı, dövlətimizin qüdrətini, ordumuzun şücaətini dünyaya nümayiş etdirdi. Suverenliklə başa çatan zəfər yolunun əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan BMT-nin uzun illər kağız üzərində qalmış 822, 853, 874 və 884 saylı qətnamələrini öz gücü ilə yerinə yetirilməklə dünyada yeni nümunə yaratdı.

Qələbənin mühüm əhəmiyyəti kimi seçilən tam suverenliyin məğzində həm də Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz təmas dayanır. Ermənistan bu zəfər qələbəsindən nəticə çıxarmalı, beynəlxalq öhdəliklərinə riayət etməlidir, çünki bu qələbə nümunəsində xalqımız üçün qürur hissi, düşmən üçün isə beynəlxalq öhdəliklərdən yayınmağın acı nəticələri yer alır.

Bu yolun əhəmiyyəti ondadır ki, bir qərinədən artıq ayrı qalan ərazilərimiz bir-birinə bağlanmaqla yanaşı, ölkəmiz qardaş Türkiyə Respublikasının ərazisi ilə bütöv bir dünyaya strateji əhəmiyyətli yol açır və bunun vasitəsilə Avropa və Asiya arasında əsas tranzit xəttinin yaranması təmin edilir, ölkəmizin həm region, həm də dünya səviyyəsində geopolitik mövqeyinə çox ciddi töhfə verir.

Bütövlükdə isə suverenliyimizin əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın bütün ərazisində qanunvericilik, o cümlədən insan hüquq və azadlıqları eyni cür təminat əldə edir, ölkəmiz daha təminatlı iqtisadi inkişaf əldə edir, beynəlxalq münasibətlər daha etibarlı nizamlanır, regionda sülh və birgəyaşayış qaydalarının təmin olunmasına əsaslı zəmin yaranır.

***Şəhriyar ƏLİYEV,***
***Xətai Rayon Məhkəməsinin hakimi,***
***hüquq elmləri doktoru***

# Avropanın enerji təchizatında Azərbaycanın rolu yüksəlir



**Avropada enerji təhlükəsizliyi məsələləri son illər qitənin siyasi və iqtisadi gündəminin əsas istiqamətlərindən birinə çevrilib. Xüsusilə, 2022-ci ildən sonra təbii qaz təchizatında yaranan boşluqlar səbəbindən Avropa İttifaqını yeni, etibarlı və uzunmüddətli tərəfdaşlara ehtiyac duymağa vadar edib. Bu kontekstdə Azərbaycan regionun əsas enerji ixracatçılarından biri kimi Avropanın diqqət mərkəzindədir.**

"Azərbaycan Avropa İttifaqı (Aİ) ilə enerji təhlükəsizliyi və qarşılıqlı əlaqə sahəsində əməkdaşlığı dərinləşdirməyə hazırdır". Bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə "EU Today"ə müsahibəsində bildirib. Dövlət rəsmisi bəyan edib ki, Azərbaycan enerji təhlükəsizliyi və qarşılıqlı əlaqə sahəsində Avropa İttifaqı ilə əməkdaşlığın dərinləşdirilməsinə hazırdır. Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin Avropa maliyyə institutlarına qaz infrastrukturu məsələlərində daha çox çeviklik göstərmək çağırışlarını da dəstəkləyir.

2024-cü ildə Avropa İttifaqı Cənub Qaz Dəhlizi vasitəsilə təxminən 11,7 milyard kubmetr Azərbaycan qazı idxal edib ki, bu da 2021-ci ildəki 8 milyard kubmetrdən çoxdur, 2022-ci il sazişi isə 2027-ci ilə qədər həcmin ən azı 16 milyard kubmetrə qədər artırılmasını nəzərdə tutur. Qeyd olunduğu kimi, Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsas aktorlardan biri kimi çıxış edir və beynəlxalq siyasi proseslərin hazırkı dövründə bu, daha da güclənir.

Təşkilat nümayəndələri Azərbaycanı Avropa İttifaqının etibarlı və strateji tərəfdaşı kimi qiymətləndirirlər. Hazırda Azərbaycan Aİ-yə üzv 8 dövlətin enerji təminatında mühüm paya malikdir. Azərbaycan qazının Avropaya nəqli isə Cənub Qaz Dəhlizi vasitəsilə 2020-ci ilin sonunda həyata keçirilməyə başlayıb.

Ötən illər ərzində Azərbaycan Avropaya qaz ötürülməsini əhəmiyyətli dərəcədə genişləndirib. Açıqlanan göstəricilərə görə, ötən ilin ilk 11 ayında ölkədən xaricə qaz satışının həcmi 22,05 milyard kubmetr olub. Bu rəqəm 2022-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 9 faiz çoxdur. Həmin zaman kəsiyində Azərbaycan Avropaya 10,85 milyard kubmetr təbii qaz göndərib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz yüksəliş deməkdir.

Eyni müddətdə Türkiyəyə 8,7 milyard kubmetr, Gürcüstana isə 2,5 milyard kubmetr qaz ixrac olunub. Türkiyəyə qaz çatdırılması illik müqayisədə 14,5 faiz Gürcüstana isə 13,6 faiz artıb. Bu dövrdə Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Türkiyəyə təxminən 5,1 milyard kubmetr qaz ötürülüb. Qeyd edək ki, 2022-ci ildə Azərbaycan Avropaya 10 milyard kubmetrdən çox təbii qaz göndərmişdi.

Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq son dövrdə yeni mərhələyə qədəm qoyub. Söhbət "yaşıl enerji" üzrə əməkdaşlıqdan gedir. Bu istiqamət həm Azərbaycanın enerji siyasətinin modernləşdirilməsi, həm də Avropanın bərpaolunan enerji ilə bağlı hədəflərinin dəstəklənməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

2022-ci ilin iyulunda Azərbaycan və Aİ arasında imzalanmış "Enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" qaz tədarükünün artırılması ilə yanaşı, həm də bərpaolunan enerji layihələrinin genişləndirilməsini nəzərdə tutur. Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan xətti üzrə qurulan "Xəzər-Qara Dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" Aİ ilə əməkdaşlığın ən mühüm layihələrindən biridir. Bu layihə Xəzər sahillərində istehsal olunan "yaşıl enerji"nin Gürcüstan vasitəsilə Avropaya çatdırılmasını nəzərdə tutur. Kabel xəttinin illik ötürmə gücünün təxminən 1000 MVt olması planlaşdırılır. Layihə Avropanın enerji təhlükəsizliyinə ciddi töhfə verməklə yanaşı, Azərbaycanın "yaşıl enerji" ixracatçısına çevrilməsi üçün vacib addımdır.

Qeyd edək ki, ölkəmizdə təmiz enerji mənbələri baxımından ciddi potensial mövcuddur. Energetika Nazirliyinin verdiyi məlumata görə, "yaşıl enerji" mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. İqtisadi potensial 27 QVt, o cümlədən külək enerjisi üzrə 3 QVt, günəş enerjisi üzrə 23 QVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Bərpaolunan enerji mənbələri üzrə ölkəmizdə ümumi gücü 1829,6 MVt olan elektrik stansiyaları fəaliyyət göstərir. Onlara 1443,5 MVt gücündə 65 su, 63,5 MVt gücündə 5 külək elektrik stansiyası, 278,2 MVt gücündə 9 günəş, 37 MVt gücündə BİO və 7,3 MVt gücündə 3 hibrid elektrik stansiyaları daxildir. Bərpaolunan enerji mənbələri ümumi enerji gücünün təxminən 18,8 faizini təşkil edir. 2027-ci ilədək ümumi gücü 2 qiqavatdan çox olan "yaşıl enerji" layihələrinin reallaşdırılması nəzərdə tutulur. Bu layihələr arasında yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən külək və günəş stansiyaları xüsusi əhəmiyyət daşıyır.

### *Ekspert rəyi*



**Azər BADAMOV,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini**

**2030-cu ilə qədər ölkəmizdə 6 QVt "yaşıl enerji"nin istehsalı hədəflənib. Bununla bağlı dünyanın bu sahədə böyük təcrübəsi olan Masdar, ACWA Power və s. digər şirkətlərinin investisyaları ölkəmizin bərpaolunan enerji sektorunun yaradılmasına cəlb olunub. Belə ki, bərpaolunan enerjinin istehsalının 10 qiqavata çatdırılması ilə bağlı sazişlər və memorandumlar imzalanıb.**

Ölkənin elektrik enerjinin həcmlərində bərpaolunan enerjinin payının artması həm də böyük həcmlərdə qazın sərfiyatını azaldacaq. Bu da Avropaya ixrac etməyimiz üçün daha çox qaza qənaət olunacağı deməkdir.

Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair bağlanmış Memoranduma əsasən 2027-ci ilə qədər Avropa ittifaqı ölkələrinə ixrac edəcəyimiz qaz həcminin 2 dəfə artırılması nəzərdə tutulub. Təbii ki, istehsal gücümüzün artması və elektrik enerjisinin istehsalına sərf olunan qaza qənaət olunması qarşımıza qoyulan hədəflərin reallaşdırılmasına imkan verəcək. Azərbaycan Avropaya ancaq qaz tədarük etməklə kifayətlənməyəcək, həm də "yaşıl enerji" ixrac edəcək. Bu baxımdan Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılmış "yaşıl dəhliz" Avropaya həm də "yaşıl enerji"mizin ixracını reallaşdıracaqdır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Azərbaycan uzun illər Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatında yaxından iştirak edəcək.

***Musa BAĞIRLI***
***XQ***

# Sabirabad Sənaye Məhəlləsinin bazarı genişlənir

## *Buraxılan məhsullara xaricdə də tələbat artır*




**Ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü ildə imzaladığı fərmanla müəyyən edilib. Məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi, əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır.**

Sabirabad Sənaye Məhəlləsi isə Prezident İlham Əliyevin 2017-ci ildə imzaladığı sərəncamla yaradılıb. Ümumi ərazisi 20,3 hektar olan məhəllə sahibkarlıq subyektlərinin fəaliyyət göstərməsi üçün zəruri infrastrukturla tam təmin olunub. İndiyədək burada 8 rezident qeydiyyatdan keçib və fəaliyyətə başlayıb. Ümumilikdə, sənaye məhəlləsində 100-dən çox iş yeri yaradılıb və rezidentlər tərəfindən 10 milyon manatdan çox investisiya qoyulub.



**"Humix" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə tanış olmaq üçün təsisçi Etibar Ağalarla** istehsal prosesində həmsöhbət olduq. O bildirdi ki, cəmiyyətə 2021-ci ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti statusu və müvafiq dövlət lisenziyası verilib. Müəssisədə üzvi mineral (toz), kimyəvi (maye və toz) və qranul gübrələr alman texnologiyasına əsasən daha çox yerli xammaldan istehsal olunur:

"Məhsuldan asılı olaraq 10 faizdən 90 faizə qədər istehsal prosesində yerli xammaldan istifadə edilir. Bununla da respublikamıza xarici ölkələrdən idxal edilən kübrələrin 70-80 faizinin çeşidi və tərkibi ilə eynilik təşkil edir. Bitkiçilik sahəsinin hər bir növünə aid olmaqla Türkiyə, Çin və yerli texnologiya əsasında fəaliyyət göstərən müəssisənin illik istehsal gücü 18 min ton gübrə təşkil edir. Burada istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldilməklə yanaşı, xarici ölkələrə də ixrac edilir.

Hazırda müəssisədə hər biri ətraf ərazidə yaşayan 16 nəfər daimi işlə təmin olunub və istehsal edilən məhsullar keyfiyyəti ilə seçilməklə daxili və xarici bazarda yüksək rəqabəti ilə tanınır. Yerli bazarı təmin etməklə Rusiyadan və Pakistandan da təkliflər almışıq. Türkmənistan və Qazaxıstanla yanaşı, Avropa ölkələri də məhsullarımıza son dərəcə böyük maraq göstərir. Slovakiyadan, Polşadan və digər ölkələrdən də təkliflər almağa başlamışıq. İngiltərəyə göndərdiyimiz nümunələr yüksək dəyərləndirildiyindən satış məqsədilə danışıqlar gedir. Məqsədimiz Azərbaycan brendi altında istehsal etdiyimiz keyfiyyətli məhsulları dünya bazarında rəqabətli məhsul kimi tanıtmaq və dünyada alıcı şəbəkəsini genişləndirməkdir. Çünki regionda bu tipli məhsulları istehsal edən yeganə müəssisəyik".

Müsahibimizin məlumatına onu da əlavə edək ki, investisiya məbləği 1,45 milyon manat olan müəssisəyə İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 497 min manat güzəştli kredit ayrılıb, investisiya təşviqi sənədi verilib. Müəssisə durmadan genişlənir. Məqsədimiz müasir avadanlıqlar gətirməklə məhsulların yeni çeşidlərinin istehsalını genişləndirməkdir. Bu məqsədlə hazırda Çin Xalq Respublikasından yeni avadanlıqların alınması üçün danışıqlar gedir.

İstehsal olunan məhsullara toxunan Etibar Ağalar bildirdi ki, biz əvvəlcə yalnız gübrələr istehsal edirdik, sonradan isə bağçılıqda istifadə olunan məhsulların istehsalına da başlamışıq. Onu da deyim ki, indiyə qədər bu məhsulların hər biri respublikaya kənardan baha qiymətə gətirilirdi. Biz isə çalışırıq ki, yüksək keyfiyyəti ilə xarici məhsullarla eynilik təşkil edən yerli məhsullara bazarda daha çox üstünlük verilsin. Satışın ildən-ilə artması istehsal etdiyimiz məhsulun keyfiyyətini əyani surətdə təsdiqləyir. Qiyməti xarici məhsullardan 2 dəfə ucuz olan məhsullarımızın keyfiyyəti idxal olunanlarla eynidir, çünki biz də brend xammalı eyni texnologiya ilə istehsal edirik.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Beynəlxalq Nəqliyyat Forumunun illik sessiyası

## *Paris məsləhətləşməsində dayanıqlı nəqliyyat gündəliyi müzakirə edilir*




**Parisdə Beynəlxalq Nəqliyyat Forumunun (ITF) illik məsləhətləşmə sessiyası dünən öz işinə başlayıb. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Konfrans Mərkəzində hibrid formatda keçirilən tədbir qlobal nəqliyyat siyasətinin gələcək konturlarını müəyyənləşdirmək baxımından xüsusi əhəmiyyət daşıyır. Dünyanın aparıcı beynəlxalq, hökumətlərarası və qeyri-hökumət təşkilatlarını bir araya gətirən məsləhətləşmə sessiyası nəqliyyat sektorunda davamlılıq, maliyyələşmə, rəqəmsallaşma və strateji tərəfdaşlıq kimi əsas istiqamətlər üzrə dialoqu dərinləşdirməyi hədəfləyir.**

Sessiya ITF-in Baş katibi Yung Tae Kimin giriş nitqi ilə açılıb. Baş katib çıxışında dünyada nəqliyyat sektorunun qarşısında duran çağırışları, xüsusilə enerji keçidi, yük və sərnişindaşımanın artan tələbatı, infrastrukturun dayanıqlılığı və iqlim hədəflərinə uyğun transformasiya məsələlərini diqqətə çatdırıb. O bildirib ki, nəqliyyat siyasəti təkcə texnoloji modernizasiya ilə deyil, həm də qlobal əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi ilə yenidən qurulur.

Ardınca ITF-in institusional əlaqələr və sammit rəhbəri Mari Krass təşkilatın beynəlxalq tərəfdaşlarla iş istiqamətlərini təqdim edib. O, qarşıdan gələn Zirvə toplantılarında müzakirə olunacaq əsas mövzuları açıqlayaraq həm hökumətlərin, həm də özəl sektorun prosesə daha fəal qoşulmasının əhəmiyyətini vurğulayıb. Krass qeyd edib ki, ITF-in məqsədi yalnız nəqliyyat siyasəti üzrə tövsiyələr vermək deyil, həm də qlobal miqyasda praktiki əməkdaşlıq platforması yaratmaqdır.

Qeyd edək ki, Azərbaycan tərəfi sessiyada səfir Leyla Abdullayeva tərəfindən təmsil olunur. O, 2026-cı ildə Azərbaycanın ITF sədrliyinin prioritetlərini təqdim edərək ölkəmizin nəqliyyat diplomatiyası istiqamətində atdığı addımları diqqətə çatdırıb. Çıxışında Azərbaycanın regional və qlobal nəqliyyat xəritəsində artan roluna toxunaraq, Orta Dəhlizin genişləndirilməsi, nəqliyyatın rəqəmsallaşdırılması və yaşıl logistikaya keçid kimi məsələlərin 2026-cı il sədrliyinin əsas dayaqlarını təşkil edəcəyini bildirib. Onun çıxışı Azərbaycanın qlobal nəqliyyat müzakirələrində yüksələn mövqeyini nümayiş etdirib.

Məsləhətləşmə sessiyasının gündəliyi həmçinin ITF Katibliyinin davamlı nəqliyyat sahəsində apardığı son araşdırmaların təqdimatını da əhatə edir. Katiblik müasir nəqliyyat sistemlərinin daha çevik, daha az karbon emissiyalı və daha inklüziv olmasına yönəlmiş yeni analitik yanaşmaları iştirakçılarla bölüşür. Xüsusilə, 2025–2027-ci illəri əhatə edən "Nəqliyyatın davamlılığı" trilogiyası üzərində vurğu edilir. Bu trilogiya qlobal nəqliyyat siyasətində transformasiya mərhələsini simvolizə edir və həm infrastruktur, həm texnologiya, həm də tənzimləmə sahələrində strateji hədəflər təqdim edir.

Sessiyanın ən mühüm bölmələrindən biri 2026-cı il ITF Sammitinin əsas mövzularının açıqlanmasıdır. Sammit dünya ölkələrinin nəqliyyat nazirlərini, aparıcı şirkətləri və beynəlxalq maliyyə institutlarını bir araya gətirəcək. Tərəflər nəqliyyat sektorunun maliyyələşdirilməsi, investisiya modelləri, yeni texnologiyaların tətbiqi və iqlim hədəflərinə uyğun nəqliyyat zəncirlərinin formalaşdırılması mövzularında öz baxışlarını bölüşəcəklər.

Tədbir 2007-ci ildən bəri nəqliyyat siyasətində ümumi görüş nöqtələrindən biri hesab olunur. Bu illər ərzində ITF məsləhətləşmələri 60-dan çox qurumu eyni masada toplayaraq sektorun ən aktual problemlərinə birgə həll yolları axtarıb. Budəfəki sessiya isə xüsusilə tərəfdaş təşkilatlarla əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından daha praktik və nəticəyönümlü xarakter daşıyır.

Paris sessiyası dünyada nəqliyyat sektorunun birgə düşünülməsi, yeni siyasət mexanizmlərinin formalaşdırılması və dayanıqlı nəqliyyat gələcəyinin qurulması baxımından əhəmiyyətli addım kimi dəyərləndirilir. Azərbaycan üçün isə tədbir həm regional nəqliyyat qovşağı kimi mövqeyini gücləndirmək, həm də 2026-cı il sədrliyinin proqramını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün mühüm platformadır.

***Nurlan ABDALOV***
***XQ***

# İƏT-in Təmiz Enerji Mərkəzi ilə saziş imzalanıb




**"Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi" imzalanıb. Sazişi Azərbaycan Hökuməti adından energetika naziri Pərviz Şahbazov və İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təmiz Enerji Mərkəzinin (TEM-CECECO) icraçı direktoru Aysel Yaqubova imzalayıblar.**

Qeyd edək ki, saziş mərkəzin öz funksiyalarını və vəzifələrini səmərəli şəkildə həyata keçirməsini, nizamnaməyə uyğun olaraq hüquqi statusunu, imtiyazlarını müəyyən edir, eləcə də ev sahibi ölkə ilə münasibətləri tənzimləyir.

TEM milli və regional səviyyədə dayanıqlı enerji, enerji keçidi və enerji səmərəliliyi layihələrinin təşviqi və əlaqələndirilməsi üçün mühüm platforma rolunu oynayır. Qurumun fəaliyyəti Azərbaycanda icra olunan milli və regional "yaşıl enerji" layihələri üçün əlavə imkanlar yaratmaqla yanaşı, ölkəmizin regional enerji proseslərində, o cümlədən Mərkəzi Asiya ilə enerji bağlantılarının qurulması istiqamətində rolunun daha da möhkəmlənməsinə xidmət edəcək.

Xatırladaq ki, 2021-ci ilin 27 noyabr tarixində Aşqabad şəhərində keçirilmiş İƏT-in Xarici İşlər Nazirləri Şurasının 25-ci iclasında İƏT Təmiz Enerji Mərkəzinin Nizamnaməsi qəbul olunub və Azərbaycan TEM-ə evsahibliyi edəcək ölkə seçilib.

***XQ***

# Qiymətlər yüksəldikcə keyfiyyət aşağı düşür

## *Xidmət sektorundakı bu “qayçı” alıcıların ciblərini kəsir*

**Son illər qlobal inflyasiya təzyiqləri və regional geoiqtisadi proseslər ölkəmizdə istehlak bazarının dinamikasına ciddi təsir göstərib. Qiymət artımı, keyfiyyətsiz malların dövriyyəsi və xidmət sahəsindəki nizamsızlıqlar isə sıravi istehlakçının gündəlik həyatında ən çox hiss olunan problemlərdən biri kimi diqqət çəkir.**



Bu məsələlər iqtisadi göstəricilərə təsir etməklə bərabər, vətəndaş məmnunluğunda da özünü qabarıq büruzə verir. Buna görə də istehlakçı hüquqlarının qorunması çağdaş dövrdə həm iqtisadi islahatların, həm də sosial siyasətin mühüm istiqamətinə çevrilib.

İnflyasiyanın son illər ərzində qlobal miqyasda sürətlənməsi Azərbaycanın daxili istehlak bazarına da təsirsiz ötüşməyib. Həm idxaldan asılılıq, həm logistika xərclərinin artması, həm də təchizat zəncirindəki qırılmalar qeyri-neft sektorunda ciddi qiymət dalğalanmalarına səbəb olub. Bu, eyni zamanda, ərzaqdan tutmuş elektronikanın zəmanət xidmətinə, tibbi xidmətlərdən restoran sektoruna qədər bir çox sahədə müşahidə edilib.

Belə bir şərait isə, ilk növbədə, xarici amillərdən qaynaqlanır. Ümumdünya Səhiyyə Təşkilatı və Dünya Bankı kimi beynəlxalq qurumların hesabatlarında qlobal ərzaq qiymətlərinin son illərdə rekord həddə yüksəldiyi göstərilir. Azərbaycanda bəzi məhsulların 40–70 faiz arasında idxaldan asılı olması isə bu artımların bilavasitə daxili bazara ötürülməsi ilə nəticələnir. Xüsusən də bitki yağları, taxıl məhsulları, heyvan yemləri və bir sıra sənaye məhsullarında qiymət artımı daha kəskin hiss edilir. Bütün bunlarla yanaşı, bəzi sahələrdə rəqabətin zəif olması, topdansatış bazarlarının dar çərçivədə formalaşması qiymət dəyişkənliyinin real səbəblərini gizlədir. Rəqabət mühiti tam formalaşmadıqda qiymətlər bazar mexanizmi ilə deyil, daha çox kommersiya maraqları ilə müəyyənləşdirilir.

Onu da qeyd edək ki, ölkədə daxili istehsalın genişləndirilməsində də gecikmələr müşahidə edilir. Bəzi sahələrdə güclü potensiala malik yerli məhsulların aşağı həcmi ilə daxili tələbat ödənilmir. Bu, idxal məhsullarının bazarda daha üstün mövqeyə çıxmasına və qiymət dalğalanmalarına səbəb olur. Əhalinin gəlir səviyyəsinin yüksəlməsi ilə tələbat strukturunda dəyişikliklərin baş verməsi də müşahidə edilir. Başqa sözlə, əhalinin maliyyə imkanlarının genişlənməsi nəticəsində daha keyfiyyətli məhsullara yaranan maraq sayəsində həm bazar seqmentləri genişlənir, həm də satıcılar tərəfindən bəzi hallarda qiymətlər süni şəkildə artırılır.

Bu məqamda başqa bir məsələ də diqqət çəkir. Keyfiyyətsiz və ya tərkibi standartlara uyğun olmayan ərzaq məhsullarının bazara çıxarılması istehlakçı hüquqlarına ən ciddi zərbə vuran amillərdən biridir. Tekstil, məişət texnikası, kosmetik vasitələr və xidmətlər də risk qruplarına daxildir. Ərzaq təhlükəsizliyi ilə bağlı risklərə gəldikdə isə qeyd edək ki, etiket məlumatlarının qeyri-dəqiq və ya natamam göstərilməsi, mənşəyi bilinməyən malların bazara çıxarılması, saxlanma şəraitinə əməl olunmaması, saxta məhsulların real marka adı altında satılması halları təkcə istehlakçını aldatmır, həm də sağlamlıq üçün ciddi təhlükə yaradır. Araşdırmalar göstərir ki, keyfiyyətsiz qida məhsulları nəticəsində yaranan xəstəliklərin payı inkişaf etməkdə olan ölkələrdə xüsusilə yüksəkdir.

Ölkədə qeyri-ərzaq məhsullarının keyfiyyət problemi də ciddi narahatlıq yaradır. Məsələn, elektronikanın qısa müddətdə sıradan çıxması, zəmanət müddətinin gerçəkləşdirilməməsi və ya formal xarakter daşıması, ucuz xammaldan hazırlanan tekstil və kosmetika məhsullarının orqanizmə allergik təsir göstərməsi, sertifikatlaşdırılmayan malların sərbəst şəkildə bazarda dövriyyəsi vurğulanan fikrin bariz ifadəsidir. Bu sahədə ən böyük çətinlik istehlakçının çox zaman hüquqlarının nədən ibarət olduğunu və onları necə qorumaq lazım gəldiyini bilməməsidir.

Müasir iqtisadiyyatın böyük hissəsini xidmət sektoru təşkil edir. Bu sahənin genişlənməsi həm məşğulluğa, həm də iqtisadi şaxələnməyə müsbət təsir göstərir. Lakin burada mövcud problemlər də ciddi narahatlıq yaradır. Xidmət keyfiyyətinin qeyri-sabitliyi bu məsələdə daha çox diqqət çəkir. Belə ki, bank xidmətlərindən tutmuş restoranlara, tibbi xidmətlərdən sığorta sektoruna qədər müxtəlif sahələrdə keyfiyyət standartları arasında ciddi fərqlər mövcuddur. Eyni zamanda, müştəri məmnuniyyəti mexanizmlərinin gücləndirilməsi də zəruridir. Bir çox xidmət obyektlərində rəsmi şəkildə şikayət qutusu, elektron müraciət forması mövcud olsa da, onların qeyri-səmərəliliyi müvafiq qurumları narahat etmir.

Vətəndaş məmnunluğuna mənfi təsir göstərən amillərdən biri də qiymətlərin şəffaf olmamasıdır. Xüsusilə, avtomobil təmiri, məişət texnikasının servisi və tibbi xidmətlərdə qiymətlərin əvvəlcədən dəqiq bildirilməməsi istehlakçı üçün risk yaradır. Sığorta sistemində anlaşılmaz mexanizmlərin mövcudluğu isə bu sahədə ciddi narazılıq doğurur. Məsələn, nəzərdə tutulan kompensasiyaların gecikməsi, müştəriyə izahların yetərsizliyi vətəndaş məmnunluğuna təsirsiz ötüşmür.

Xidmət sektorunda istehlakçı hüquqları üzrə normativ baza və onun tətbiqinə gəldikdə isə deyə bilərik ki, Azərbaycan qanunvericiliyində istehlakçı hüquqlarının müdafiəsi ilə bağlı kifayət qədər geniş baza mövcuddur. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanun, sertifikatlaşdırma normaları, qida təhlükəsizliyi standartları və digər normativlər bu sahəni tənzimləyir. Lakin əsas problem mexanizmlərin tətbiqi və icrasındadır.

**Qida eksperti Samir Axundovun** sözlərinə görə, bu sahədə bəzi qurumların səlahiyyətləri arasında kəsişmələr mövcuddur, istehlakçı məlumatlandırılması zəifdir, sürətlə dəyişən bazar şərtlərinə uyğunlaşma mexanizmlərinin təkmilləşdirilməsi ləng aparılır. Şübhəsiz ki, bu da vətəndaş məmnunluğunun səviyyəsinə mənfi təsir göstərir. Bu, son illərdə elektron şikayət sistemləri və dövlət xidmətlərinin rəqəmsallaşdırılması nəticəsində müraciətlərin sayının xeyli artmasında özünü qabarıq büruzə verir. Bu, həm maariflənmənin güclənməsinin, həm də problemlərin çoxluğunun göstəricisidir. Ən çox şikayət olunan sahələr bunlardır:

*– pərakəndə ticarət və e-commerce;*

*– mobil operatorlar və internet provayderləri;*

*– avtomobil servisləri;*

*– məişət texnikasının zəmanət xidməti;*

*– tibbi xidmətlər və özəl klinikalar.*

Yeri gəlmişkən, təəccüb doğuran məqam odur ki, şikayətlərin müəyyən hissəsi xidmət göstərən qurum tərəfindən operativ və müsbət həll edilsə də, əksər hallarda istehlakçı hüquqları sonadək müdafiə olunmur. Dünyanın inkişaf etmiş ölkələrində isə istehlakçı hüquqlarının qorunmasında iki əsas meyil müşahidə edilir. Birincisi, bu məsələdə rəqəmsal nəzarət mexanizmlərinin tətbiqinə üstünlük verilir. Başqa sözlə, QR kodla (“tez cavab” verən mənasını verir, ştrix kodların növlərindən biridir ) məhsulun izlənilməsi, elektron qida təhlükəsizliyi sənədləri, qiymət monitorinqi proqramları, süni intellekt əsasında saxta məhsulların aşkarlanması kimi üsullar xüsusi diqqətdə saxlanılır. İkinci istiqamətdə isə ictimai təşkilatların fəal iştirakı gerçəkləşdirilir. Yəni istehlakçı birlikləri tərəfindən həm araşdırmalar aparılır, həm də hüquqi dəstək göstərilir.

Ekspertlər bildirirlər ki, mövcud vəziyyətin yaxşılaşdırılması üçün yuxarıda sadalanan problemlərin həllinə kompleks yanaşılmalı, ilk növbədə, rəqabət mühiti gücləndirilməlidir. Topdansatış bazarlarında inhisarçı meyillərin aradan qaldırılması qiymətlərin daha ədalətli formalaşmasına şərait yarada bilər. Eyni zamanda, rəqəmsal nəzarət sistemləri genişləndirilməlidir. Məhsulların istehsaldan satışa qədər izlənilməsi məqsədilə rəqəmsal kodlaşdırma mexanizmləri tətbiq olunmalıdır. İstehlakçı maarifləndirilməsinin gücləndirilməsi də daim diqqətdə saxlanılmalıdır. Kütləvi informasiya vasitələrində istehlakçı hüquqları ilə bağlı xüsusi proqramlar, maarifləndirici rubrikalar təşkil edilməlidir.

Beləliklə, yuxarıda vurğulanan fikirlər deməyə əsas verir ki, istehlakçı hüquqları müasir cəmiyyətin keyfiyyət göstəricilərindən biridir. Qiymət artımı, keyfiyyətsiz məhsullar və xidmət sektorundakı problemlər təkcə iqtisadi məsələ deyil, həm də sosial ədalətin təmin olunmasına təsir göstərən amillərdir. Bu sahədə aparılan islahatların məqsədi vətəndaş məmnunluğunu yüksəltmək, təhlükəsiz istehlak mühitini formalaşdırmaq və iqtisadi inkişafın dayanıqlılığını təmin etməkdir.

Azərbaycanın qarşıdakı dövrdə bu istiqamətdə atacağı addımlar həm sosial rifahın yaxşılaşdırılması, həm də iqtisadiyyatın sağlamlaşdırılması baxımından mühüm əhəmiyyət daşıyacaq. Əsas hədəf istehlakçının hüquqlarının real şəkildə qorunduğu, məhsul və xidmət keyfiyyətinin beynəlxalq standartlara cavab verdiyi, bazar münasibətlərinin şəffaf və məsuliyyətli şəkildə tənzim olunduğu mühit yaratmaqdır.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

**Bu gün istehlakçıların hüquqlarının qorunması beynəlxalq aləmdə ən aktual məsələlərdən biridir. Məhsulların istehsalı və satışı, xidmətlərin göstərilməsi sahələrində keyfiyyətlə bağlı problemlər hər bir ölkəni narahat edir. Bu problemlərdən ən çox əziyyət çəkən təbii ki, istehlakçıdır.**

Dünyanın bütün ölkələrində olduğu kimi, respublikamızda da hər bir istehlakçı ərzaq və qeyri-ərzaq məhsulların keyfiyyəti ilə bağlı müxtəlif problemlərlə üzləşir. Bununla bağlı bir faktı xatırlatmaq yerinə düşər. Bununla bağlı əvvəlcə onu deyim ki, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanuna görə, hər bir istehlakçılar aldığı malı 14 gün ərzində qaytara və ya dəyişdirə bilər. Lakin paytaxtda, eləcə də digər şəhər və kəndlərdə buna əməl etməyən kifayət qədər mağaza sahibləri var. Bununla yanaşı, bir çox mağazaların qarşısında “Alınan mallar geri qaytarılmır, dəyişdirilmə yoxdur”, – deyə yazılan lövhələrə də rast gəlinir.

Nazirlər Kabinetinin 114 saylı qərarında göstərilən bir sıra mallar istisna olmaqla, digər mallar istehlakçının tələbatını ödəmədiyi və ya onun zavod, fabrik qüsuru olduğu halda, yuxarıda göstərilən müddət ərzində dəyişdirilə və ya qaytarıla bilər. Qanun tələb edir ki, bu halda mal istifadə edilməmiş, geyinilməmiş, yarlıqları üzərində olmalıdır. Həmçinin malın həmin yerdən alındığını sübut edən sənəd olmalıdır. Təəssüf ki, bu qanun istehlakçıların hüquqlarının tam qorunmasını reallaşdırmır. Çünki malı geyinməsən, yoxlamasan uyğun olub-olmadığını necə bilmək olar?

İstehlakçıların yerli və beynəlxalq hüquqlarından biri də onların mal-məhsul haqqında müfəssəl informasiya almaları ilə bağlıdır. Alıcının o informasiyanı satıcıdan tələb etməsi isə onun qanuni haqqıdır. Bu məsələ “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanunda, eləcə də Avropa İttifaqının, bu istiqamətdə fəaliyyət göstərən digər beynəlxalq qurumların müvafiq sənədlərində öz ifadəsini tapıb. Nazirlər Kabinetinin 94 saylı qərarında, “Yeyinti məhsulları haqqında” Qanunda və digər qanunvericilik aktlarında ərzaq mallarının etiketlərində Azərbaycan və xarici dillərdə bu barədə müfəssəl informasiyanın – malın adı, tərkibi, buraxılma və saxlanılma tarixləri, istehsalçı müəssisənin harada yerləşməsi, əlaqə telefonları kimi göstəricilərin mütləq qeyd olunması vacibliyi bildirilib.

Buna baxmayaraq, müasir supermarketlərdə bəzi mallar, məsələn, pendir, yağ, konfet məhsulları qutularda qablaşdırılaraq satılır ki, bu da istehlakçı hüquqlarının pozulması, istehlakçının mal haqqında məlumat almaq hüququnun məhdudlaşdırılması deməkdir.

Azərbaycan hökuməti biznes qurumlarının səmərəli fəaliyyəti üçün hər cür əlverişli şərait yaradıb. Amma çox təəssüf ki, bir sıra hallarda bundan sui-istifadə edilir. Düzdür, son illərdə ölkədə istehlakçı hüquqlarının qorunması istiqamətində görülən müəyyən işlər diqqət çəkir. Lakin reallaşdırılmasına zəruri ehtiyac duyulan digər layihələrin icra olunması da zamanın tələbidir.

Onu da qeyd edim ki, Azad İstehlakçılar Birliyi istehlakçıların hüquqlarının müdafiəsini, ədalətli ticarət mühitinin yaradılması və istehlakçıların məlumatlandırılmasını, onlara qarşı haqsızlıq və qarşısının alınmasını daim diqqətdə saxlayır. Eyni zamanda, ticarət müəssisələrində istehlakçılara qarşı yönələn manipulyasiyalar, qiymət artımları, keyfiyyətsiz malların satılması kimi hallarla mübarizə aparır. Eləcə də istehlakçılara hüquqlarını necə qoruyacaqlarını öyrətmək, onlara doğru məlumat vermək və daha şəffaf bir istehlak bazarının qurulması üçün mütəmadi olaraq maarifləndirmə işləri aparır. Nəhayət, qurum dövlət orqanları ilə sıx əməkdaşlıq şəraitində istehlakçıların hüquqlarının qorunması ilə bağlı qanunvericilikdəki boşluqları aradan qaldırmağa çalışır və bazarda baş verən hər hansı narahatedici hallara dərhal müdaxilə edir.

*3 Dekabr Beynəlxalq Əlillər Günüdür*

# Mərhəmət mənəvi məlhəmdir



**Əlillər cəmiyyətin ayrılmaz hissəsidir. Onlar da hər bir kəs kimi bərabər hüquqlara, dəstəyə və anlayışa layiqdirlər. Odur ki, əlil vətəndaşlarımıza diqqət və qayğının artırılması mühüm əhəmiyyət kəsb edir. Onların maddi və ya hər hansı digər yardımdan çox mənəvi yardıma ehtiyacı var. Sözsüz ki, belə şəxslərin əksəriyyəti özlərini cəmiyyətdən təcrid olunmuş kimi görmək istəmir, müxtəlif tədbir və görüşlərdə fiziki imkanları çərçivəsində iştirak etməyə can atırlar. Buna görə də əlillərin sosial vəziyyətinin və maddi durumunun yaxşılaşdırılması, onların cəmiyyətimizdə bərabərhüquqlu üzv kimi yaşamasını təmin etməkdən ötrü dövlət tərəfindən hər zaman mühüm tədbirlər həyata keçirilir.**

Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə dünya miqyasında keçirilən 3 dekabr – Beynəlxalq Əlillər Günü 1994-cü ildən etibarən Azərbaycanda da qeyd edilir. Bu günün təsis olunması fiziki məhdudiyyətli insanlara cəmiyyətin diqqətinin və onların ictimai həyatda fəal iştirakına şərait yaradılması üçün səylərin artırılmasıdır. Əsas məqsəd cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır. Azərbaycan da əlilliyi olan şəxslərlə bağlı dövlət siyasətinin mütərəqqi beynəlxalq yanaşmalara, xüsusilə BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyasına uyğun qurulduğu və ildən-ilə gücləndiyi ölkələrdən biridir.

Mübaliğəsiz demək olar ki, ulu öndər Heydər Əliyev fiziki məhdudiyyətli insanların diqqət və qayğı ilə əhatə olunmasını dövlətimizin sosial siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən edərək, bu istiqamətdə mühüm tədbirlərin, sosial proqramların əsasını qoymuşdur. Azərbaycan MDB məkanında yeganə dövlətdir ki, əlillərə pulsuz mənzil verilir. Əlillərin pulsuz mənzillə təmin edilməsi işinə 1997-ci ildən Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin tövsiyəsi ilə başlanmışdır.

İnsan amilini həmişə diqqət mərkəzində saxlayan ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk illərdə əlillərin sosial müdafiəsini, onların cəmiyyətə inteqrasiyasını gücləndirmişdir. Hazırda bu istiqamətdə işlər onun siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən davam etdirilir.

Bu gün isə cəmiyyətimizin bütün təbəqələrinin üzvlərinə, o cümlədən əlil vətəndaşlara diqqət və qayğısı göz qabağındadır. Ölkəmizdə dinamik iqtisadi inkişafla bərabər, güclü sosial siyasətin aparılmasını təmin edən Prezident İlham Əliyevin tapşırıqlarına əsasən əlilliyi olan şəxslərin sosial təminatı, reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl və məqsədyönlü addımlar atılır. Dövlət başçısının “Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək” fikirləri isə əlillərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-oktyabr aylarında əlilliyi olan şəxslərə 111 min reabilitasiya vasitəsi verilib. Onlardan 6,1 mini təkərli oturacaq, 2,1 mini aşağı və yuxarı ətraf protezi, 5,4 mini əsa, qoltuqaltı və dirsəkaltı ağac olub. Həmçinin əlilliyi olan şəxslərə 9,1 min cüt protez və yarım cüt ortopedik ayaqqabı, 347 eşitmə aparatı, 467 korset və s. reabilitasiya vasitələri təqdim olunub. Cari ilin 10 ayında əlilliyi olan 12 min şəxs reabilitasiya vasitələri ilə təmin edilib.

Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, bu insanların sosial təminatı ildən-ilə daha da yaxşılaşır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyləri nəticəsində bir çox əlil evləri əsaslı təmir olunmuş, müasir standartlara tam uyğun olan yeni bərpa mərkəzləri yaradılmışdır.

Cəmiyyətin ümumi inkişaf prosesinə uyğun olaraq, bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkanlar yaradan qanunlar qəbul olunur, eyni zamanda, onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır.

Hazırda dünya əhalisinin təxminən, 10 faizini fiziki cəhətdən qüsurlu insanlar təşkil edir. Əlilliyi olan insanların 20 faizi məhz inkişaf etməkdə olan ölkələrdə yaşayır. Azərbaycanda bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində davamlı addımlar atılır, əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyasını ildən-ilə gücləndirilir. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanır. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapır.

Artıq respublikamızda əlillərin müalicə pansionatı fəaliyyət göstərir, reabilitasiya sistemi tamamilə qurulmuş, əlillərin sosial müdafiəsini daha səmərəli təşkil etmək məqsədi ilə hüquqi baza təkmilləşdirilmişdir.

Əlillərin, şəhid ailələrinin və müharibə veteranlarının sosial müdafiəsi ölkə Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısının əhalinin sosial problemlərinin həllinə xüsusi qayğısı əlillərin həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpasına şərait yaradıb. Həmçinin əlil vətəndaşların çoxsaylı sosial, sağlamlıq, reabilitasiya, pulsuz istirahət, texniki bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunması həyata keçirilmişdir. Paytaxtda və bölgələrdə yeni reabilitasiya mərkəzləri istifadəyə verilməklə əlillərin ölkədə, eləcə də xaricdə müalicəsi də xüsusi diqqətdə saxlanılır. Əlillər cəmiyyətin ən həssas təbəqəsidir. Onlara dəstək olmaq hər bir vətəndaşın borcudur.

***Müşfiq MİRZƏ***
***XQ***

*Meyvəçiliyə elmi dəstək*

# Quba bağlarının "şəfalı loğman"ı

## *Müsahibimiz biologiya üzrə fəlsəfə doktoru Mədət Qurbanovdur*

**Hörmətli oxucu! Həmsöhbətim Quba rayonunda, eləcə də ətraf bölgələrdə bağban və fermerlərin uzun illər yaxından tanıdığı, çox sayda dəyərli elmi, təcrübi məsləhət və tövsiyələrindən təmənnasız olaraq faydalandıqları alim-aqronom Mədət Qurbanovdur. Təsadüfi deyil ki, poeziyasını çox sevdiyim tanınmış qubalı şair Ramiz Qusarçaylı Mədət müəllim haqqında qələmə aldığı parlaq publisistik oçerkinə "Qubanın Miçurini" sərlövhəsi qoyub.**

Onu da qeyd edək ki, Mədət müəllim həyatda şöhrət və təmtəraqdan qaçan çox sadə insandır. Qubalı fermerlər ondan söz düşəndə qeyri-ixtiyari olaraq belə deyirlər: "Siz bizim Mədət müəllimi nəzərdə tutursunuz?". Bu günlərdə onunla telefonla əlaqə saxladıq. Məqsədim redaksiyanın tapşırığı ilə Qubada bağçılıq ənənələrinin bərpa olunmasının əhəmiyyəti barədə yazı hazırlamaq idi. Mədət müəllim hər zaman işlərinin çox, vaxtının az olmasına baxmayaraq, qəzetə müsahibə verməklə bağlı təklifimizlə razılaşdı və beləcə, bu səmimi söhbət araya-ərsəyə gəldi. Bu gün müsahibənin əsas məqamlarını oxucuların diqqətinə təqdim edirik.

***– Hörmətli Mədət müəllim, qubalılardan nə ilə məşğul olduqlarını soruşanda yarızarafat, yarıciddi deyirlər ki, "çörəyim meyvədən çıxır". Görünür, sizin də çörəyiniz meyvədən çıxır?!***

– Bəli, mənim elmdə və həyatda əldə etdiklərim bütün uğurlar, az-çox qazandığım hörmət-izzət meyvəçiliklə bağlıdır. Məni dəfələrlə paytaxta "nüfuzlu" işlərə dəvət etsələr də, bu təkliflərdən imtina etmişəm. Bunu özümü tərifləmək üçün demirəm. Sadəcə onu demək istəyirəm ki, ömrümü Qubanın meyvə bağlarında, halal əməkləri ilə özlərini və ailələrini dolandıran, sadə, mehriban bağbanların arasında keçirdiyimə görə peşman deyiləm.

***– Bir halda ki, siz də "çörəyi meyvədən çıxanlar"dansınız, bəlkə tərcümeyi-halınız barədə oxucularımıza qısa da olsa, məlumat verəsiniz...***

– 1955-ci ildə gözəl Qubamızın əsrarəngiz guşələrindən sayılan Xanəgah kəndində dünyaya göz açmışam. Orta məktəbi bitirəndən sonra bir müddət Bakıdakı zavodların birində fəhlə işləmişəm, sonra istehsalatdan ayrılmadan Azərbaycan Dövlət Universitetinin (indiki BDU) biologiya fakültəsinin gecə şöbəsinə qəbul olunmuşam. 1978-ci ildə buranı bitirəndən sonra Leninqrad (hazırkı Sankt-Peterburq) şəhərində yerləşən Ümumittifaq Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitutunun məqsədli aspiranturasına qəbul olunmuşam. 1987-ci ildə həmin institutda namizədlik dissertasiyamı müdafiə etmişəm.

Sonrakı əmək fəaliyyətim qısa fasilələri nəzərə almasaq, əsasən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Quba rayonunda yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu ilə bağlı olub. Burada sıravi elmi işçidən şöbə müdiri, baş direktorun müavini vəzifəsinədək yüksəlmişəm. Hazırda institutda "Bitki mühafizəsi" şöbəsinin baş elmi işçiyəm. Bax, bu qədər.

***– Siz təvazökarlıq edərək demədiniz ki, meyvəçiliklə bağlı 100-dən çox elmi əsərin, 4 kitabın, bir neçə ixtiranın müəllifisiniz. Bundan əlavə, şimal zonasında bağçılığın inkişafı ilə əlaqədar həyata keçirilən əksər layihələrin hazırlanmasında və uğurla həyata keçirilməsində fəal iştirak etmisiniz.***

– Siz bunları haradan bilirsiniz? (gülümsəyir). Çox təşəkkür edirəm.

***– Müsahibəyə hazırlaşarkən, internetdən barənizdə xeyli məlumat toplamışam. Sizin Quba və Xaçmaz rayonlarında fəaliyyət göstərən internet televiziya kanallarına verdiyiniz müsahibələrin çoxunu dinləmişəm. Üzünüzə demək olmasın, siz***



***bu sahənin, həqiqətən, uzmanlarındansınız...***

– Diqqətinizə görə təşəkkür edirəm. Yerli internet kanallarına müsahibələr zamanı bağban və fermerlərə məşğul olduqları sahələr üzrə elmi və təcrübi məsləhətlər verirəm. Onlara tumlu, çəyirdəkli, gəzəkli meyvə növləri üzrə aqrotexniki biliklər verməyə çalışıram. Xüsusilə, istifadə etməli olduqları dərman preparatlarının faydalarını izah edirəm.

Sağ olsunlar, dediklərimə qulaq asırlar, söylədiklərimin çoxunu icra edirlər. Tədbirlərdə, şəxsi görüşlərimiz zamanı minnətdarlıq edirlər. Əsl alim odur ki, onun bilikləri insanlara fayda versin. Nə gizlədim, sadə insanlar tərəfindən əməyimə qiymət veriləndə, qəlbimdə məmnun qalıram. Bilik və təcrübəmi bölüşmək alim kimi borcumdur. Məni yaşadan, ayaqda saxlayan məhz budur.

***– Mədət müəllim, bəlli olduğu kimi, son illər Quba rayonunda, bütövlükdə, ölkəmizin şimal zonasında ənənəvi bağçılığa meyil artır. Əhali həm həyətyanı sahələrində, həm də pay torpaqlarında dədə-baba meyvə sortlarının becərilməsinə üstünlük verir. Sizcə, bu tendensiya nədən qaynaqlanır?***

– Düzgün müşahidə aparmısınız. Həqiqətən, son vaxtlar əhalidə belə bir meyil var. Məlumdur ki, ənənəvi bağçılıq məhsulları həm sulu, ətirli və həm də dadlı olur. Bu meyvə sortları uzun onillər, əsrlər boyu təcrübəli bağbanlar tərəfindən yetişdirilib, sonrakı nəsillərə ötürülüb. Bu meyvə sortlarının qədir-qiymətini bilmək, onları artırmaq, əlbəttə, borcumuzdur. Nahaq yerə demirlər:

**Qubanın ağ alması,**
**Yeməyə bağ alması.**

Xoşbəxtlikdən, bu gün Qubanın ağ almasının şöhrətini yaşadanlar çoxdur. Siz məni tərifləyirsiniz, amma bizim Qubada kifayət qədər öz işini bilən alim-aqronomlar var.

***– Bir vaxtlar Qubada ənənəvi bağçılığın az səmərəli olduğunu iddia edirdilər. Sizcə, rayon ərazisində kütləvi surətdə salınmış palmet və spur bağları gözləntiləri doğrultdumu?***

– Bu məsələyə bir qədər geniş aspektdən yanaşmaq lazımdır. Palmet və spur meyvə bağları, eləcə də müasir texnologiyalar əsasında salınmış intensiv bağlar zamanın tələbidir və iqtisadi cəhətdən özünü doğruldur. Belə bağlarda yetişdirilən meyvə sortları dünya bazarlarında tanınır və qlobal istehlakçılar tərəfindən qəbul edilir.

İntensiv bağlarda meyvə ağacları, bir qayda olaraq, cəmi 3-4 ildən sonra bəhərə düşür. Onların hər hektardan orta məhsuldarlığı 1000, hətta 1200 sentnerə çatır. Bu, olduqca bol məhsul, deməli, yüksək rentabellik deməkdir. İqtisadi amil hər bir sahədə olduğu kimi, meyvəçilikdə də həlledici rol oynayır. Bunu gözardı etmək çətindir. Bununla bərabər, bütün hallarda ənənəvi bağçılığı diqqətdən kənarda qoymaq olmaz.

***– Mən sizin arqumentinizi qəbul etməyə bilmərəm. Amma gəlin, etiraf edək ki, "Qubanın bağ alması" deyəndə, insanların gözləri önünə, ilk növbədə, rayonun qədim meyvə bağlarının dadlı, ətirli meyvələri gəlir. Bu meyvələrin geniş həcmdə istehsalı və satışını təşkil etmək üçün hansı işlər görülməlidir?***

– Qədim meyvə sortlarının geniş həcmdə istehsalını və satışını təşkil etmək mümkündür. Bura armudun "Abbasbəyi", "Cəfəri", "Nurunburun", "Sini armud" və s., almanın "Qızıl Əhmədi", "Cırhacı", "Sarı turş" və digər sortlarını misal gətirmək olar.

Yeri gəlmişkən, qədim alma və armud sortlarından qurudulmuş meyvə (qax) istehsal etmək olar və bunu ekoloji təmiz məhsul kimi bazara çıxarmaq mümkündür. Alıcıları mütləq tapılacaq. Əlbəttə, bu istiqamətdə xeyli əmək sərf etmək, çalışmaq lazımdır.

***– Rayonda qədim meyvə sortlarının daha geniş həcmdə becərilməsinin təşkili üçün alim-aqronomların, Quba DAİM-in əməkdaşlarının üzərinə hansı vəzifələr düşür?***

– Qeyd etməyə dəyər ki, qədim meyvə sortlarını qorumaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun, eləcə də Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitunun alim və mütəxəssisləri tərəfindən bu sortlar toplanmış və regionda kolleksiya bağları salınmışdır. Quba rayonu Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri hazırda bu sortların becərilməsi və qorunması ilə bağlı yerlərdə geniş izahat və təbliğat işi aparırlar.

Son illər rayonun əksər kəndlərində qədim meyvə sortlarını yetişdirib onların əhaliyə satışını təşkil edən tingçi bağbanların sayı xeyli artıb. Bu, fikrimcə, təqdirəlayiq haldır. Bu gün hər ailə öz həyətyanı sahəsində qiymətli alma, armud növlərini becərməyə çalışır. Peşəkar tingçilər çeşidli meyvə sortları yetişdirməklə, əhaliyə geniş seçim imkanları yaradırlar.

***– Yaxın gələcəkdə şöhrətli Quba meyvələrini dünya bazarlarına çıxarmaq mümkündürmü? Bunun üçün hansı işlər görülməlidir?***

– Şimal bölgəsinin qədim meyvə sortlarından dünya bazarlarına çıxarmaq nəinki mümkündür, hətta mən deyərdim ki, çox vacibdir. Bunun üçün bir çox yerli alma və armud sortlarını beynəlxalq sərgilərdə nümayiş etdirməliyik, onların yüksək keyfiyyət göstəricilərini izah etməliyik. Burada marketinqin düzgün və səmərəli təşkili çox önəmlidir.

Mən tamamilə əminəm ki, Qubanın ətirli meyvələri Avropada və dünya bazarlarında mütləq öz layiqli yerini tutacaq. Böyük türk şairi Nazim Hikmətin gözəl bir söz var: "Pətəyində balı olanın arısı Bağdaddan uçub gələr". Vaxt gələcək, dünyanın hər yerində Quba meyvələri adla deyiləcək. Sadəcə, bu prosesi sürətləndirmək lazımdır.

***– Mədət müəllim, sonuncu sual. Bildiyimə görə, bu il Qubanın meyvə bağlarında məhsul bol olub. Amma bəzi fermerlər məhsulun ucuz qiymətə satıldığını söyləyirlər...***

– Mən belə deməzdim. Bu il bağlarda, həqiqətən, əvvəlki illərdən daha çox məhsul toplanıb. Meyvənin bir hissəsi elə bağlardan birbaşa realizə olunub, qalan hissəsi isə qışboyu satılmaq üçün soyuducu anbarlara yığılıb. Son illər rayonda xeyli sayda irihəcmli soyuducular inşa edilib.

Qarşıdakı aylar ərzində fermerlər məhsulu sərfəli qiymətlərə müştərilərə sata biləcəklər. Əsas odur ki, bu il bazar və marketlərdə meyvə sarıdan korluq olmayacaq. Deməli, həm bağbanlar, həm də istehlakçılar razı qalacaqlar.

***– Mədət müəllim, müsahibə üçün sağ olun!***

***Söhbəti yazdı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

*Böyük Qayıdışın töhfələri*

# Nə köçkünük, nə də qonaq...

**Xoş bir payız səhərinin təravətli havası Xocalı rayonunun Ballıca kəndinə yeni nəfəs verir. Dağların arxasından qalxan günəş Qırxqıza doğru irəlilədikcə, həyətlərdən örüşə tələsən qoyun-quzuların, inəklərin mələşməsi eşidilir, əkilib-becərilən torpaq yenidən canlanır. Bir vaxtlar erməni quldurlarının tapdağı altında əzilən bu kənddə indi həyat qaynayır. Qarabağda Böyük Qayıdışın ilk ünvanlarından olan Ballıca illər sonra yenidən əsl sahiblərinin yaşayış məskəninə çevrilir.**



Artıq 7-ci aydır məcburi köçkünlük həyatı ilə vidalaşaraq Ballıcaya qayıtmış Abdullayevlər ailəsi də sevinclə, qürurla doğma yurdlarında yaşayır, öz halal zəhmətləri ilə dolanır, sabaha ümidlə baxırlar. Ailənin başçısı, 67 yaşlı Südabə Abdullayeva üçün bu torpaq sadəcə ev, yurd deyil, bir ömür boyu ürəyində daşıdığı Vətəndir. Gülümsəyərək deyir ki, bura bizim nəfəs yerimiz, ömrümüzün yeni novrağıdır.

Əsasən heyvandarlıqla məşğul olan ailənin təxminən 30 baş mal-qarası var. Süddən yağ, pendir, qaymaq, qatıq hazırlayıb satır, öz təbirlərincə, yaxşı da yaşayırlar. Həyətdə toyuq-gücə də az deyil. Qəfil bir qonaqları gəlsə, kəsməyə çolpaları, səhər bişirməyə yumurtaları var. Yəni dolanışıq üçün hər şey öz əllərinin zəhmətindən doğur. Zəhmətlə yaşamaq isə qürurvericidir.

Südabə xanım elə bu yerlərdə doğulub. Qayğısız uşaqlığı, xoşbəxt gəncliyi Xocalının Daşbulaq, Kosalar kəndlərində keçib. Ötən əsrin 90-cı illərində torpaqlarımıza göz dikmiş erməni quldurlarının qanlı cinayətlərindən baş götürüb qaçmağa məcbur olublar. Köçkünlük vaxtı onlara Ucar, Gəncə, Oğuz qucaq açıb. 4 övladı, 11 nəvəsi var. Həyat yoldaşı Sahib Qarabağ həsrəti ilə dünyasını dəyişib. Onlar zaman-zaman çox şey itirsələr də, doğma yurda dönmək ümidlərini, inamlarını qoruyub saxlayıblar.

İndi oğullarından biri – Səyavuşun ailəsi və 3 nəvəsi ilə Ballıcaya qayıtmış Südabə Abdullayeva bu torpağı dirçəltməyə özünü borclu sayır. Deyir ki, əgər belə sevgi ilə, sevinclə geri qayıdıb yaşamasaydıq, nə bu torpaq, nə də torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş qəhrəman oğullarımızın müqəddəs ruhlar bizi bağışlayardı.

Səyavuş da səhərdən axşama qədər təsərrüfatla, evlərinin qayğıları ilə məşğul olur. "Bu torpaqda yaşamaq üçün gərək torpağı hiss edəsən, hər daşına, hər ağacına can verəsən", – deyən Səyavuş üçün Ballıca indi keçmişin xatirəsi deyil, gələcəyin ümididir.

Məskunlaşmanın başlamasından keçən qısa vaxtda kəndin siması tamamilə dəyişib. Bir vaxtlar dağıdılmış evlər indi insan nəfəsi ilə hərarətlənir, susqun olan həyətlərdən tüstü qalxır, uşaqlar küçələrdə deyib-gülüb oynayırlar. Bir sözlə, hər yerdə canlanma var. Yolu bu kənddən düşən hər kəs burada həyatın necə sürətlə bərpa olunduğuna şahidlik edə bilər. Ballıcanın digər sakinləri kimi, Abdullayevlər də öz zəhmətləri ilə bu torpağı yenidən dirildiblər. Ən əsası da odur ki, daha onlardan heç biri Ballıcada nə köçkün, nə də qonaq deyil – öz evlərində, öz torpaqlarında, öz alın tərləri ilə yaşayırlar.

Südabə xanım sonda baxışlarını uzaqlara dikib sakitcə deyir: "İllər sonra bu torpağa qayıdıb yenidən yaşamaqdan, burada



çörək bişirməkdən, süd sağmaqdan, torpaqla təmasda olmaqdan böyük xoşbəxtlik yoxdur. Dövlətimiz var olsun, bizim üçün hər cür şərait yaradılıb. 3 otaqlı, təmirli evlə təmin olunmuşuq. Qazımız, suyumuz, işığımız daimidir. İnternet çəkilib, yollar asfaltlanıb. Daha başqa nə arzulaya bilərik?".

Səyavuş da anasının sözlərini başı ilə təsdiq edir: "Biz həm sevinirik, həm də qürur duyuruq. Çünki Ballıca yenidən xoş günlərini yaşayır. Bu gün Ballıca təkcə bir kənd deyil, qayıdışın, dirçəlişin, səbrin və Vətən sevgisinin adıdır".

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Naxçıvanda payızlıq taxıl səpini

**Naxçıvan Muxtar Respublikasında da taxılçılığın inkişaf etdirilməsi mühüm vəzifələrdən biri kimi qarşıya məqsəd qoyulub. Bunun üçün torpaq resurslarının səmərəli idarə olunması, müasir aqrotexniki tədbirlərin tətbiqi, yüksək məhsuldar sortların becərilməsi və suvarma sistemlərinin təkmilləşdirilməsi istiqamətində addımlar atılır. Bu il 15 min hektar sahədən 37 min 649 ton taxıl tədarük olunub, orta məhsuldarlıq hər hektar üzrə 25,1 sentner təşkil edib.**

Hazırda isə payızlıq taxıl əkini üçün sahələrdə zəruri işlər davam edir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, bu mövsümdə muxtar respublika üzrə 14 min hektar sahədə əkin aparılması nəzərdə tutulub. İndiyədək isə 11 min hektardan artıq sahədə şum, 8 min hektara yaxın ərazidə isə səpin aparılıb. Əkin prosesinin səmərəliliyini artırmaq məqsədilə bölgələrə 1000-dən artıq kənd təsərrüfatı texnikası – traktorlar, səpin aqreqatları və torpaq yumşaldıcıları cəlb edilib. Bununla yanaşı, nazirlik tərəfindən təşkil olunan səyyar aqronom xidməti də fəaliyyətini davam etdirir. Mütəxəssislər fermerlərə toxum seçimi, səpin norması, torpaq hazırlığı və suvarma ilə bağlı praktiki məsləhətlər verirlər.



Öyrəndik ki, payızlıq taxıl əkinində əsasən yüksək məhsuldarlığı ilə seçilən "Ceyhan 99", "Qobustan", "Alekseiç" buğda sortlarına üstünlük verilir. Əvvəlki illərdə olduğu kimi, bu il də muxtar respublika üzrə ən çox əkin sahələri Şərur, Sədərək və Babək rayonlarının payına düşür. Hazırda bu rayonlarda qızğın iş gedir. Şərur rayonunda tanınmış fermerlərdən İsa Salmanov, Sədərək rayonunda Eldəniz Məmmədov daha çox buğda və arpa əkməyi qarşılarına məqsəd qoyublar.

**Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri Məhəmməd Zeynalov** bizimlə söhbətində bildirdi ki, taxıl əkinlərinin aqrotexniki qaydalara uyğun keçirilməsinə nazirlik tərəfindən xüsusi diqqət yetirilir. Əkin və suvarma prosesləri üzrə bütün rayonlarda gündəlik monitorinqlər aparılır.

Müsahibimizin sözlərinə görə, hazırda payızlıq əkin ilə bağlı fermerlərlə mütəmadi iş aparılır və sahələrdə vəziyyətin operativ qiymətləndirilməsi davam etdirilir. Cari mövsümdə yağıntıların əvvəlki illərlə müqayisədə az olması suvarma prosesinə müəyyən təsir göstərir. Mövcud resurslardan səmərəli istifadə olunması və fermerlərin ehtiyaclarının vaxtında qarşılanması məqsədilə zəruri addımlar atılır.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Badamçılığa sığorta ödənişi

**Azərbaycanda uğurla tətbiq olunan dövlət aqrar sığorta mexanizmindən faydalanan fermer və təsərrüfatların sayı sürətlə artır. Bu günlərdə Aqrar Sığorta Fondu tərəfindən meyvə bağları üzrə növbəti iri məbləğdə sığorta ödənişi həyata keçirilib.**

Kənd Təsərrüfatı Nazirliyindən mətbuata bildirilib ki, Xaçmaz rayonunun Cığatay kəndində yerləşən "Trek Service Engineering" MMC-yə məxsus badam bağın sel-subasma nəticəsində xeyli ziyan dəyib.

Hadisə 2025-ci ilin aprel ayında baş verib. Cığatay kəndinin yaxınlığından keçən Ağçay çayının daşması nəticəsində ətraf ərazilərlə yanaşı, badam bağı da sel altında qalıb. Müraciətdən sonra Aqrar Sığorta Fondu əraziyə müstəqil aqrar sığorta ekspertlərini cəlb edib. Ekspertlər bir neçə dəfə sahəyə baxış keçirərək zərərin xarakterini və miqyasını müəyyənləşdiriblər. Hadisənin miqyası nəzərə alınaraq fondun rəhbər şəxsləri və mütəxəssisləri də təsərrüfata baxış keçiriblər.

Aqrar Sığorta Fondunun hesablamalarına əsasən, "Trek Service Engineering" MMC-yə təyin olunan 200 min manat sığorta ödənişi tam şəkildə ödənilib.

***XQ***



*Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı – 120*

# Mədəni sahədə həmkarlığın şanlı tarixi

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının yaradılmasının 120 illik yubileyi Milli Məclis deputatlarının, ölkənin tanınmış mədəniyyət adamlarının, həmkarlar hərəkatı fəalları və könüllülərinin, media təmsilçilərinin iştirakı ilə təntənəli surətdə qeyd edildi.**






"Həmkarlarla 120 il" adlı mərasimdə məruzə ilə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov həmkarlar ittifaqlarının tarixi, keçdiyi inkişaf yolu və ölkəmizin ictimai həyatındakı önəmli rolundan geniş söz açdı. Natiq xatırlatdı ki, 1905-ci ildə "Çapçılar ittifaqı" adı ilə yaradılmış təşkilat ötən 120 ildə 4 müxtəlif siyasi quruluşda fəaliyyət göstərərək yaradıcı insanların əmək hüquqlarının müdafiəsində, güzəranının yüksəldilməsində zəngin təcrübə toplayıb, ölkənin nüfuzlu həmkarlar ittifaqlarından birinə çevrilib.

Konfederasiya sədri müstəqil dövlətimizin mədəniyyət, elm, təhsil və idman sahələrinə göstərdiyi diqqət və qayğının bu sahələrin problemlərinin aradan qaldırılmasına, hərtərəfli tərəqqisinə xidmət etdiyini vurğuladı. O qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə formalaşdırdığı bu siyasət son 23 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Bildirildi ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mədəniyyət sahəsində həyata keçirilən çoxsaylı layihələr xalqımızın milli-mənəvi dəyərlərinin qorunub inkişaf etdirilməsi, dünyada tanıdılması ilə bağlı bütöv bir mərhələ təşkil edir. Ötən illərdə 23 tarixi-mədəni abidəmizin UNESCO-nun bəşəri irs siyahısına salınması ilə ölkəmiz bu sahədə Dünya 5-cisi səviyyəsinə yüksəlib.



Qeyd edildi ki, AHİK-in, eləcə də Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının əmək hüquqlarının müdafiəsi, layiqli əmək şəraitinin təmin olunması, üzvlərin sağlamlığının qorunması, istirahətinin təşkili və rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi layihələrin çevrəsi ildən-ilə genişlənir, səmərəsi yüksəlir. Son dövrdə Konfederasiyada aparılan islahatların əhatə dairəsində mədəniyyət sahəsi də öncül yer tutur.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov rəhbərliyində təmsil olunduğu sahədə qazanılan uğurlarda 64 şəhər və rayonda 402 komitəni və 314 təşkilatçını birləşdirən, 53 min nəfərdən çox üzvü olan sahə həmkarlar ittifaqının fəal iştirakını yüksək qiymətləndirdi. Nazir müavini bildirdi ki, mədəniyyət, idman və media sahəsində çalışan vətəndaşların əmək hüquqlarının qorunmasında, onların istirahətinin və məişət şəraitinin yaxşılaşdırılmasında təşkilat nizamnamə vəzifələrini ardıcıl yerinə yetirir, nazirliklə birgə fəaliyyət göstərərək nailiyyətləri artırmağa önəmli töhfələr verir.

Milli Məclisin sədr müavini Rafael Hüseynov, parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və Xalq yazıçısı Çingiz Abdullayev yubiliyar qurumun rəhbərliyini və üzvlərini səmimi təbrik etdilər, ölkəmizin mədəni inkişafında sahə kollektivlərinin sanballı xidmətindən söz açdılar, onlara yeni uğurlar arzuladılar.

Qazaxıstan və Özbəkistanın sahə həmkar ittifaqlarının rəhbərləri Svetlana İmankulova və Odinaxon Əhmədova da azərbaycanlı həmkarlarının yubileyini təbrik etdilər, birgə layihələrin ümumtürk mədəniyyətinin tərəqqisinə yeni töhfələr verəcəyini söylədilər.

Sonra AHİK və MİHİ-nin son illərdə həyata keçirdiyi layihələr və əldə edilən yeniliklər barədə videotəqdimatlar nümayiş etdirildi.

İncəsənət ustaları sıralarında birləşdikləri sahə həmkarlar ittifaqının yubiley mərasiminə bayram təntənəsi, xoş ovqat gətirdilər.

Məclisin davamında əmək münasibətlərində sosial dialoqun inkişafına həsr olunmuş "İşçi ilə əməkdaşlıq" və "İşəgötürənlə əməkdaşlıq" mövzularında 2 panel müzakirəsi keçirildi. Dövlət qurumlarının nümayəndələri, həmkarlar ittifaqları təmsilçiləri və özəl sektor rəhbərləri əmək bazarının aktual məsələlərinə, sosial tərəfdaşlıq imkanlarına və işçilərin rifahının yüksəldilməsi ilə bağlı vəzifələrə aydınlıq gətirdilər.

***Tahir AYDINOĞLU***
***XQ***

*Bakı Türkoloji Qurultay – 100*

# Azərbaycanda yeni əlifba axtarışı

## *Bu problem 1926-cı ilə qədər də aktual idi*

**I Türkoloji Qurultayın keçirilməsindən xeyli əvvəl türk xalqlarının mədəni dirçəlişi və maariflənməsi ideyası Azərbaycan ziyalılarının elmi-fəlsəfi düşüncəsində dərin kök salmış faktlardan sayıla bilər. XIX əsrdə Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi və İsmayıl bəy Qaspıralı kimi mütəfəkkirlər türk dünyasında dil, yazı və düşüncə birliyinin vacibliyini irəli sürərək gələcək islahatların ideoloji əsasını yaratmışdılar. Onların fikirləri yalnız nəzəri müstəvidə qalmamış, milli oyanış hərəkatına çevrilərək maarif və mədəniyyət sahəsində yeniləşmənin başlanğıc nöqtəsi olmuşdur.**

Türk dünyasında mədəni müstəqillik və modernləşmə ideyasının ilk praktik nümunəsi kimi tarixə düşən Əlifba islahatı türk xalqları tarixində sadəcə qrafik yazı dəyişikliyi deyil, dərin mədəni, siyasi və ideoloji məzmun daşıyan hadisə kimi qiymətləndirilir. Bu proses müxtəlif türk dövlətlərinin modernləşmə və milli kimlik formalaşdırma istiqamətində atdıqları mühüm addımlardan biri olmuşdur. Əlifba dəyişimi yalnız texniki zərurətdən doğmamış, eyni zamanda cəmiyyətin dil, təhsil və mədəniyyət sistemlərinin yenilənməsi ideyalarını özündə ehtiva etmişdir.

XIX əsrin ortalarında əlifba islahatı ideyalarının əsasını qoyan Mirzə Fətəli Axundzadə bu sahədə türk dünyasında intellektual hərəkatın başlanğıcını yaratmışdır. O, Tiflisdə tərcüməçi kimi fəaliyyət göstərdiyi dövrdə



(1850-ci ildən etibarən) ərəb əlifbasının Azərbaycan dilinin fonetik sisteminə uyğunlaşdırılması təşəbbüsünü irəli sürmüş, ərəb qrafikasının fonetik uyğunsuzluğunun yazı və oxu prosesində ciddi çətinliklər yaratdığını elmi əsaslarla sübut etməyə çalışmışdır. M.F.Axundovun latın qrafikasına keçidi təklif edən ilk maarifçi təşəbbüs kimi Osmanlı sultanına ünvanladığı məşhur məktubunda deyilirdi: "Ümidvaram ki, böyük Osmanlı dövlətinin rəhbərləri xalqın həm dünyəvi, həm də axirət səadətini təmin edəcək bu mühüm məsələyə lazımi diqqət ayıracaq və üç yüz milyondan çox müsəlmanın elm və savad çatışmazlığından doğan cəhalət girdabında daimi qalmasına razılıq verməyəcəklər". Axundov həmin məktubunda əlifba islahatını islam dünyasının tərəqqisi üçün zəruri şərt hesab edir və bunun bütün müsəlman xalqlarının gələcəyinə təsir edəcək strateji addım olduğunu əsaslandırırdı.

1863-cü ildə İstanbulda Osmanlı Elm Cəmiyyətində çıxış edən Axundzadə öz əlifba layihəsini təqdim etmiş, bu təklif o dövrdə türk ziyalıları arasında geniş rezonans doğurmuş, xüsusilə mətbuat və ədəbiyyat çevrələrində mübahisələrə səbəb olmuşdur. Əksər Osmanlı ziyalıları bu islahatı dini və mədəni səbəblərlə rədd etmiş, yalnız Namiq Kamal kimi yenilikçi düşüncəyə malik bir sıra maarifçi Axundzadənin təşəbbüsünü dəstəkləmişdir. Ərəb əlifbasının dəyişdirilməsinə qarşı ən sərt müqavimət Quranın ərəb dilində olması ilə bağlı dini arqumentlərə söykənirdi. Nəticədə Axundzadə bu sistemin islahının praktik baxımdan mümkün olmadığını qəbul etmişdir.

Bununla belə, onun ideyaları sonrakı nəsil maarifçilər və ziyalılar üçün əsas ilham mənbəyinə çevrilmişdir. XIX əsrin sonlarında bu məsələ yenidən aktuallaşmış, 1886-cı ildə "Qafqaz" qəzetində Mirzə Əliməhəmmədin ərəb əlifbasının dəyişdirilməsi mövzusunda məqaləsi dərc edilmişdir. Ardınca Firidun bəy Köçərlinin 1898-ci ildə yazdığı "Ərəb əlifbası və onun çatışmazlıqları" adlı məqalə islahat ideyasının elmi müstəviyə daşınmasında yeni və mühüm addım olmuşdur.

XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi yazısında ərəb əlifbasının milli təfəkkürün inkişafına maneə yaratdığını kəskin tənqid etmişdir. O, yazı sisteminin sadələşdirilməsini xalqın maariflənməsi və savadlanması üçün vacib şərt kimi qiymətləndirmiş və qeyd etmişdir ki, "bu heroqlifləri latın əlifbası ilə əvəzləmək vacibdir".

Məhəmməd ağa Şahtaxtinski və Sultan Məcid Qənizadə kimi görkəmli ziyalılar da əlifba islahatının fəal tərəfdarlarından olmuşlar. Hələ 1879-cu ildə "Təkmilləşdirilmiş müsəlman əlifbası" layihəsini hazırlayan Məhəmməd ağa Şahtaxtinski ərəb qrafikasının çətinliyini, onun türk dillərinin fonetik xüsusiyyətlərinə uyğun gəlmədiyini elmi əsaslarla izah edir, yeni – səs əsaslı əlifbanın qəbulunun savadlılığın genişlənməsinə və maarifin inkişafına böyük təkan verəcəyini bildirirdi. O, Parisdə və Bakıda çıxan qəzetlərdəki yazılarında latın qrafikasına əsaslanan yeni yazı sisteminin yaradılmasını təklif etmişdi.

İlk orta təhsil məktəbinin yaradıcılarından olan Sultan Məcid Qənizadə isə əlifba məsələsini praktik və pedaqoji baxımdan dəyərləndirərək göstərirdi ki, uşaqlara ərəb əlifbasını öyrətmək həm vaxt, həm də enerji baxımından çox çətindir. Onun fikrincə, sadə və səslərə uyğun bir əlifba xalq arasında savadlanmanı sürətləndirəcək, milli mətbuatın dilini asanlaşdıracaq və elmi düşüncənin inkişafına xidmət edəcəkdir.

Türkçülük hərəkatının məşhur ideoloqu görkəmli ictimai-siyasi xadim, publisist, yazıçı, hüquqşünas, şərqşünas-islamşünas alim, jurnalist və pedaqoq Əhməd bəy Ağaoğlu əlifba məsələsini Türk dünyasının mədəni inkişafı baxımından son dərəcə vacib sayırdı. O, ərəb qrafikasının xüsusilə mətbuat üçün böyük maneə yaratdığını vurğulayırdı. Ağaoğlunun fikrincə, ərəb əlifbası daha çox poetik və elmi üslub üçün münasib idi, lakin qəzet və gündəlik ünsiyyət dilinin tələblərinə cavab vermirdi. O yazırdı ki, bu əlifbada yazılmış bir sətri anlamaq üçün oxucu çox vaxt sərf etməli olur, halbuki qəzet dili sadə, anlaşıqlı və axıcı olmalıdır.

Dövrün ziyalıları əlifba islahatını milli dirçəlişin, maarifin demokratikləşməsinin və türk dünyasının mədəni inteqrasiyasının əsas şərtlərindən biri kimi görürdülər. Bunun nəticəsi idi ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də (1918–1920) əlifba islahatı yenidən gündəmə gəlmişdir. Yeni yaranmış dövlətin maarifçi ziyalıları arasında yazı sisteminin müasirləşdirilməsi və xalqın savad səviyyəsinin yüksəldilməsi məsələləri geniş şəkildə müzakirə olunurdu. Əlifba məsələsi təkcə dilin texniki quruluşu ilə deyil, həm də milli kimliyin ifadəsi, müstəqil dövlətin modernləşmə istiqamətinin müəyyənləşdirilməsi ilə sıx bağlı idi.

Əlifba islahatına dair təşəbbüslər I Türkoloji Qurultaydan çox əvvəl formalaşmış,









lakin bu qurultay həmin ideyaların elmi əsasda müzakirə və təsdiq olunduğu beynəlxalq səviyyəli platformaya çevrilmişdir. Axundzadədən Əfəndizadəyədək uzanan bu maarifçilik xətti türk xalqlarının milli kimliyini qorumaq və müasir mədəniyyətlə sintez etmək iradəsinin ifadəsi idi və əlifba islahatı məsələsi ziyalıların yaradıcılığında mərkəzi yer tutmuş, türk xalqlarının müasir mədəniyyətə inteqrasiya yolunda mühüm amil kimi qiymətləndirilmişdir. Bu ideyalar dövlət səviyyəsində ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə reallaşma mərhələsinə qədəm qoymuşdur. 1919-cu il martın 21-də – Novruz bayramı günü Azərbaycan Parlamentində Xudadat bəy Məlik Aslanovun məruzəsindən sonra "Ərəb əlifbası islahatı üzrə komissiyanın yaradılması haqqında" qərar qəbul edilmişdir. Qərara əsasən Xalq Maarifi Nazirliyi nəzdində xüsusi komissiya yaradılmış, burada ərəb əlifbasının islahı və ya yeni əlifbaya keçid məsələsi elmi və praktiki aspektdən müzakirə olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Fərhad Ağazadə kimi ziyalılar bu məsələnin önündə gedən şəxslərdən idi. Fərhad Ağazadə latın qrafikasına keçidin zəruriliyini elmi arqumentlərlə əsaslandıraraq, ərəb əlifbasının Azərbaycan dilinin fonetik-fonoloji sisteminə uyğun gəlmədiyini göstərirdi. O, "Azərbaycan" qəzetində dərc etdirdiyi "Əlifba tarixində türklərin vəziyyəti" və "Dilimizin türkləşməyinə çarələr" adlı silsilə məqalələrində mövcud ərəb qrafikasının tədris və yazı prosesində yaratdığı çətinlikləri təhlil edir, latın əsaslı yazı sisteminə keçidi milli dilin inkişafı üçün "yeganə düzgün yol" adlandırırdı.

Komissiyanın müzakirəsinə 3 layihə təqdim edilmişdir: Abdulla bəy Əfəndizadənin, Məmmədağa Şaxtaxtlının və A.Tağızadənin Mir Əbdüləziz Seyidovla birlikdə tərtib etdikləri layihələr. Uzun mübahisələrdən sonra A.Əfəndizadənin "Son türk əlifbası" layihəsi daha praktik və tətbiqə yararlı hesab edilərək qəbul edilmiş, çapına da icazə verilmişdir. Lakin 1920-ci ilin aprelində baş verən bolşevik çevrilişi layihənin həyata keçirilməsinə mane olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanmış əlifba islahatı prosesi sovet mərhələsində sistemli mədəni islahat hərəkatına çevrilmişdir. Cümhuriyyətin süqutundan sonra da əlifba islahatı ideyası unudulmamış, əksinə, 1920-1930-cu illərdə yeni ictimai-siyasi şəraitdə yenidən aktuallaşmışdır. 1920-ci il noyabrın 11-də Xalq Maarif Komissarlığının qərarı ilə yeni türk əlifbası layihəsini hazırlamaq üçün xüsusi komissiya yaradılmışdır. 1921-ci ildə Nəriman Nərimanovun təşəbbüsü ilə əlifba və dil məsələləri sovet Azərbaycanında geniş müzakirə obyektinə çevrilmişdir. Hətta sovet hakimiyyətinin ilk dövründə yenidən aktuallaşmış əlifba məsələsi istiqamətində sistemli fəaliyyət planı hazırlanmışdır. Bu proses yalnız yazı sisteminin dəyişməsi ilə yekunlaşmamış, həm də Azərbaycan cəmiyyətində müasir düşüncənin, dünyəvi təhsilin və milli özünüdərkin formalaşmasına dərin təsir göstərmişdi. Bu dövrdə ziyalılar arasında iki əsas ideoloji qrup formalaşmışdı: "latınçılar" və "ərəbçilər".

Hər iki tərəf – həm "latınçılar", həm də "ərəbçilər" müxtəlif ideoloji mövqelərdən çıxış etsələr də, ortaq məqsəd kimi milli yazı sisteminin sadələşdirilməsini və savadlılıq səviyyəsinin yüksəldilməsini önə çəkirdilər. Lakin praktik baxımdan yalnız "latınçılar" konkret layihə hazırlayaraq onu elmi müzakirələrdən sonra hökumətə təqdim edə bilmişdilər.

Latın əlifbasının tərəfdarları – "latınçılar" islahatın elmi, pedaqoji və sosial baxımdan zəruriliyini vurğulayır, bu prosesdə səkkiz nəfərlik mütəxəssis qrupa F.Ağazadə rəhbərlik edirdi. Onlar dilin fonetik prinsiplərinə uyğun, öyrənilməsi asan və beynəlxalq əlaqələr üçün daha əlverişli olan latın qrafikasının tətbiqini əsaslandırırdılar.




Ərəb əlifbasının tərəfdarları isə daha çox dini və ənənəvi dəyərləri qorumaq mövqeyindən çıxış edirdilər.

1922-ci ilin martında komissiyanın fəaliyyəti genişləndirilmiş, eyni ilin aprel ayında isə komissiya daha yüksək səlahiyyətlərə malik Əlifba Komitəsinə çevrilmişdir. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (AMİK) yanında təsis edilən Komitənin yaradılmasının əsas məqsədi Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə uyğun, öyrənilməsi və tətbiqi asan olan latın əsaslı əlifbanın hazırlanması idi. Komitənin tərkibinə görkəmli ziyalılar – Səməd Ağamalıoğlu, Fərhad Ağazadə, Xudadat Məlik Aslanov, Abdulla Tağızadə və Əhməd Pepinov daxil edilmişdilər.

Başlanğıcda Komitəyə F.Ağazadə sədrlik etsə də, 1922-ci ilin 20 noyabrından bu vəzifə Abdulla Tağızadəyə, 1923-cü ilin martından isə S.Ağamalıoğluna həvalə olunmuşdu. Ağamalıoğlu həm komitəni, həm də AMİK-in sədri olaraq siyasi rəhbəri F.Ağazadə isə sədr müavini və nəşriyyat şöbəsinin müdiri kimi fəaliyyət göstərirdi. Komitənin mətbu orqanı kimi 1922-ci il sentyabrın 21-də Mirzə Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşrə başlayan "Yeni yol" qəzeti öz səhifələrində yeni türk (latın) qrafikasında yazılmış yazılar dərc etmişdir.

Yeni əlifbanın elmi əsaslarının hazırlanması məqsədilə 1922-ci ildə Səməd Ağamalıoğlunun təşəbbüsü ilə professor Bəkir Çobanzadə Bakıya dəvət olunmuş, ona latın qrafikasına keçidin elmi prinsiplərini işləyib hazırlamaq tapşırılmışdı. Çobanzadənin dilçilik və fonetika sahəsindəki təhlilləri islahatın nəzəri bazasının formalaşmasında mühüm rol oynamışdır.

Azərbaycan hökuməti 1923-cü il oktyabrın 20-də rəsmi şəkildə latın qrafikalı əlifbanın qəbulunu elan etmişdi. Keçid dövründə müəyyən müddət ərzində həm ərəb, həm də latın qrafikalı yazı sistemləri paralel şəkildə istifadə olunmuşdu. Beləliklə, Cümhuriyyət dövründə əsası qoyulan əlifba islahatının ideyaları sovet dövrünün ilk illərində daha sistemli və təşkilati şəkildə davam etdirilmiş, mətbuat vasitəsilə geniş ictimai müzakirəyə çıxarılmışdır.

Əlifba məsələsinə son elmi təsdiq 1926-cı il fevralın 26-dan martın 5-dək Bakıda keçirilən I Beynəlxalq Türkoloji Qurultayda verildi. Qurultayın 9–13-cü iclaslarında "Son Türk əlifbası" layihəsi qəbul edildi və qərara əsasən, bütün türkdilli respublikaların mərhələli şəkildə latın qrafikasına keçməsi təsdiqləndi. Bu qərar türk xalqları arasında mədəni və elmi inteqrasiyanın rəmzi kimi qəbul olundu.

Sovet hökumətinin dəstəyi ilə həyata keçirilən bu islahat 1929-cu il yanvarın 1-dən tam qüvvəyə mindi. Həmin tarixdən etibarən ərəb əlifbasının istifadəsi qadağan edildi, dini mətnlər və köhnə kitablar kütləvi şəkildə müsadirə olundu və yandırıldı. Bu kampaniyanın məqsədi təkcə yazını dəyişmək deyil, həm də ictimai yaddaşın yönünü yeni ideoloji məcraya çevirmək idi.

Azərbaycanın 1923-cü ildə latın qrafikasını qəbul etməsi beynəlxalq miqyasda, xüsusilə Türkiyədə böyük maraq doğurdu. Türkiyə mətbuatında bu addım "Türk dünyasının mədəni yaxınlaşması istiqamətində tarixi hadisə" kimi qiymətləndirildi. Azərbaycanın bu təşəbbüsündən beş il sonra, 1928-ci ildə Türkiyə Cümhuriyyəti də Atatürkün rəhbərliyi ilə latın əlifbasına keçid islahatını həyata keçirdi.

Lakin bu mədəni yaxınlaşma uzun sürmədi. Stalin dövründə Sovet İttifaqı rəhbərliyi türkdilli respublikalar arasında ortaq mədəni əlaqələrin qarşısını almaq məqsədilə latın qrafikasını kiril əlifbası ilə əvəz etdi. Bu addım türk xalqları arasında ortaq dil və mədəni inteqrasiyanın qarşısını almağa yönəlmiş siyasi qərar idi.

***Namiq ƏHMƏDOV***
***XQ***

*Sosial gündəm*

# Pensiya artımları dövlətin sosial siyasətində davamlı istiqamətdir

**İnkişafına görə regionun lider dövləti olan Azərbaycanın daxili siyasətində sosial siyasət həmişə prioritet istiqamət təşkil edib. Ölkəmizin maliyyə imkanlarının artması, öz növbəsində, əhalinin sosial rifah halının daha da yüksəldilməsi istiqamətində həyata keçirilən siyasətə mühüm töhfəsini verir.**

Dövlət büdcəsinin 40 faizdən çoxu sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilir. Əməkhaqları, pensiya, təqaüd və müavinətlərin, digər sosial ödənişlərin ardıcıl olaraq və dəfələrlə artımı təmin edilir. Gələn ilin dövlət büdcəsində sosialyönümlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat və ya 1.4 faiz çox olmaqla 17 milyard 146 milyon manat təşkil edir. 2026-cı ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərinin 4 milyard 873 milyon manat həcmində olacağı proqnozlaşdırılır ki, bu, 2025-ci ilin proqnoz göstəricisindən 121.2 milyon manat və ya 2.6 faiz çox deməkdir.

**Dövlət Sosial Müdafiə Fondu İdarə Heyəti sədrinin müavini Şahin Əliyev** XQ-yə açıqlamasında qeyd etdi ki, dövlət qurum-



larında əməkhaqqının artırılması məhz cənab Prezidentin imzaladığı sərəncamla həyata keçirilir. Bu baxımdan son illərdə həm minimum əməkhaqqı, həm də müəyyən dövət qurumlarında maaş artımını müşahidə edirik. Qanunvericiliklə pensiyaların həm indeksasiyalaşdırılaraq artırılması, həm də ehtiyac meyarı müəyyənləşir.

Yanvarın 1-dən etibarən “Əmək pensiyaları haqqında” qanuna əsasən, pensiya məbləğləri indeksləşdiriləcək artırılacaq və bütün növ pensiyalara şamil ediləcək. İlkin gözlənti ondan ibarətdir ki, pensiyalarda 9,2 faiz artım qeydə alınacaq. Bu həm yaşa, həm valideyn-





lərini itirməyə, həm də əlilliyə görə pensiyaları əhatə edəcək. **Müsahibimiz daha sonra bildirdi ki, növbəti ildən etibarən 1 milyon 100 min vətəndaşın pensiyalarında artımlar olacaq. Ehtiyac meyarının artırılması ünvanlı sosial yardım məbləğində artımlara səbəb olacaq:**

– Dövlət Sosial Müdafiə Fondunun (DSMF) növbəti il üçün əhaliyə ödənişlər üzrə xərclərində nəzərdə tutulan ciddi artım ölkəmizdə sosial müdafiə tədbirlərinin gələn il də uğurla davam etdiriləcəyini deməyə əsas verir. Belə ki, Fondun 2026-cı il üçün gəlirlərinin builki proqnoz gəlirlərinə nisbətən 705,7 milyon manat (9,3 faiz) çox olmaqla 8 milyard 323 milyon manat olması nəzərdə tutulur. DSMF-nin növbəti ildə xərclərinin isə 8 milyard 483 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bu vəsaitin 8 milyard 196 milyon manatı (96,6 faiz) əhaliyə ödənişlərə yönəldiləcək.

Fond gələn il əhaliyə 2024-cü ilə nisbətən 1 milyard 534 milyon manat, bu illə müqayisədə isə 788 milyon manat çox vəsait ödəyəcək. DSMF tərəfindən gələn il əhaliyə ödəniləcək vəsaitin 7 milyard 993 milyon manatının pensiya, 203,6 milyon manatının isə sosial sığorta hesabına verilən müavinət üzrə xərclərə yönəldilməsi nəzərdə tutulur.

***– Uğurlu sosial islahatlarla bağlı ölkəmizdə həyata keçirilən davamlı tədbirlər, pensiya təminatına əlçatanlığın artırılması istiqamətində hansı işlər görülüb?***

– Bildiyiniz kimi, Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş rifahının təminatı dayanır və sosial sahədə aparılan ardıcıl islahatlar bir daha bunu təsdiq edir. Cənab Prezidentin tapşırığı ilə 2018-ci ildən bəri ölkəmizdə 5 sosial islahat paketi icra olunub və 4 milyon nəfəri əhatə edən bu islahatlar üçün əlavə olaraq ayrılan illik vəsait 7,6 milyard manat təşkil edir. Bu islahatlar nəticəsində 2018-2025-ci illərdə minimum əməkhaqqında 3,1 dəfə, müavinət və təqaüd ödənişlərinə ayrılan illik vəsaitdə isə 5 dəfə, ÜDSY-nin orta məbləğində 2,5 dəfə artım olub.

Bu beş islahat paketinin hər birində pensiya artımı da yer alıb. 1,1 milyon insanı əhatə edən pensiyaların artımı hər bir islahat paketinin tərkib hissəsidir. Minimum pensiya 110 manatdan 3 dəfəyə yaxın artaraq 320 manata çatıb. 2018-2025-ci illərdə orta aylıq pensiya isə 208 manatdan 540 manata, yaşa görə orta aylıq pensiya 234 manatdan 575 manata artıb. Bütün bunlar onu göstərir ki, qeyd edilən sosial ödəənişlərdə ciddi artım dinamikası var, sosial ödənişlərdə artım davamlı xarakter alıb. 2018-2025-ci illərdə pensiya ödənişlərinə ayrılan vəsaitin illik həcmi də 2 dəfə artaraq 7,2 mlrd. manatı ötüb. Minimum pensiya artımı ilə yanaşı, hər ilin əvvəlində bütün pensiyaların indeksasiya əsasında artımı da həyata keçirilir.

2021-ci ilin iyul ayında qəbul edilmiş qanunla şəxsə əlillik müddəti bitəndən sonra 6 ayadək dövr ərzində təyin edilən əlillik əvvəlki müddətin bitdiyi tarixdən rəsmiləşdirilir. Qeyd edilən aralıq dövr üzrə də şəxsə əlilliyə görə sosial ödəniş, o cümlədən pensiya verilir.

Eyni zamanda, əmək pensiyaçılarının və əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında Prezidentin müvafiq sərəncamlarına əsasən sığorta prinsipi ilə pensiya alan pensiyaçılara 2022-ci il üzrə 200 manat məbləğində, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına isə aylıq əmək pensiyası məbləğinin (qulluq stajına görə əlavələr nəzərə alınmaqla) 10 faizi məbləğində aylıq maddi yardım ödənişləri həyata keçirilib. Həmin maddi yardımlar 2023-cü il yanvarın 1-dən əmək pensiyalarının tərkibinə daxil edilib və hər il indeksləşdirilir.

Həmçinin 2023-cü ildən başlayaraq pensiyaların hər il indeksləşdirilərək artırılmasında bütün pensiyaçılar üzrə vahid yanaşmanın tətbiqinə başlanıb. Yəni pensiyaların hər il indeksləşdirilərək artırılması artıq qulluq stajına görə pensiyalarına əlavələr təyin edilmiş pensiyaçılara (hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşları, dövlət qulluqçuları və b.) da şamil olunur.

Qanunun müvafiq maddəsi üzrə artıq çoxuşaqlı anaların uşaqlarının sayının tərkibində sadəcə doğma övladları deyil, həmçinin övladlığa və qəyyumluğa götürülən uşaqlar da nəzərə alınır. Bundan başqa, sözügedən kateqoriyadan olan şəxslər müvafiq yaş həddinə çatdıqda, fərdi hesabının sığorta hissəsində 2006-cı il yanvarın 1-dən 2018-ci il iyulun 1-dək pensiya kapitalı qeydə alınmışdırsa, sözügedən şəxslərə 2006-cı ilin yanvarın 1-dək 25 il sığorta stajı güzəşt edilməklə avtomatlaşdırılmış qaydada pensiya təyinatı həyata keçirilir.

Əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan şəxslərə münasibətdə kapital tələbinin ləğvi bu kateqoriyadan olan şəxslərin pensiya təminatına çıxış imkanlarını genişləndirib. Qanunvericilikdə güzəştli şərtlərlə vaxtından xeyli əvvəl pensiyaya çıxmaq hüququ olan bir sıra kateqoriyalar (beşdən çox uşağı olanlar, 18 yaşadək əlilliyi müəyyən edilmiş uşağını 8 yaşınadək tərbiyə etmiş analar, zərərli işlərdə çalışanlar və b.) nəzərdə tutulub. Son illər qanunvericilikdə humanist dəyişikliklər edilərək daha erkən dövrdə yaşa görə pensiya hüququ yaranan şəxslərin sırası daha da genişləndirilib. Həmçinin təkcə son iki ildə güzəştli şərtlərlə erkən dövrdə yaşa görə pensiya hüququ verən peşə və vəzifələrin siyahısına 65 yeni peşə və vəzifə əlavə edilib. Hazırda həmin siyahıda 5 il erkən pensiyaya çıxmaq imkanı verən 4 mindən çox peşə və vəzifə göstərilib.

***– Sənəd toplamadan, heç bir quruma müraciət etmədən artıq vətəndaşlara proaktiv qaydada pensiya təyin olunur. Təbii ki, bu da vətəndaş məmnuniyyətinin artırılmasına, şəffaflıq və operativliyin təmin olunmasına xidmət edir.***

– Həssas kateqoriyadan olan əhalinin rifahının yüksəldilməsi, onların sosial təminatının daha da gücləndirilməsi məqsədilə Fond tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən sosial müavinət və təqaüdlərin təyinatı və ödənişi ilə bağlı fəaliyyətin daha şəffaf, innovativ və müyəssər platforma üzərindən təşkil olunması əsas prioritetlərindəndir.

Ötən dövr ərzində sosial müavinət və təqaüdlər üzrə proaktiv qaydada təyinatların artırılması, habelə sosial müavinət və təqaüdlərlə əhatə olunan əhalimizin sayında artım təbii ki, sosial ödəniş növlərinə dövlət büdcəsindən ayrılan vəsaitin də artmasına təsirsiz ötüşməyib. Son 7 ildə sosial müavinət ödənişləri üçün ayrılan illik vəsait beş dəfə artıb.

Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemində formalaşan məlumatlar əsasında vahid platforma üzərindən vətəndaşların müraciəti olmadan, onların sosial müavinət və təqaüd hüquqları proaktiv qaydada müəyyən edilərək təyinatlar aparılır. Ötən dövrdə 854 min, o cümlədən bu ilin 10 ayında 133 min sosial müavinət və təqaüd təyinatı elektron sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Aparılan islahatlar sosial təminatla əhatə olunanların sayının artması ilə nəticələnir. Fond tərəfindən sosial müavinət və təqaüd alanların sayı 2018-ci illə müqayisədə 527 min nəfərdən 1,7 dəfə artaraq cari ilin əvvəlinə 881 min nəfərə çatıb.

***Söhbəti hazırladı:***
***Mustafa KAMAL***
***XQ***

# Qarabağın tarixi abidələri inventarlaşdırılır





**Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin həyata keçirdiyi inventarlaşma işləri davam etdirilir. Görülən işlər nəticəsində Ağdam, Füzuli, Ağdərə və Xocalı rayonları ərazisində 16-sı arxeoloji, 9-u memarlıq abidəsi olmaqla, ümumilikdə, 25 tarix-mədəniyyət abidəsinin də yeri müəyyən olunaraq inventarlaşdırılıb.**

Bu zaman sahə tədqiqatı işləri görülüb, abidələrin elektron xəritələri hazırlanıb, fotofiksasiya və dron çəkilişləri aparılıb, arxiv sənədləri araşdırılıb və digər mənbələr nəzərdən keçirilib. İndiyədək işğaldan azad olunmuş ərazilərdə yerləşən 575 tarix-mədəniyyət abidəsinin inventarlaşma işləri başa çatdırılıb. Eyni zamanda, 402 tarixi, memarlıq və arxeoloji əhəmiyyət kəsb edən obyektin inventarlaşması həyata keçirilib və yeni aşkar edilmiş abidə kimi qeydə alınıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyul 2025-ci il tarixli 193 nömrəli qərarı ilə yeni aşkar edilmiş abidələrin 44-ü daşınmaz tarix-mədəniyyət abidələrinin siyahısına daxil edilib. Bununla da Qarabağ və Şərqi Zəngəzurda dövlət qeydiyyatında olan tarixi abidələrin sayı 749-a çatıb. Dövlət mühafizəsində olan 749 tarixi abidədən 130-da inventarlaşma işlərinin aparılması mümkün olmayıb. İnventarlaşdırılmayan abidələrin əksəriyyəti minalarla çirkləndirilən təhlükəli, yaşayış məntəqələrindən kənar, yüksək dağlıq və meşəlik ərazilərdə yerləşir.

30 ilə yaxın davam edən işğal müddəti tarixi abidələrin dağıdılmasına, vandalizmə uğramasına gətirib çıxarıb. Ümumilikdə işğaldan azad olunmuş ərazilərdə 68 abidə tamamilə dağıdılıb, 114 abidə böyük həcmdə və miqyasda dağıntıya məruz qalıb, digərlərinə isə müxtəlif dərəcədə ziyan vurulub.

Dövlət Xidməti 434 abidəyə dəyən maddi zərərin məbləğini hesablayıb. Ümumilikdə, tarixin maddi yadigarlarına dəymiş zərər 700 milyon 154 min manat təşkil edir.

***XQ***

*Milli kino tariximiz*

# Ölməz ekran əsərləri



***(əvvəli qəzetin 15, 25 və 28 noyabr tarixli saylarında)***

Azərbaycan kinematoqrafiyasında öz yeri olan 2 filmin – “Alma almaya bənzər”in və “Tütək səsi”nin çəkilişindən 50 il keçir. Hər iki genişekranlı kino əsəri zamanında tamaşaçı auditoriyasının böyük rəğbətini qazanıb, bu gün də maraqla baxılır.

## “Alma almaya bənzər”

Tanınmış rejissor Arif Babayev bu kinolentə qədər “Uşaqlığın son gecəsi” və “Gün keçdi” kimi bədii filmləri ilə öz sözünü deyə bilmişdi, sonra isə “Arxadan vurulan zərbə” və “Birisigün gecəyarısı”nı çəkəcəkdi. Adı məşhur xalq mahnısından götürülmüş yubilyar lirik kinokomediya isə onun zirvə yolunun yumorla zəngin mühüm mərhələsini təşkil edir. Ssenari müəllifi Alla Axundovadır.

Filmin baş qəhrəmanı Nadir baba (Hüseynağa Sadıqov) ömrü boyu bağbanlıq edib, bir-birindən gözəl almalar yetişdirir. Onun təhsili olmasa da, biliklərə, elmə həmişə can atıb, tumsuz alma sortu yetişdirmək istəyir. Nəhayət, gərgin əmək və təcrübələr sayəsində buna nail olur. Gözəl, sehrli almalar adamlara xoşbəxtlik gətirir. Məsələn, sürücü



Qurban (Həsən Məmmədov) gənc kolxozçu qız Mədinəyə (Səfurə İbrahimova) vurulur, müəllim (İnarə Quliyeva) dəcəl uşaqlarla dostlaşır, kobud telefonçu (Suğra Bağırzadə) mehriban və diqqətli olur, 7 qız atası Haşımın (Əhməd Əhmədov) ailəsində isə, nəhayət, oğlan uşağı doğulur. Lakin almalar möcüzə yaratdığı kimi, sehrli meyvənin hesabına varlanmaq istəyənlər də meydana çıxır. Film insanları düzlüyə, bir-birinə hörmət etməyə çağırır, xoşbəxtliyin yalnız halal zəhmətdə olduğunu göstərir.

“Alma almaya bənzər”də Fazil Salayev, Hacıbaba Bağırov, Ramiz Əzizbəyli, Tələt Rəhmanov, Arif Mədətov, Nadir Əsgərov və başqaları rol alıblar. Hər biri də filmə özünəməxsus kolorit qatıb. Çəkilişlər əsasən Qubanın alma bağlarında gerçəkləşib. Montaj və səsləndirmə də daxil olmaqla proseslər yarım ilədək davam edib.

Filmdə Hacıbaba Bağırovun rolu (Məmmədəli) böyük olmasa da, onun sözləri dillər əzbəridir: “İstəyirsən, sənin üçün bazarı bağlatdırım” və ya “İstəyirsən, sənin üçün texnikuma girim, necədir sənin üçün?”.

Hazırda Azərbaycan Dövlət Film Fondunun direktoru olan Cəmil Quliyev bu filmdə Bakıdakı 40 nömrəli məktəbin şagirdləri ilə bərabər Kərimov roluna çəkiləndə 12 yaşı vardı. İstedadlı debütü onun gələcək həyat yolunu müəyyənləşdirib və bir neçə il sonra Moskva Ümumittifaq Kinematoqrafiya İnstitutuna daxil olaraq orada kinorejissor ixtisasına yiyələnib. Bu, sehrli almaların təkcə kinoda deyil, real həyatda da uğura yol açdığına bir misaldır.

Film haqqında əhatəli məqalə müəllifi olan Ulduzə Qaraqızı yazır ki, maraqlı epizodlardan biri müəllimin təkidi ilə Kərimovun alma yediyi səhnədir. O, almanı yeyib qurtardıqdan sonra Ayşə müəllimin danlağına səbəb olur: “Sən almanın tumlarını da yemisən?”. Əslində isə alma Nadir babanın yetişdirdiyi yeni növdən olduğuna görə, çəyirdəksiz idi və qış vaxtı sinif çəkilişlərinin aparıldığı kinostudiya pavilyonuna məhz Qubadan gətirilmişdi. Özü də 2 dəfə. Əvvəlcə gətirilənləri kimsə “həzmi-rabe”dən keçirdiyi üçün yenidən Qubaya “alıcı” ezam olunubmuş.

O vaxt hazırlanıb təhvil verilən “Alma almaya bənzər” filmi Moskva sınağından da uğurla keçərək 1-ci kateqoriyaya layiq görülüb.

## “Tütək səsi”

Rejissor Rasim Ocaqovun xoş təəssüratı ilə ürəklərdə ocaq yandırdığı 50 yaşlı “Tütək səsi” bədii filmi isə yazıçı-ssenarist İsa Hüseynovun “Saz” və “Tütək səsi” əsərlərinin motivləri əsasında ekranlaşdırılıb.

Dramatik janrda olan kinopovestin hadisələri İkinci Dünya müharibəsi illərində Azərbaycan kəndlərinin birində cərəyan edir. Bu kənddə hər bir evdə müharibənin nəfəsi duyulur. Qadınlar və uşaqlar cəbhəyə getmiş ərlərin, ataların, oğulların yerinə çöl işlərini görürlər. Ekran əsərində real həyat, məhəbbət, sarsıntı və müəyyən qədər də sevinc ovqatı var.

Rasim Ocaqovun “Qatır Məmməd”dən sonra 2-ci tammetrajlı bədii filmi olan “Tütək səsi”nin natura çəkilişləri Qusarın Xuray, Əniğ, Urva və digər kəndlərində gerçəkləşib. Kütləvi səhnələrdə 500 nəfərə yaxın kənd sakininin iştirakı, real portret planlar əhvalata sənədli ton gətirir. Rejissor Cəbrayıl rolunda Qatır Məmməd obrazına çəkdiyi Şahmar Ələkbərovu görmək istəyirdi. Amma çəkilişlər başlananda aktyor möhkəm xəstələnir. Ona görə Rasim Ocaqov Moldovan aktyor Mixail Volontiri rola dəvət edir. Şahmar Ələkbərov yalnız həmin personajı səsləndirməklə kifayətlənib.

Digər obrazları Məmmədrza Şeyxzamanov (İsfəndiyar kişi), Yusif Vəliyev (Qılınc Qurban), Liva Eliava (Sayalı), Səfurə İbrahimova (İsmət), Ötkəm İsgəndərov (Nuru), Şükufə Yusifova (Tutu), Sadıq Hüseynov (Rza), Məmmədsadıq Nuriyev (Səlim), Şamil Süleymanov (Cümrü) və başqaları canlandırıblar. Tapdıq rolunun ifaçısı isə uzun müddət AzTV-də və dövlət qulluğunda rəhbər vəzifələrdə çalışmış Əməkdar jurnalist Akif Əli olub. Seyrçilər onu “Arxadan vurulan zərbə” filmindəki Fazil rolundan da yaxşı tanıyırlar.

Akif Əlinin dedikləri: “Tütək səsi” mənim taleyimdə dərin iz buraxıb. Ssenarinin, rejissorun və yaradıcı kollektivin sanbalına görə film çox güclüdür, həm də büsbütün Azərbaycan xarakterlidir. Çox məqamdan söz aça bilərəm, amma ən maraqlı olan oradakı yaradıcı qrup və ərsəyə gələn baxımlı bir filmdir”.

...Muxtarın cəbhədən “qara kağız”ı gəlir. Bu, onun həyat yoldaşı Sayalını hələ gənc yaşlarından sevən Cəbrayıla, bir növ, yol açır və onlar evlənirlər. Amma camaat bunu həzm edə bilmir, əsgər ailəsinə “sataşdığı” üçün onu kənddən qovmaq istəyirlər. Sayalının oğlu Tapdıq evdən gedir, Cümrüdə anasına qarşı güclü nifrət yaranır. O, ağlını itirir və elə hey dama çıxıb yanıqlı-yanıqlı tütək çalır. Eləcə də xəstələnib ölür.

Həmin rolun ifaçısı Şamil Süleyman çəkilişlərdən 30 il sonra Nabranda dincələrkən süd-qatıq aldığı qonşu ondan pul götürməyib. Bir gün də süd üçün gedəndə həyət qapısında balaca bir uşaq ona deyib: “Cümrü əmi, atam dedi ki, siz gəlməyin, özümüz süd-qatığı sizin evə gətirərik”. Məlum olub ki, filmdə Cümrünün tütək çaldığı epizod Qusarda həmin adamın evinin damında çəkilibmiş...

Bu da deyilir ki, Cəbrayılla Sayalının evinin qarşısındakı səhnənin çəkilişi milis maşınlarının nəzarəti altında baş tutub. Kənd camaatına elə gəlib ki, aktyor, doğrudan da, əsgər namusuna sataşıb. Ona görə M.Volontiri döymək istəyiblər.Ləngərli “Ürfani” (“Ruhani”) klassik aşıq havasının ifaçısı isə Aşıq Hüseyn Saraclı idi. Yeri gəlmişkən, “Tütək səsi”nin bəstəkarı Aqşin Əlizadədir. Filmin musiqisi süjet xəttinin dinamikası ilə üst-üstə düşür, filmdəki hadisə və xarakterlərin açılmasına kömək edir.

Filmin sonunda poçtalyon Milli kəndə əsgər gəldiyini xəbər verir. Kim bilir, bəlkə də bu, hamının həlak olmuş bildiyi Muxtar idi. Kinolentin baxışından gəlinən nəticə: Heç nəyə tam əmin olmadan addım atmayın, yanlışlıq baş verər.

**(ardı var)**

***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 255 (30949) 3 dekabr 2025-ci il, çərşənbə



# Nənələrin təndiri bərəkət ocağıdır

**Təndir min illərdir ki, Azərbaycanda kənd həyatının ayrılmaz hissəsidir. Ölkəmizin bir çox bölgələrində olduğu kimi, qədim türk yurdu Naxçıvanda da bu sənətkarlığı yaşadılır, təndirdən istifadə edənlərin sayı günbəgün artır. Ona görə ki, təndir çörəyinin dadı, ətri bir başqadır. Bu yaxınlarda muxtar respublikanın ucqar yaşayış məntəqələrindən olan Sədərək rayonunun eyniadlı kəndinə səfərimiz zamanı bunun bir daha şahidi olduq.**



Sədərək kəndində yaşayan Qaybalıyevlər ailəsi 20 ilə yaxındır ki, bu işlə məşğuldurlar. Ailə başçısı Səyyad Qaybalıyevlə evdə olmadığı üçün görüşə bilməsək də, ömür-gün yoldaşı İradə xanım bizi gülərüzlə qarşıladı, həm də elə iş başında. Hal-əhval tutduqdan sonra dedi ki, əvvəllər bu vaxtlar havalar çox soyuq keçərdi, qar, bəzən də yağış yağardı. Bizim də iş belədir ki, yağıntı oldusa, dayanmaq məcburiyyətindəyik. Amma havalar mülayim keçdiyindən, gördüyünüz kimi, işimizi davam etdiririk.

İradə xanım bu sənəti böyüklərdən öyrəndiyini deyir. Bildirir ki, əvvəllər kənddə hər bir ailənin təndiri olardı. Bu təndirlərin çoxu yerdən idi, yəni çörəyi oturaq yerdə bişirməli idin. Sonralar isə ayaqüstü təndirlərə tələbat artdı. Hazırda ən çox sifarişlər daşınan təndirlərədir.

Həmsöhbətimdən təndirin necə hazırlanmasını soruşuram. Deyir ki, təndirin yaxşı, keyfiyyətli olmasının ilk səbəbi onun hazırlandığı palçıqdan asılıdır. Yəni hər torpaqdan palçıq hazırlayıb təndir qoymaq olmur. Əli ilə kəndin şərq istiqamətində boş bir ərazini göstərərək torpağı oradakı dərədən götürdüklərini deyir:

– O ərazidəki torpaqlar əsl təndir torpağıdır, yəni gilli torpaqdır. Biz əvvəlcə o torpağın üst qatından, təxminən, 15-25 santimetr dərinlikdə götürdükdən sonra aşağı təbəqədən bizə lazım olan torpağı istifadə edirik. Bu torpaq o qədər təmizdir ki, tərkibində bir çınqıl belə tapa bilməzsən. Heç ələkdən keçirməyə də ehtiyac olmur. Sonra bu torpağı isladır, eynilə xəmir kimi "acımağa" qoyuruq.

Tam bir həftə boyunca həmin xəmir tam "acıyaraq" özünə gəlir. Sonra isə onu yaxşıca yoğururuq, yəni əlimizlə əzirik. Palçıq elə bir vəziyyətə gəlir ki, əlində plastilin kimi sallanır, amma yerə tökülmür. Hətta təndirin uzunömürlü olması üçün bu palçığa keçi qəzili (tükü) də qarışdırırıq. Keçi qəzili təndir palçığını elə keyfiyyətli hala gətirir ki, sonradan heç bir çatlama olmur.

Bunu da öyrənirik ki, təndirin palçığı hazırlanarkən ona təmiz su tökülür. "Təndir, ruzi-bərəkətdir", – deyən İradə xanım bunu ata-babalarından belə gördüyünü deyir. Qeyd edir ki, orta ölçülü bir təndirin qoyulması yay vaxtı 3 günə başa gəlir. Nisbətən soyuq havalarda isə bir həftəyə kimi sürür. Təndirin hazırlanması üçün ən yaxşı hava sərin havadır, yəni nə isti, nə də soyuq. Buna görə də yaz və payız aylarında daha çox sifarişlərin olduğunu deyir. Təndir hazırlandıqdan sonra isə onun ağardılması (yəni təndirin içində odun yandırılması) prosesi aparılır ki, təndirin divarları bişərək daha da sərtləşsin, sonrakı proseslərə dayanıqlı olsun.

Təndirlərin qiymətini soruşur və sifarişlərin haradan gəldiyi ilə maraqlanırıq. Müsahibimiz deyir ki, təndirin qiyməti ölçülərindən asılı olaraq 70-80 manatdan başlayaraq 120-150 manatadək dəyişir. Sifarişlər isə demək olar ki, hər yerdən – Sədərəkdən, Şərurdan, Naxçıvandan olur. İndiyədək müştərilərindən heç bir şikayət eşitməyən İradə xanım bunun işinə sevgi ilə yanaşmasından, işini daha keyfiyyətlə görməsindən qaynaqlandığını deyir.

Bəli, həqiqətən buradakı hər bir təndir usta əllərdən çıxan sənət nümunəsidir. Palçığın yoğrulmasından tutmuş təndirin qoyulmasına, içərisinin "ağardılmasına" qədər bu prosesə əl dəyər qatılır. Çünki təndir sənətkarlığı yalnız texniki bilikdən ibarət deyil, o həm də mədəniyyətin, estetik zövqün və nəsildən-nəslə ötürülən ənənələrin bir hissəsidir.

Təsadüfi deyil ki, ötən il "Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə" adlı milli nominasiya faylı UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Bu isə o deməkdir ki, Azərbaycan təndir sənətkarlığının yarandığı və yaşadıldığı bir diyardır. Bizə isə Qaybalıyevlər ailəsinin simasında bu sənəti yaşadanlara uğur diləmək qalır: təndiriniz bərəkətli, çörəyiniz bol olsun!

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

## İDMAN

### Qadın futbol millimiz FIFA turnirinin qalibi olub

**Banqladeşdə təlim-məşq toplanışında olan qadın futbolçulardan ibarət Azərbaycan milli komandası "FIFA Tri Nations Women's Football Series 2025" turnirində ikinci oyununu keçirib.**



Millimiz paytaxt Dəkkədə Banqladeş seçməsi ilə qarşılaşıb. Görüş millimizin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

İlk matçda Malayziya yığması üzərində 2:0 hesablı qələbə qazanan Şəmsi Əsgərovun komandası bugünkü nəticədən sonra 6 xalla turnirin qalibi olub.

### Parakamandan oxatmanın inkişafına dəstək

**Milli Paralimpiya Komitəsi (MPK) və Azərbaycan Kamandan Oxatma Federasiyası arasında parakamandan oxatmanın inkişafı ilə bağlı anlaşma memorandumu imzalanıb.**



Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, hər iki qurum rəsmiləri arasında geniş tərkibdə görüş keçirilib.

Tərəflər parakamandan oxatmanın inkişafı və əməkdaşlıq imkanlarını müzakirə ediblər. Memoranduma əsasən, hər iki qurum ölkədə parakamandan oxatmanın inkişafı, əlilliyi olan şəxslərin bu idman növünə cəlb edilməsi və birgə layihələrin həyata keçirilməsi istiqamətində qarşılıqlı fəaliyyət göstərəcəklər.

Qeyd edək ki, memorandumu komitənin baş katibi Toğrul Rəhimov və federasiyanın baş katibi Fərid Xəlilov imzalayıblar.

### İdmançılarımızın yeni reytinqi

**Gənclər və İdman Nazirliyi Azərbaycan idmançılarının dekabr ayının 1-nə olan reytinq cədvəlini açıqlayıb.**




Cədvələ əsasən ilk 10-luqda aşağıdakı idmançılar yer alıb: Həsrət Cəfərov (yunan-Roma güləşi) 480 xal, Giorgi Meşvildişvili (sərbəst güləş) 460 xal, Zelim Kotsoyev (cüdo) 430 xal, Ülvü Qənizadə (yunan-Roma güləşi) 400 xal, Elcan Hacıyev (cüdo) 370 xal, Osman Nurmaqomedov (Sərbəst güləş) 340 xal, Arseniy Djioyev (sərbəst güləş) 340 xal, Zelim Tçkayev (cüdo) 330 xal, Murad Əhmədiyev (yunan-Roma güləşi) 330 xal, Eldəniz Əzizli (yunan-Roma güləşi) 320 xal.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Kartof "qoca qitə"də ikinci çörəyə necə çevrildi?

**1586-cı il dekabrın 3-ü dünya tarixində ilk baxışda kiçik, amma nəticələri ilə son dərəcə böyük bir hadisə kimi yadda qalıb. Həmin gün Amerikadan Avropaya ilk dəfə kartof gətirilib. Bu bitki ticarət marşrutlarının, kənd təsərrüfatı mədəniyyətinin və hətta sosial-iqtisadi həyatın tamamilə dəyişməsinə səbəb olub.**

Kartofun Avropaya daxil olması kolonial ekspansiyanın təkcə siyasi və coğrafi deyil, həm də bioloji nəticəsidir. "Kolumb mübadiləsi" adlanan proses çərçivəsində Yeni Dünyadan "köhnə qitə"yə yüzlərlə yeni bitki və məhsul gətirildi. Lakin onların arasında kartofun rolu xüsusi idi. İlk vaxtlar kartof Avropada ehtiyatla qarşılandı. Bir çox ölkələrdə onu zəhərli sayır, hətta heyvan yemində belə az istifadə edirdilər. Ancaq kartofun yüksək məhsuldarlığı, soyuq iqlimə davamlılığı və geniş əkin imkanları onu qısa müddətdə əvəzolunmaz ərzaq məhsuluna çevirdi.



Kartofun Avropada kütləvi şəkildə yayılması XVIII–XIX əsrlərdə əhalinin sürətli artımının vacib səbəblərindən biri oldu. Eyni zamanda, kartofun Avropada geniş yayılması qitənin sosial və iqtisadi inkişaf trayektoriyasına ciddi təsir göstərdi. Əvvəla, bu bitkinin yüksək məhsuldarlığı və müxtəlif iqlim şəraitinə uyğunlaşması aclıq riskini əhəmiyyətli dərəcədə azaltdı. Avropanın mütəmadi quraqlıqlardan, müharibələrdən və məhsul çatışmazlığından əziyyət çəkdiyi dövrdə kartof kənd təsərrüfatı sisteminə sabitlik gətirdi. Onun həm uzun müddət saxlanıla bilməsi, həm də kiçik təsərrüfatlarda asanlıqla becərilməsi qida təchizatını daha etibarlı etdi və kənd əhalisinin sağlamlığa ehtimalını artırdı.

Bu proses yalnız kənd icmalarının həyat səviyyəsini yaxşılaşdırmaqla kifayətlənmədi, həm də Avropanın demoqrafik strukturunda böyük dəyişikliklərə yol açdı. Kəndlərdə qida istehsalının artması artıq əmək resurslarının bir hissəsinin şəhərlərə axın etməsinə səbəb oldu. Nəticədə urbanizasiya sürətləndi, şəhərlər böyüdü və sənaye mərkəzlərinə çevrildi. Xüsusilə, İrlandiya, Almaniya, Polşa və Rusiya kimi ölkələrin kənd təsərrüfatı strukturunda kartof həlledici rol oynadı. Hətta bəzi alimlər Avropa sənaye inqilabının demoqrafik zəmininin kartof sayəsində formalaşdığını bildirirlər.

İstehsalın artması və kənd təsərrüfatında daha az işçi ehtiyacının yaranması sənaye inqilabı üçün lazım olan ucuz, bol və davamlı işçi qüvvəsini təmin etdi. Kartofun yayılması sayəsində şəhərlərə köçən bu kütlələr fabriklərin, zavodların və yeni sənaye texnologiyalarının inkişafında mühüm rol oynadı. Şəhər əhalisinin artması həm də istehlak bazarını genişləndirərək sənaye məhsullarına tələbatı yüksəltdi.

Beləliklə, kartofun Avropaya gətirilməsi heç də sıradan bir aqrar yenilik deyildi. O, kənd təsərrüfatının məhsuldarlığını artırmaqla, sosial sabitliyi gücləndirməklə, urbanizasiyanı sürətləndirməklə və sənaye inqilabının demoqrafik bazasını yaratmaqla dünya tarixində dərin iz buraxdı.

Beləliklə, 1586-cı ildə kartofun Avropaya gətirilməsi, əslində, qitənin iqtisadiyyatını, demoqrafiyasını və qida mədəniyyətini kökündən dəyişdirən prosesin başlanğıcı oldu. Buna görə də əbəs yerə demirlər ki, tarixdə bəzən ən böyük dəyişikliklər məhz belə kiçik görünən hadisələrlə başlayır.

***S.ELAY***
***XQ***

# ASAN Süni İntellektin təqdimat mərasimi

**Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə yaradılan ASAN Süni İntellekt platformasının (ASAN AI Hub) təqdimetmə mərasimi keçirilib.**



Mərasimdə çıxış edən Agentliyin sədri Ülvi Mehdiyev platformanın ölkənin süni intellekt ekosistemi üçün əhəmiyyətini vurğulayıb.

Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov ASAN AI Hub-ın rəqəmsal transformasiya, iqtisadi inkişaf və elmi potensialın gücləndirilməsi baxımından önəmini qeyd ediblər.



14 milyonluq bir icmaya sahib olan, hər kəs üçün əlçatan öyrənmə, tətbiq və böyümə imkanları təqdim edən qlobal süni intellekt platforması "GenAI Works"un baş direktoru və həmtəsisçisi Steve Nouri isə "Günümüzdə generativ süni intellekt-2025" mövzusunda çıxış edərək qlobal trendlər, texnoloji inkişaf və süni intellektin tətbiq imkanları haqqında məlumat verib.

Tədbir çərçivəsində ASAN AI Hub ilə "Apolitical", "Breakthrough Social Enterprise" və "GenAI Works" arasında anlaşma memorandumları imzalanıb. Həmin əməkdaşlıqlar mərkəzin beynəlxalq innovasiya ekosisteminə inteqrasiyasını gücləndirəcək.

Sonra "Süni intellektdə açıq innovasiya: Hər kəs üçün körpü" adlı panel müzakirəsi keçirilib.

***XQ***

## HAVA

# Bəzi rayonlarda yağış, dağlıq ərazilərdə qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gecə arabir güclənəcək.**



Havanın temperaturu gecə 8-11, gündüz 12-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 771 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 2-7, gündüz 12-16 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 1-6 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

✓ *2001-ci ilin dekabr ayında Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı tərəfindən Qasımov Orxan Ehtiram oğlunun adına verilmiş 163608 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

✓ *Xaçmaz rayonu Xudat şəhər sakini Məmmədov Ülvi İbrahim oğlunun adına verilmiş 0003592 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.*

✓ *Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi 108 nömrəli binanın zirzəmisində yerləşən qarajın Seyidova Albina Zakir qızına məxsus mülkiyyət sənədi itdiyi üçün etibarsız sayılır.*

✓ *Məmmədov Cavad Emin oğlunun adına etibarnamə ilə idarə etdiyi Marka model 21063 Minik avtomobilin 02BN047 Dövlət nömrə nişanlı avtomaşının qabaq qeydiyyat dövlət nömrə nişanı itdiyi üçün etibarsız sayılır.*

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

***Xüsusi təyinatlı nəqliyyat vasitələrinin satınalınması üçün***

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin xüsusi təyinatlı nəqliyyat vasitələrinin satın alınması üçün 2025-ci il noyabrın 18-də elan etdiyi açıq tenderin müddəti uzadılmışdır. İştirakçılar kanan.aliyev@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 18 dekabr 2025-ci il saat 15:00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Kənan Əliyev, satınalmalar üzrə aparıcı mütəxəssis, kanan.aliyev@azal.az, iş – (+99412) 4972600 daxili 4009.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3474
SİFARİŞ 2326
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00